www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 iyun 2015-ci il Çərşənbə axşamı № 124 (6152) Qiymıəti 40 qəpik

**Xəbər**

## Abutalıbovdan ilginc davranış; villaları canlı musiqi ilə sökdürür

yazısı səh.2-də

**Gündəm**

### Türkiyədəki seçkilər Ermənistanla sərhədlərin açılmasına gətirəcəkmi? - Şərh



HDP-nin barajı aşmasının Bakı üçün mümkün siyasi sonucları; Türkiyədə hansı koalisiya qurulur-qurulsun, Azərbaycana və Qarabağ məsələsinə bundan ziyan gəlməyəcək...

yazısı səh.8-də

### Azərbaycan hakimiyyəti ilə Aydın Doğanın arasını kim vurub?

yazısı səh.3-də

### Putin Bakıda Qarabağı müzakirə edəcək

yazısı səh.2-də

### Bu həftə əfv ola bilər

yazısı səh.4-də

### "Mühacir qalmaqalı"nda son pərdə...

yazısı səh.5-də

### Erməni kəşfiyyatçı aman dilədi

yazısı səh.8-də

### Ekspert kredit müqavilələrinin qanunsuz olduğunu deyir

yazısı səh.5-də

### AXCP-nin sabiq şöbə müdirindən Əli Kərimliyə sərt ittihamlar

yazısı səh.10-da

### Qarabağ məsələsi BMT-yə qayıda bilərmi...

yazısı səh.13-də

### DÇ-2018 Rusiyadan alınsa, Azərbaycana verilə bilərmi?

yazısı səh.15-də

### Şagirdlərin 67 faizi ana dilindən "2" və "3" alıb

yazısı səh.14-də

### "Hökumət dollara olan tələbi azaltmağa çalışmalıdır"

yazısı səh.15-də

### AB Türkiyədəki seçkiləri "demokratiyanın qələbəsi" adlandırdı

yazısı səh.2-də

## "Siyasi dönük" Arif Məmmədov haqda şok iddia

# DİPLOMATI "MÜXALİFƏT LİDERİ"NƏ ÇEVİRMƏK PLANI

**Mirzə Xəzər:** "Bu ssenarinin baş qəhrəmanını Arif Məmmədov məharətli aktyor kimi bacarıqla oynayır"; Azərbaycan cəmiyyəti bu texnologiyaya çox da uzaq olmayan tarixdə şahidlik edib: "üsyançı" Rüstəm İbrahimbəyov timsalında...




yazısı səh.9-da

## Doğum günü ərəfəsində öldürülən bələdiyyə sədri haqda şok məlumatlar

Vəsilə və Vəfadar Əbilhəsənovları qətlə yetirənlər onların yaxın adamları imiş; dəhşətli hadisənin torpaq satışı ilə bağlı olması versiyası var; qatil cinayəti tamah məqsədilə törətdiyini deyib...

yazısı səh.4-də



### Göyçayın icra başçısının qohumunun növbəti "qoçu"luğu

yazısı səh.3-də



*Elxan Şahinoğlu:*

### "Güman ki, hərbçilər AKP-HDP birliyinə, radikal kürdlərin istəklərinə seyrçi qalmayacaq"

yazısı səh.11-də



*Aynur Camalqızı:*

### "Avropa Oyunları Avropaya inteqrasiyanın ən gözəl üsuludur"

yazısı səh.6-da

**9 iyun 2015**

YENİ MÜSAVAT
N 124 (6152) 9 iyun 2015



## AB Türkiyədəki seçkiləri "demokratiyanın qələbəsi" adlandırdı

**Avropa Komissiyası Türkiyədə iyunun 7-də keçirilən seçkilər zamanı qeydə alınan yüksək seçici fəallığını alqışlayıb. Musavat.com-un xarici qaynağa istinadən verdiyi xəbərə görə, bu barədə Avropa Birliyinin (AB) genişlənmə və qonşuluq siyasəti məsələləri üzrə ali komissarı Yohannes Xan və xarici siyasət məsələləri üz ali komissarı Federika Moqerinin bəyanatında deyilir.**

"Bu, Türkiyə demokratiyasının möhkəmliyinin sübutudur. Yeni parlamentdə bütün mühüm partiyalar təmsil olunacaq və bu, xüsusilə vacibdir" - sənəddə deyilir.

Rəsmi Brüssel həmçinin ümid ifadə edib ki, Türkiyədə seçkilərdən sonra tezliklə yeni hökumət formalaşacaq. "Qarşıdakı dövr AB ilə Türkiyə arasında əlaqələrin möhkəmlənməsi, habelə bütün sferalarda əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar aşır", - deyə qurumun bəyanatında vurğulanır.

## Ronaldonun anasını aeroportda 55 min avro ilə tutdular

**Portuqaliyalı futbol ulduzu Kriştiano Ronaldonun anası Dolores Aveiro Madridin Barajas aeroportunda 55 min avro nağd pulla tutulub. Axar.az xəbər verir ki, ispan polisi aeroportda Kriştiano Ronaldonun 61 yaşlı anasından 45 min avronu götürərək Portuqaliyaya 10 min avro nağd pulla hərəkət etməsinə icazə verib. İspaniya qanunlarına görə, xaricə çıxarkən yanında ən çox 10 min avro nağd pul ola bilər.**

"El Mundo" qəzetinin xəbərinə görə, Ronaldonun anası pulun haradan gəldiyini göstərən sənədlər təqdim edənə qədər 45 min avronu geri götürə bilməyəcək.

## Bu gün 36 dərəcə isti olacaq

**İyunun 9-da Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan APA TV-yə verilən məlumata görə, gündüz mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 19-21, gündüz 27-29 dərəcə isti olacaq. Çimərliklərdə dəniz suyunun temperaturu 20-21 dərəcə isti təşkil edəcək.

Sabah Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz, lakin gecə və səhər bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22, gündüz 31-36, dağlıq və dağətəyi rayonlarda gecə 10-15, gündüz 21-26 dərəcə isti olacaq.

## FHN binalara vurulan üzlüklərlə bağlı açıqlama yaydı

**Azərbaycan prezidenti İlham Əliyevin müvafiq tapşırığına əsasən, paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarında süni material olan poliuretanla üzlənmiş binaların üzlüklərinin sökülməsi və dəyişdirilməsi işləri sürətlə davam etdirilir.**

Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, hazırda poliuretan materialla üzlənmiş binaların fasad hissəsinə "fibro sement" və "modelpan" adlı süni tikinti materiallarından hazırlanmış üzlüklər vurulur.

Nazirliyin "İzotop" xüsusi kombinatının Radioloji laboratoriyası tərəfindən aparılmış radioloji müayinənin nəticəsinə əsasən, hər iki üzlüyün tərkibində süni radionuklidlər aşkarlanmayıb. Müəyyən edilib ki, bu üzlüklərin tərkibindəki təbii radionuklidlərin xüsusi effektiv aktivliyi tikinti materialları üçün müəyyən olunmuş həddi aşmır və bu materiallar radiasiya təhlükəsizliyi qaydalarına əsasən, tikintinin bütün sahələrində məhdudiyyətsiz istifadə oluna bilər. Eyni zamanda bu üzlüklər yanmayan materiallar qrupuna aiddir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Putin Bakıda Qarabağı müzakirə edəcək

**Rusiya prezidenti Vladimir Putinin Azərbaycana səfəri çərçivəsində Dağlıq Qarabağ probleminin həlli yolları müzakirə ediləcək.**

Strateq.az bildirir ki, bu barədə Rusiya prezidentinin köməkçisi Uşakov «İnterfaks»a bildirib.

Onun sözlərinə görə, Putinin 12-13 iyunda Bakıya səfəri zamanı ikitərəfli görüş keçiriləcək.

"Bu görüş zamanı regionun vacib problemləri, o cümlədən Dağlıq Qarabağ probleminin həlli yolları müzakirə olunacaq. Prezidentlər həmçinin 2014-cü ildə Həştərxanda keçirilmiş Xəzər sammitinin qəbul etdiyi qərarların icra vəziyyəti barədə fikir mübadiləsi aparacaq".



Uşakov deyib ki, görüş əvvəlcə dar çərçivədə, daha sonra nümayəndə heyətlərinin iştirakı ilə işçi naharda baş tutacaq.

Qeyd edək ki, V. Putin 1-ci Avropa Oyunlarının açılış mərasiminə qatılacaq.



## Abutalıbov villaları canlı musiqi ilə sökdürür

**Bakının "Dostluq" parkı ərazisində qanunsuz tikilmiş villalar musiqi sədaları altında sökülür. Virtualaz.org-a xəbər verir ki, bunun üçün söküntü işləri aparılan əraziyə xüsusi ansambl gətirilib. Onun ifa etdiyi musiqi nömrələri baş verənlərə təntənə fonu qatır. O da maraqlıdır ki, söküntü işlərinə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov şəxsən nəzarət edir. Bakı merinin bildirdiyinə görə, sökülən villaların yerində 10 min ədəddən çox ağac əkiləcək.**

## "Qanunsuz kabel yayımı ilə məşğul olanlara qarşı ciddi tədbirlər görüləcək"

**"Qanunsuz kabel yayımı ilə məşğul olanlara qarşı tədbirlər gücləndiriləcək". Bunu APA-ya Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri Nuşirəvan Məhərrəmli deyib. MTRŞ sədri bildirib ki, "Azərbaycanda kabel televiziyası haqqında" qanun layihəsi üzərində iş başa çatdırılıb: "Artıq qanun layihəsini müvafiq qurumlara göndərmişik. Çox təəssüf ki, ölkədə bəzi şirkətlər qanunsuz kabel yayımı ilə məşğul olur. Onlardan artıq bir neçəsinin adı məlumdur. "Citynet", "Alfanet", "Smart TV". və digər qanunsuz kabel yayımı ilə məşğul olanlara qarşı ciddi tədbirlər görüləcək".**

Qeyd edək ki, bu ilin aprel ayında MTRŞ tərəfindən xüsusi razılıq (lisenziya) olmadan qanunsuz şəkildə kabel şəbəkəsi yayım fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər barəsində müvafiq tədbirlər görülməsinə başlanılıb. Şura Sumqayıt şəhərində qanunsuz olaraq kabel şəbəkəsi yayım fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər barəsində müvafiq tədbirlərin görülməsi üçün Sumqayıt Şəhər Polis İdarəsinə müraciət ünvanlayıb.

## Tarif Şurası dərmanların qiymətlərinin tənzimlənməsi ilə bağlı məlumat yayıb



**İyunun 8-də Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. Şuranın Katibliyindən APA-ya verilən məlumata görə, iclasda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli Qərarı ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na uyğun olaraq, "Dərman vasitələrinin qiymətlərinin hesablanması üsullarına dair Təlimat" və bəyannamə formaları təsdiq edilib.**

Təlimat özündə dövlət qeydiyyatına alınmış dərman vasitələri üçün bazis qiymətlərin müəyyən edilməsi, həmin dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin hesablanması üsullarını ehtiva edir. Tənzimləmə təcrübəsi və dərman vasitələrinin qiymətləri üzrə informasiya mənbələrinə çıxış imkanları nəzərə alınmaqla, 10 istinad ölkəsi (Türkiyə, Fransa, İtaliya, İspaniya, Portuqaliya, Yunanıstan, Polşa, Macarıstan, Bolqarıstan və Sloveniya) seçilib.

Qiymət tənzimlənməsi məqsədilə təsdiq edilmiş bəyannamə formaları dərman vasitələrinin istehsalçıları və ya onların müvəkkil etdiyi şəxslər tərəfindən doldurularaq, 2015-ci il 9 iyun tarixindən etibarən müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyinə təqdim olunmalıdır.

Qərara uyğun olaraq, Tarif (qiymət) Şurasının Katibliyi dərman vasitələri üçün qiymət bəyannamələrinin təqdim edilməsi, onların təhlili və dərman vasitələrinin qiymətlərinin müəyyənləşdirilməsi prosesinin intensivləşdirilməsi məqsədilə işlərin aidiyyəti subyektlərlə koordinasiyalı şəkildə həyata keçirilməsini təmin edəcək.

"Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası", "Dərman vasitələrinin qiymətlərinin hesablanması üsullarına dair Təlimat", orijinal və generik dərman vasitələri üçün təsdiq edilmiş qiymət bəyannamə formaları və istinad ölkələrində dərman vasitələrinin qiymətləri üzrə informasiya mənbələri barədə məlumatlar Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının rəsmi internet səhifəsinin (www.tariff.gov.az) "Dərman vasitələri" bölməsində yerləşdirilib.

## "Azərbaycanda növbəti devalvasiya gözlənilmir"

**"Azərbaycanda növbəti devalvasiya gözlənilmir". "APA-Economics"in məlumatına görə, bunu Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycanda səfərdə olan missiyasının rəhbəri Raca Almarzoqi deyib.**

Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatında devalvasiyanın növbəti dalğası ilə bağlı narahatlıq yoxdur: "Çünki dövlətin qızıl, valyuta ehtiyatları sabitləşib. Fikrimcə, növbəti devalvasiya olmayacaq. Amma iqtisadiyyatda neftin ixracda payının 95% təşkil etdiyi bir ölkədən danışanda Rusiya ilə Azərbaycanı müqayisə etməyək. Çünki Azərbaycan iqtisadiyyatı neftdən olduqca asılıdır. Bu təqdirdə açıq məzənnə siyasətinə keçmək çətin olardı. Neft ixracından əldə edilən gəlirlərin həcmi xeyli azalardı. Ona görə də biz hökumətə çevik valyuta məzənnəsinə tədricən keçməyi tövsiyə etdik ki, bu dövr ərzində qeyri-neft ixracatından əldə olunan mədaxil artsın".

## Müsavat saxta arayışla bağlı məhkəməyə müraciət edəcək

**Dünən Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. Müsavat Partiyasının üzvü, gənc fəal Oruc Novruzovun (Danyal bəyin) faciəli şəkildə həlak olması sükutla yad edilib. Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib.**

Divan üzvləri Gülağa Aslanlı və Elman Fəttahın Müsavat Partiyasının üzvü Nərgiz Yaqublunun Gürcüstanda keçirilən anım tədbiri barədə məlumatı dinlənilib.

İclasda Müsavat Partiyası adından Belçika Miqrasiya İdarəsinə təqdim olunan saxta sənədlərin ictimailəşdirilərək ifşa edilməsi müsbət qiymətləndirilib.

Partiyanın Mərkəzi İcra Aparatı tərəfindən bu fakt açıqlandıqdan sonra saxtakarların partiya üzvlərinə böhtan kampaniyasına başlaması barədə məlumat verilib.

Bu kampaniyada iştirak edənlərin Azərbaycan və Avropa məhkəmələri qarşısında cavab verməleri üçün hüquqi addımların atılması barədə qərar qəbul olunub.

Müsavat Partiyası Məclisinin sədri Nüşabə Sadıxlı Türkiyədə Azərbaycan Cümhuriyyətinin 97-ci ildönümü ilə əlaqədar Azərbaycan Kültür Dərnəyinin təşkil etdiyi tədbirlərdə iştirakı barədə məlumat verib. Bu tədbirlərdə fəal iştirak edən Müsavat Partiyasının təmsilçiləri - Nüsabə Sadıxlı, Almaz Əliqızı, Nəsiman Yaqublu, Könül Şamilqızı və Rəis Rəsulzadəyə təşəkkür elan edilib.

Türkiyədə keçirilən parlament seçkiləri ölkədə demokratikləşmənin dərinləşməsinə müsbət töhfə kimi qiymətləndirilib. Sonda cari məsələlərə baxılıb.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



**Göyçayda yeni icra başçısının təmir-tikinti işlərinə başlaması, yolları gediş-gəliş üçün normal hala gətirməsi sakinləri sevindirir. Amma gələn məlumatlar onu deməyə əsas verir ki, başçının qohum-qardaşının rayonda etdikləri onun yaxşı əməllərinin üstündən xətt çəkir.**

# Göyçayın icra başçısının qohumunun növbəti “qoçu”luğu

## Onun daha bir bacısı oğlu polis əməkdaşlarını döydürüb

Ötən saylarımızdan birində “İcra başçısının avtoş bacısı oğlu Qarabağ veteranını ölümünə döydürüb” sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda Mübariz Ağayevin bacısı oğlunun keçmiş polis işçisi və Qarabağ döyüşçüsü Vüqar Musəviyə məxsus evə basqın edib onu döyməsindən söhbət açılırdı. Redaksiyamıza daxil olan yeni məlumatlardan belə anlaşılır ki, Mübariz Ağayev başçı təyin olunandan sonra onun qohumlarının özbaşınalıqları bununla bitmir. Onun “Paşa sığorta” şirkətində işləyən Ağamir adlı bacısı oğlu Göyçay Rayon Yol Polisi Şöbəsinin Müslüm adlı işçisini və bir neçə Post Patrul Xidməti əməkdaşlarını 6 nəfərdən ibarət “qoçu” dəstəsi tərəfindən döydürüb. Məlumata görə, Vüqar Musəvini də döyən Ağamirin Cavid adlı qardaşıdır. Qaynağımız deyib ki, Qarabağ döyüşçüsünə, qadına əl qaldıran başçının bacısı oğlu və onun “qoçu”ları haqda tədbir görülmür. Onlar bu gün də rayonda sərbəst gəzirlər. Bu işin digər bir ucu da Göyçay Olimpiya İdman Kompleksinin müdiri olan M.Ağayevin qardaşı oğluna gedib çıxır. Məlumata görə, başçının bacısı və qardaşı övladlarının gözlərinə xoş görünməyənləri həmin kompleksdə gəzib dolaşan, məşq edən “qoçu”lar döyür. Bu gün Göyçay ictimayyətini haqlı olaraq bir sual düşündürür: həmişə prezidentin nümayəndəsi olduğunu vurğulayan M.Ağayev, deyəsən, prezidentin harınlamış məmur balaları və qohumları haqda dediyi sözləri unudub. “Biz göyçaylılar inanırıq ki, M.Ağayevin təkidinə baxmayaraq Baş Prokurorluq və Daxili İşlər Nazirliyi bu cinayətlərin üstünün bağlı qalmasına imkan verməyəcək” - deyə rayon sakinləri bildiriblər.

**Yazıda adları çəkilən şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV**



# İlham Əliyev “Baku Cristall Holl”da hazırlıq işləri ilə tanış oldu

**Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də birinci Avropa Oyunları zamanı idmanın bir neçə növü üzrə yarışların keçiriləcəyi “Baku Cristall Holl” da yaradılan şəraitlə tanış olublar.**

AzərTAc-ın məlumatına görə, gənclər və idman naziri Azad Rəhimov dövlət başçısına burada görülən işlər barədə məlumat verib.

“Baku Cristall Holl”da birinci Avropa Oyunları zamanı idmanın voleybol, boks, qılıncoynatma, taekvondo və karate növləri üzrə yarışlar keçiriləcək.

Burada voleybol meydançası yüksək səviyyədə yaradılıb. Dörd min tamaşaçı yerlik bu meydança beynəlxalq tələblərə cavab verən ən müasir texniki avadanlıqla təchiz edilib. Meydançada Oyunlar zamanı həm kişi, həm də qadın idmançılar mübarizə aparacaqlar. Ümumilikdə, birinci Avropa Oyunlarında Azərbaycan ilə yanaşı Belçika, Bolqarıstan, Finlandiya, Almaniya, Fransa, İtaliya, Polşa, Rusiya, Serbiya, Slovakiya, Türkiyə, Xorvatiya, Rumıniya, Hollandiya komandaları iştirak edəcəklər.

“Baku Cristall Holl”un boks meydançasında 2600 tamaşaçı yerlik tribuna qurulub. Birinci Avropa Oyunlarında boks üzrə kişilər 10 çəki dərəcəsində, qadınlar isə 5 çəki dərəcəsində qüvvələrini sınayacaqlar.

Voleybol və boks meydançalarının “Baku Cristall Holl”un əsas hissəsində yerləşməsi səbəbindən onların arasında xüsusi akustik divar qurulub.

“Eurovision” mahnı müsabiqəsi zamanı Mətbuat Mərkəzi kimi istifadə edilən tikili indi yarışlar üçün tam hazır vəziyyətdədir. Zalın mühüm xüsusiyyətlərindən biri də meydançanın hər 3 idman növünə uyğun şəkildə yenidən qurulmasıdır. Burada taekvondo və karate yarışları zamanı tamaşaçı tutumu 1500, qılıncoynatma yarışlarında isə 1100 olacaq. Qılıncoynatma yarışları zamanı burada beynəlxalq idman qurumlarının tələblərinə uyğun 72 metr uzunluğunda meydança quraşdırılacaq.

“Baku Cristall Holl”un ətrafındakı ərazidə 6 min kvadratmetr asfalt örtüyü yenilənib, o cümlədən 3 min 500 kvadratmetr yeni asfalt örtüyü salınıb. Burada Avropa Oyunları Ailəsi, idmançılar, texniki işçilər və VİP qonaqlar üçün yeməkxanalar yaradılıb. Bundan başqa, ərazidə akkreditasiya, logistika, mühafizə zonaları, “Bakı-2015" Avropa Oyunlarının Əməliyyat Komitəsinin əməkdaşlarının otaqları və digər müvəqqəti qurğular quraşdırılıb.

# Azərbaycan hakimiyyəti ilə Aydın Doğanın arasını kim vurub?

## Bir zamanlar telekanalı ölkəmizdə rahat yayımlanan, Bakıda ən yüksək səviyyədə qəbul olunan Türkiyənin media maqnatı son illərdə iqtidarla düşmənçilik edir



**Türkiyənin nüfuzlu iş adamı və media maqnatı Aydın Doğan yenidən Azərbaycanda hədəfə çıxıb. Hakimiyyət mənsubları Aydın Doğanın Azərbaycana qarşı qərəzli olduğu, hər fürsətdə Azərbaycan dövləti, hakimiyyətin əleyhinə təbliğat apardığını qeyd edirlər. Sonuncu dəfə isə A.Doğanın sahibi olduğu “Hürriyet” qəzetində araşdırmaçı jurnalist Xədicə İsmayılı müdafiə edən və haqsız olaraq həbs edildiyi ilə bağlı yaz dərc olunub. Məqalənin müəllifi “Hürriyət” qəzetinin əməkdaşı Tolqa Tanış həm də Ilham Əliyevə qarşı birləşmiş araşdırmaçı jurnalistlərdən biridir.**

Məlum yazıdan sonra hakimiyyət mediasında A.Doğana qarşı yazılar dərc olunur. Ancaq bugünlərdə məlum olub ki, Azərbaycanda Aydın Doğana məxsus olan telekanalların yayımı yığışdırılır. Əvvəlcə Doğan ailəsinə məxsus “Kanal D” televiziya kanalının yayımı kabel televiziyalarından yığışdırılıb. “ATV Plus” kabel televiziyası özünün facebook hesabında məlumat yayaraq bildirib ki, CNN Türk, Kanal D və Samanyolu Haber kanallarının yayımı dayandırılıb. Bundan başqa, “Azərspace” peykində test üsulu ilə yayımlanan bu kanallar yayımdan çıxarılıb.

Bununla da Azərbaycanda yalnız “Türksat” peykində Aydın Doğana məxsus kanallara baxmaq mümkün olmayacaq. Təbii ki, Aydın Doğan Türkiyənin ən nüfuzlu iş adamı, media maqnatı olaraq haqqında heç də birmənalı fikir yoxdur. Türkiyənin qaranlıq siyasətinin adamı adlandırılan, hətta filmlərdə mənfi qəhrəman, Qərbin adamı kimi təqdim olunan bu şəxslə bağlı kifayət qədər ciddi ittihamlar var. Lakin bu ittihamlar yeni deyil və heç də hər kəsə maraqlı deyil.

Məsələ burasındadır ki, Aydın Doğan bir zamanlar Azərbaycan hakimiyyəti ilə çox yaxın münasibətlərə sahib olub. 2001-ci il sentyabrın 6-da Bakıda səfərdə olan Aydın Doğan o zamankı dövlət başçısı Heydər Əliyevlə görüşüb. BDU-da fəxri doktor adı alan Doğanın Azərbaycandan başqa istəkləri də olubmuş. Belə ki, Doğana məxsus neft şirkəti “Petrol Ofisi” Azərbaycanda quru yataqlardan neft çıxarılmasında paya sahib olub. “Kanal-D” telekanalı isə Azərbaycanda yayınlanmağa başlayıb. Lakin bu, az müddət olub, bir neçə ildən sonra bu əməkdaşlıq dayanıb. Müşahidəçilərə görə, Aydın Doğan həmin vaxt Heydər Əliyevi aldadıb. Bakıya səfəri zamanı Azərbaycan hakimiyyətinə müxtəlif vədlər verib, lakin sonra yerinə yetirməyib. Ancaq təbii ki, Doğan və rəsmi Bakı arasında anlaşmanın alınmamasının, münasibətlərin pozulmasının əsl səbəbini heç kim bilmir.

Ancaq o da aydındır ki, xüsusən də son illərdə “Doğan Holdinq”ə məxsus media quruluşları Azərbaycanın maraqlarına zidd, ermənipərəst xəbərlər yayır. Xüsusən də Türkiyə-Ermənistan sərhədlərinin açılması kimi Azərbaycan hakimiyyətinin həssas yanaşdığı məsələlərdə Doğana məxsus media Bakını qəzəbləndirən siyasət yürüdüb.

Aydın Doğan 1936-cı il aprelin 15-də Türkiyənin Gümüşanə vilayətində dünyaya gəlib. Nüfuzlu ailənin övladı olan Aydın Doğan Ərzincanda lisey oxuyub, 1958-61-ci illərdə İstanbul İqtisad və Ticarət Məktəbində təhsil alıb.

1961-ci ildən iş adamı kimi fəaliyyətə başlayan Doğan əvvəlcə ticarət, ardınca isə sənaye sahəsində iş qurub. Türkiyənin nüfuzlu iş adamlarıı qurumlarının rəhbərliyində təmsil olunub. Aydın Doğan media sahəsinə 1979-cu ildə “Milliyet” qəzetini satın almaqla daxil olub. 1994-cü ildə Doğan “Hürriyyət” qəzetini də satın alıb və bununla da Türkiyənin bir nömrəli media maqnatı olub. 2004-cü ildə Aydın Doğan Dünya Qəzetçilər Assosiasiyasının prezidenti seçilib.

Media və iş dünyasının nüfuzlu adamı olan Aydın Doğan birbaşa olmasa da hər zaman siyasətlə əlaqəli olub. Türkiyədə “Qərbin adamı” kimi təqdim olunan Doğanın Türkiyə siyasətinə böyük təsir imkanlarının olduğu haqda iddialar ortaya atılıb. 1997-ci ildə Aydın Doğanın şəxsi villasının həyətində, giriş qapısı qarşısında fəaliyyətdə olan baş nazir Məsud Yılmazı pijama geyimində qarşılaması Türkiyədə uzun illər söz-söhbətə səbəb olan hadisəyə çevrildi. O zaman bu hadisə Doğanın Türkiyə siyasəti üzərində təsirinin simvolu kimi təqdim olunurdu. 1999-cu ildə Aydın Doğan “Dövlət Üstün Xidmət Medalı ilə təltif olundu.

Lakin 2002-ci ildə Türkiyədə hakimiyyətə AKP-nin gəlməsindən sonra Doğan ailəsi ilə hakimiyyət arasında bağlar qopdu. Bir neçə dəfə Aydın Doğan və şirkəti keçmiş baş nazir Rəcəb Tayyib Ərdoğanın tənqidlərinin hədəfi oldu. 2009-cu ildə isə Aydın Doğan vergidən yayınmaqda ittiham olundu. Ona qarşı 5 il həbs tələbi ilə iddia qaldırıldı. A.Doğanla yanaşı, “Doğan qrup”un rəhbərliyində olan daha 8 nəfərə qarşı iddia qaldırıldı. Sonradan Doğan “Petrol Ofisi” və daha bir neçə şirkətini satdı. Eyni zamanda hökumətlə nüfuzlu iş adamı arasında düşmənçilik zəifədi, qarşılıqlı ittihamlar azaldı. Lakin buna baxmayaraq, hazırda da Doğan mediası hazırkı Türkiyə hakimiyyətinə qarşı müxalif mövqedə dayanır. Bundan başqa, mediada A.Doğanla hazırda Amerikada yaşayan camaat lideri Fətullah Gülən arasında yaxın əlaqələrin olduğu ilə bağlı iddialar var.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 124 (6152) 9 iyun 2015

# Doğum günü ərəfəsində öldürülən bələdiyyə sədri haqda şok məlumatlar

Vəsilə və Vəfadar Əbilhəsənovları qətlə yetirənlər onların yaxın adamları imiş; dəhşətli hadisənin torpaq satışı ilə bağlı olması versiyası var; qatil cinayəti tamah məqsədilə törətdiyini deyib...

**Abşeronun Saray bələdiyyəsinin sədri Vəsilə Əbilhəsənova və həyat yoldaşı Vəfadar Əbilhəsənov iyunun 7-də axşam saat 21:00 radələrində yaşadıqları ünvanda öldürülüblər. Qatil bələdiyyə sədrinin boğazını kəsib, evi yandırdıqdan sonra hadisə yerini tərk edib. Baş Prokurorluğun mətbuat xidmətini rəhbəri Eldar Sultanov "Yeni Müsavat"a deyib ki, Abşeron Rayon Prokurorluğunda faktla bağlı Cinayət Məcəlləsinin 120.2.7-ci - 2 və daha çox şəxsi qəsdən öldürmə maddəsi ilə iş başlanıb. Olayı törətməkdə suçlu bilinən 1980-ci il təvəllüdlü Fədai Güloğlan oğlu Hüseynov tutularaq istintaqa təhvil verilib.**

1980-ci il təvəllüdlü Fədai Güloğlan oğlu Hüseynov barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Abşeron Rayon Polis İdarəsindən APA TV-yə verilən məlumata görə, qətlin tamah məqsədilə törədildiyi versiyası təsdiqini tapıb. Bunu saxlanılan Fədai Hüseynov öz izahatında bildirib. Lakin yazılan ifadənin təfsilatı barədə hələlik heç bir məlumat verilmir.

Hadisəni törətməkdə şübhəli bilinən Vüqar Hüseynov adlı şəxs də tutulub. O, Fədai Hüseynovun qardaşıdır.

V.Hüseynov ifadəsinin alınması üçün Abşeron Rayon Prokurorluğuna aparılıb. Onun baş verən cinayətdə əlinin olub-olmaması araşdırılır.

Məlumatlara görə, Fədail, Vüqar və Nuru Hüseynov qardaşları Saray qəsəbəsində ev və torpaq alqı-satqısı ilə məşğul olub və bələdiyyə sədri V.Əbilhəsənovanın yaxın adamları kimi tanınıb. Hadisə zamanı V.Əbilhəsənova və onun həyat yoldaşı qətlə yetiriləndən sonra evdən pul və heç bir qiymətli əşyalar oğurlanmayıb. Bu, hadisənin tamah məqsədilə törədildiyini istisna edir.

Redaksiyamıza daxil olan məlumata görə, F.Hüseynovla Əbilhəsənovların illər öncədən münasibətləri olub. O, qeyri-rəsmi olaraq bələdiyyədə çalışıb, sədrinin cangüdəni kimi də ad çıxarıb. "Laçınlı Fədai" kimi tanınan F.Hüseynov bələdiyyə sədrinin torpaqlarla bağlı mübahisələrində əsas şəxslərdən biri kimi iştirak edirmiş.

Hadisə günü gecə yarısı onun bələdiyyə sədrinin evinə sərbəst şəkildə daxil ola bilməsi də bu münasibətlərdən qaynaqlanıb. F.Hüseynov mənzilə daxil olandan sonra sədrin həyat yoldaşı Vəfadar Əbilhəsənova çoxsaylı bıçaq xəsarətləri yetirib, onu öldürəndən sonra Vəsilə Əbilhəsənovaya da bir neçə zərbə endirib. Qadının boğazını kəsib. Ən dəhşətlisi isə budur ki, qətl Əbilhəsənovların 2 övladının gözü qarşısında baş verib. Qatil hadisə yerini tərk edərkən mənzildə yanğın da törədib. Fövqəladə Hallar Nazirliyi (FHN) mənzildə baş verən yanğınla bağlı rəsmi məlumat yayıb. Məlumatda qeyd olunur ki, Abşeron rayonu, Saray qəsəbəsində vətəndaşa məxsus ümumi sahəsi 350 kv.m olan ikimərtəbəli 8 otaqlı evin birinci mərtəbəsində 1 otaq və əşyaları 20 kv.m sahədə qismən yanıb. Evin qalan hissəsi yanğından mühafizə olunub.





Qətllə bağlı rəsmi versiya açıqlanmır. Bu səbəbdən də ən müxtəlif versiyalar gündəmdədir.

Bu il aprelin 29-da moderator.az saytında "Saray bələdiyyəsinin xanım sədri qoçu dəstəsi saxlayır" sərlövhəli yazı dərc olunub. Şikayətçi Fikrət Məmmədovun məktubu əsasında hazırlanan həmin yazıda Saray bələdiyyəsində baş verənlərdən bəhs olunur. Torpaq alverində icra başçısı Zakir Fərəcovun qardaşı Elgiz Fərəcovun, onun dostu kimi Fədai Hüseynovun, qardaşı Vüqar Hüseynovun və Vəsilə Əbilhəsənovanın adları hallanır. Tamamilə mümkündür ki, qətl torpaq mübahisəsi zəminində baş verib.

**F.Məmmədov moderator.az-a göndərdiyi məktubunda yazır:** "Bələdiyyə sədri Vəsilə xanımın fəaliyyətini yoxlamaq kifayətdir ki, bələdiyyələrin vətəndaşların başına hansı oyunları açdıqlarını faktlarla müəyyənləşdirmək mümkün olsun. Vəsilə xanım uzun illərdir Saray bələdiyyəsi sədrinin müavini, indi də sədri seçilib. Xanım sədr torpaqları bölüşdürməkdə və satmaqda xüsusi mütəxəssisdir. Vəsilə xanım bu xüsusi qabiliyyəti sayəsində bu yaxınlarda Saray kəndində, "şamlıq" deyilən ərazidə Abşeron Rayonu İcra Hakimiyyəti Memarlıq və Tikinti şöbəsinin əməkdaşı Elgiz Fərəcovla əlbir olaraq əhaliyə paylanan 2 hektar pay torpağını öz sürücüsü Ziyadxanın adına sərəncam verərək saxta yolla özəlləşdirdikdən sonra Elgizin yaxın dostları olan Vüqar və Fədai Hüseynov qardaşlarının əli ilə satışa çıxarıb. "İşgüzar" sədrin fəaliyyəti bununla bitmir. Xanım bələdiyyə sədri Elgiz Fərəcovla Hüseynov qardaşlarının əliylə qanunsuz silahlı dəstə saxlaması isə dəhşət doğurur. Bu dəstə kənd ərazisini gəzərək xoşlarına gələn torpaq sahələrinin sahiblərinə hədə-qorxu gəlməklə dəyərindən 2-3 dəfə aşağı qiymətə alırlar. Xanım sədr həmin torpaqları Elgizlə birlikdə saxta yolla sənədləşdirərək yenidən baha qiymətə satışa çıxarırlar. Nəticədə xanım sədr Saray qəsəbəsi ərazisində bir qarış da olsa boş torpaq qoymayıb. Xanım sədrin xeyir-duası ilə Elgiz, Vüqar və Fədai qardaşları kənd ərazisində yerləşən "Üç qardaş" marketinin yanında bir hektardan artıq torpağı da zəbt edərək heç bir sənəd olmadan fərdi yaşayış evləri tikməklə ayrı-ayrı adamlara satır. Bundan əlavə, Elgizlə Vüqar Saray ərazisindən keçən beton kanalı torpaqla dolduraraq satışa çıxarıb".



İstintaqın bu versiyanı diqqətə alıb-almayacağı məlum deyil. Gözlənilir ki, qətl işinin materialları Abşeron Rayon Prokurorluğundan alınaraq Bakı Şəhər Prokurorluğuna veriləcək.

Olay baş verəndən sonra sədrin öldürülən həyat yoldaşı Vəfadar Əbilhəsənovun "Azərbaycan Polad İstehsalı Kompleksi" QSC-də aparat rəhbəri vəzifəsində çalışması haqda xəbər yayılıb. Xəbəri axar.az-a QSC-nin mətbuat xidmətindən təsdiqləyiblər. Məlum olub ki, V.Əbilhəsənov əvvəllər Sumqayıt şəhərində işləyib, "B&G" Sığorta şirkətinin filial rəhbəri vəzifəsində çalışıb. Mərhumun son iş yeri "Azərbaycan Polad İstehsalı Kompleksi" QSC-nin aparat rəhbəri vəzifəsi olub.

Qeyd edək ki, Vəsilə Əbilhəsənova bələdiyyə sədri postuna bu ilin yanvarında təsdiqlənib. Bundan əvvəl uzun illər bələdiyyə sədrinin müavini olub. Bununla yanaşı, Sumqayıt Dövlət Universitetinin filologiya fakültəsinin müəllimi vəzifəsində çalışıb. Onun xeyriyyəçiliklə məşğul olduğu da qeyd edilir. Öldürülən bələdiyyə sədrinin iyunun 8-də 39 yaşı olacaqdı...

**"Bu çox dəhşətli faciədir". Bunu millət vəkili Qənirə Paşayeva bələdiyyə sədrinin qətlə yetirilməsi barədə statusunda yazıb.**

**Deputat Vəsilə xanımın və həyat yoldaşı Vəfadar Əbilhəsənovun yas mərasimində iştirak etdiyini bildirib:** "Çox dəhşətli bir faciədir. Ailənin balaca uşaqlarının bu dəhşətli faciəni görmələri isə bir başqa dəhşətdir. Sözlə ifadə edilməyəcək qədər ağır bir faciədir. Allahdan Vəsilə xanıma və həyat yoldaşına rəhmət, əzizlərinə səbr diləyirik. İnşallah, bu faciəni törədən layiq olduğu cəzanı alacaq. Amma anasız və atasız böyüyəcək o iki günahsız körpənin içərisindəki acını azaltmaq çox çətin olacaq. Həm də çox çətin. Allah onlara yardımçı olsun".

**Qətlə yetirilənlər iyunun 8-də Saray qəbiristanlığında torpağa tapşırılıblar.**

**Mövzuya qayıdacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bu həftə əfv gözlənilir

İyunun 22-də AŞ PA-nın yay sessiyasında Azərbaycanla bağlı dinləmələr olacaq; **Səidə Qocamanlı:** "Zaman qısalır..."

**Avropa Oyunları və 15 İyun "Qurtuluş günü" yaxınlaşdıqca, əfv müzakirələri qızışır. Çoxları bu ərəfədə belə bir sərəncamın imzalanacağına ümid edir. Onlar hesab edirlər ki, önəmli yarışmanın keçirildiyi vaxtda əfvin verilməsi ölkəmizin imici baxımından müsbət nəticələr verər.**

Onu da qeyd edək ki, bu ayın 22-də AŞ PA-nın keçiriləcək yay sessiyasında Azərbaycanla bağlı dinləmələr olacaq. İqtidarın bu sessiyaya siyasi məhbuslarla gedib-getməyəcəyi sual altındadır. Gedəcəyi təqdirdə, üzləşəcəyi situasiyanı indidən təsəvvür etmək çətin deyil. Sadaladığımız amillərdən çıxış edərək, Qurtuluş günü ilə əlaqədar əfvin olacağı daha inandırıcı görünür.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı əfvin veriləcəyinə çox inanır:** Qurtuluş günü və AŞ PA-nın yay sessiyası ərəfəsində belə bir əfvin veriləcəyinə inanıram. Yay sessiyasında Azərbaycanla bağlı dinləmələr olacaq. Artıq Azərbaycan üzrə həmməruzəçilər hesabatlarını hazırlayıblar. Təbii ki, hesabatda arzuolunmaz faktlar da göstəriləcək. Heç də xoşagələn hal olmaz. İstəmərik belə olsun. Ona görə də əfvin verilməsi çox təqdirəlayiq olar. Amma unutmaq olmaz ki, əfvə təkcə cəmiyyəti



maraqlandıran insanların adı düşmür. O qədər məhbus Əfv Komissiyasına müraciət edir ki, hamısı siyahıya əlavə olunur. Onların arasında İşçi Qrupunun təqdim etdiyi şəxslərin olması yaxşı olardı. Çünki Azərbaycana gələn jurnalistlər bununla bağlı suallar verəcəklər. AŞ PA-nın keçiriləcək sessiyasına görə biz əfvə çox ümid edirik. Çox ümid edirəm ki, Avropa Oyunları kimi böyük, çoxlu əziyyət çəkilmiş yarışma ərəfəsində əfv olacaq. İlk dəfə ölkəmizdə keçirilməsini də unutmaq olmaz".

**Hüquq müdafiəçisi zamanından asılı olmayaraq, əfv sərəncamının daim müsbət amil olduğunu da qeyd etdi:** "Əfvin Avropa Oyunlarına heç bir dəxli yoxdur. Hər bir anda verilə bilər. Oyunlardan əvvəl, açılış olan gün və sonra da. Həmin gündə verilməsi şərt deyil. İnanırıq ki, İşçi Qrupu olaraq, çəkdiyimiz əziyyətlər hədər getməyəcək. Əməyimizə qiymət verilməsini çox istərdik. Hansı məhbuslar barəsində məsələ qaldırmışıqsa, onların azadlığa çıxması çox gözəl olardı. Onların sırasında xəstələr, cəzalarının çox hissəsini çəkmiş şəxslər var. Elələri var ki, əfv ərizələri də yazıblar. Onların azad olunması ziyan yox, xeyir gətirər. Təqdim etdiyimiz siyahıdan çox məhbusun azad olunmasına ümid edirik. Hamımız bu məsələnin tez həll olunmasını istəyirik. Çünki Avropa Oyunları elə bir yarışmadır ki, tarixə düşür. Bu yarışmaya kölgə salmaq üçün ölkəmizdən xaricdə çoxlu işlər görülür. Bunu biz istəməzdik. Bura bizim ölkədir. Çox sevirik. Adına hansısa ləkə gəlməsini istəmirik. Bura gələnin hər biri gözəl Azərbaycan görməlidir. Hazırda bizim üçün öndə olan əsas məsələ əfvdir. Artıq zaman qısalır. Avropa Oyunları yaxınlaşır. Ab-havanı duyuruq. Çoxlu təpkilər var. Bunlar olmamalıdır. Azərbaycan özünü tamhüquqlu dövlət kimi göstərməyə qadirdir. Bu həftə əfv olacağını deyə bilmərəm. Belə məsuliyyəti boynuma götürmürəm. Olmağına dəqiq olacaq. Ümid edirik ki, Avropa Oyunlarına qədər olacaq. Sadəcə, arzumuzdur. Bu qərar birbaşa prezidentin səlahiyyətindədir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 124 (6152) 9 iyun 2015

**Müsavat Partiyasındakı "mühacir qalmaqalı" davam edir. "Yeni Müsavat" son mübahisələrin rezyümesini təqdim edir. Partiyanın İcra Aparatının rəhbəri Gülağa Aslanlı hazırda mühacir həyatı yaşayan Elbəyi Həsənlinin ittihamlarına cavab verib.**

# "Mühacir qalmaqalı"nda son pərdə...

## Partiya rəhbərliyi fakt tələb edir, qarşı tərəf geriləyir...



Elman Fəttah



Elbəyi Həsənli

**Öz facebook səhifəsində bu barədə yazan Gülağa Aslanlı deyir:** "Elbəyi Həsənliyə onun əvvəlki statusuna yazdığım arqumentli cavabdan sonra yenə də yazıb: "Son 6 ayda Müsavat Partiyası tərəfindən vətəndaşlara 483 arayış verilib. Əksəriyyəti də bu bandanın əsas fiquru olan Gülağa Aslanlı tərəfindən imzalanıb. Bunları kimlərə və niyə vermişiniz? ....... Bunlara cavab ver, Gülağa Aslanlı. Mən filan yerdə yox idim demən, sənin bu cinayətdə olmaman anlamına gəlməz! Sən cinayətkarsan və həbs olunmalısan! Ki, Müsavat adından cinayət edən hər kəsə ibrət olsun".

Bu yazılan rəqəmlər tamamilə yalandır, iftiradır və böhtandır. Böhtana görə isə Cinayət Məcəlləsinə görə həbs cəzası nəzərdə tutulur. Elbəyi Həsənli və onu dəstəkləyənlər, sizə əminliklə bildirirəm ki, yalan ayaq tutar, ancaq yeriməz. Sizi mərd - mərdanə mübarizə aparmağa dəvət edirəm. Elbəyi Həsənli məni Bakıda olmadığım yas mərasimində xəyalında necə "görmüşdüsə", Müsavat Partiyası və onun rəhbərliyində olan şəxslər barəsində yazdığı böhtan və yalanları da xəyalında elə "görür"

***P.S.** 483 saylı "Arayış" barəsində mənim özəl mülahizələrim var. Bu barədə sonra..."*

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah da öz facebook səhifəsində partiya ətrafında baş verənlərə münasibətini bildirib. Onun yazdıqlarını olduğu kimi təqdim edirik:**

"Müsavat 22 ildir Əliyevlər rejimini:

1. Avtoritarizmdə.
2. Korrupsiyada.
3. Ailə hakimiyyəti qurmaqda.
4. Seçkiləri saxtalaşdırmaqda.
5. Müxalifəti repressiya etməkdə.
6. Söz azadlığını boğmaqda.
7. İlham Əliyevi legitim Prezident olmamaqda və s. ittiham edir.

Müsavat bütün fəaliyyəti boyu bunlara qarşı mübarizə aparır, öz siyasətində cəmiyyətə bu ittihamların əksi olan nümunələr təqdim edir.

1. Bərpa olunduğu gündən Müsavat seçkili demokratiyaya prinsipial əməl edir ( 22 ildir Müsavatdan başqa heç bir partiya demokratikliyin bu əlifba şərtinin tətbiqinə can atmır);
2. 2000-ci ildə deputatlığa namizədlərini təyinatla yox, ilkin seçkilərlə müəyyən edir;
3. 2001-cı ildə partiya başqanının ardıcıl olaraq iki dəfədən çox seçilməsinə məhdudiyyət qərarı ilə növbəti demokratik nümunəsini təqdim edir;
4. 2006-cı il qurultayında başqanın səlahiyyətlərini azaldaraq *(direktiv idarəçilikdən imtina və icra strukturu ilə qərar strukturunun ayrılması)*, Məclis sədri - partiyanın ikinci şəxsinin müəyyən edilməsini legitim çoxluğa həvalə edir;
5. Seçkili demokratiyanın prosedurlaşdırılması - namizədliyin öncədən irəli sürülməsi, təbliğat dövrünə vaxt ayrılması qaydalarının tətbiqinə başlayır;
6. Elə həmin ildə proqram siyasətinə (liberal demokratiya) uyğun olaraq Avropa Liberal Partiyalar Alyansına üzv olur;
7. Nəhayət, 2014-cü ildə Əliyev rejimini çox qəzəbləndirəcək növbəti addımını atır. Rejim monarxiya qurarkən Müsavat "iki dəfədən artıq" məhdudiyyətini tətbiq edir. İsa Qəmbərin namizəd olmadığı, paritet əsaslarla müəyyən edilən seçki komissiyaları təşkil edərək, son 100 ildə ilk dəfə alternativ namizədlərlə, tam şəffaf, tv ilə bütün prosedurların canlı yayımlandığı qurultay keçirərək (demokratik prezident seçkilərinin mümkünlüyü ekvivalentinin sübutu kimi) cəmiyyətə yeni demokratiya nümunəsi təqdim edir.

Rejim Müsavatdakı bu azad mühiti fürsət hesab edərək, qurultayda "namizədlə" iştirak edib, illərdir ölkə seçkilərində Müsavatdan aldığı məğlubiyyət zərbəsinin qisasını Müsavatın içindəki seçkidə qalib gəlməklə almaq işinə girişdi. Alınmadı.

Prinsipial olaraq qrant maliyyəsinə, oliqarx yardımlarına bulaşmayan, əvvəllər ideya üçün təmənnasız döyüşən insanların azaldığı mövcud şərtlərdə meydan sulayan "muzdlu müxalifətçilik"dən uzaq, nəticə etibarı ilə də media ruporundan məhrum qalan Müsavata qarşı rejim "b" variantına-Müsavat hakimiyyəti nədə ittiham edirsə, eyni ittihamlarla total böhtan və şantaj kampaniyasına qərar verir:

1. Müsavatın qurultay seçkiləri saxtalaşdırıldı;
2. Başqan və yeni rəhbərlik legitim deyil;
3. Müsavat ailə partiyasıdır;
4 Müsavatda söz azadlığı boğulur;
5. Müsavat öz üzvlərini repressiya edir;
6. Müsavat mühacir biznesi ilə məşğuldur - Müsavatda korrupsiya var.

Rejim bütün bu ittihamları əvvəllər könüllü şəkildə Müsavatın təbliğatçısı olan jurnalistlərin qələmi ilə, əvvəllər könüllü şəkildə Müsavata ruporluq edən media üzərindən etməklə xəbis, amma çox effektiv piar qura bilib.

Bu arada Milli Düşüncə Mərkəzinin rəhbəri, Müsavatın eks - başqanı İsa Qəmbər də facebookdakı son statuslarından birində bu mövzuya toxunaraq Müsavat Partiyasından saxta vəsiqə aldığını bildirən Elnur Mirzə adlı mühacir namizədinə konkret adlar çəkməyi təklif edib: "Yazıda (məlum problemlə bağlı "Yeni Müsavat"ın yazdığı yazı) ən çox diqqətimi çəkən Elnur Mirzəyevin bu sözləri oldu: "Və məni partiyaya apardılar, orda qapıda gözlədim. Sonra da mənə bildirildi ki, məsələ bir-iki günə həll olunacaq. Dedikləri kimi də oldu. İki gündən sonra mənə zəng gəldi ki, hazırdı. Və mənə bilet, Müsavatın nizamnaməsi, himni və strukturları haqda bir qovluq verdilər". ...apardılar, ...bildirildi, ...zəng gəldi, ...qovluq verdilər...Kim??? Kimlər??? Bax Elnur Mirzəyev bunu da desə, saxta sənəd işbazlarının ifşasına böyük xidmət göstərmiş olar".

Elnur Mirzə isə elə həmin statusun altında İ.Qəmbərə müraciət edərək yazıb ki, "əvvəla, onu deyim ki, məni partiya binasının qarşısına gətirməklə məqsədləri məni inandırmaq olub ki, həqiqi üzv oluram. Mən o vaxt Gülağa Aslanlıya və Vəfa Cümşüdlüyə öz partiya biletimin kopyasını göndərmişəm. Onda onlar onun saxta və qeyri-saxta olmağını məndən yaxşı bilirdilər. Sual: bəs niyə məhz indi bəyanat və tək mənim adıma? Mənim amma xəbərim olmayıb ki, o saxtadı. İndi siz kimi mühakimə edirsiz? Saxta sənədlə mühacirətə gedəni, yoxsa saxta sənəd düzəldəni? Əgər saxta sənədlə mühacirətə gələnləri mühakimə edirsinizsə, onda Belçikada onlarla belələri var. "Zapros" göndərin Belçika Miqrasiya İdarəsinə, onlar sizə ətraflı məlumat versinlər. Və ondan sonra Gülağa Aslanlının bəyanatında tək mənim adım yox, başqalarının da adını görən kimi mən sənədləri kim tərəfindən almışamsa, hər bir xırda detallarla sizə deyəcəyəm".

**Gülağa Aslanlı isə elə həmin müzakirədə aşağıdakı arqumenti səsləndirib:** "Elnur bəy etiraf edir ki, onunla inbox yazışmamızda onun Müsavat Partiyasının üzvü olmadığını yazmışam. Ona verdiyim suallar da yazışmada qalır. Bəyanatı verməkdə məqsədim Elnur bəyi deyil, mənim və Müsavat Partiyasının adından saxta sənədlər verən şəbəkəni ifşa etməkdir. Mən həyatım boyu heç bir saxta sənədə imza atmamışam və kimin nə deməsindən asılı olmayaraq bu halı əqidəsizlik, əxlaqsızlıq, şərəfsizlik hesab edirəm. Elnur bəy mənim adımı tez-tez hallandırmaqdansa, onu aldadan işbazların adını desə, özünün də xeyrinə olar".

**E.Mirzə isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, dostların xahişinə əsasən bu məsələdə artıq ad çəkməyəcək:** "Elbəyi Həsənlidə fakt var. O deyir ki, məndə faktlar var və onu ancaq İsa bəyə verəcəyəm. Buyursun, Elbəyi Həsənliyə müraciət etsin..."

**Elbəyi Həsənlinin bu mövzu ilə bağlı açıqlamaları var. Onu da ayrı yazıda təqdim edəcəyik.**

❑ **Sevinc TELMANQIZI**



Əkrəm Həsənov

# Ekspert kredit müqavilələrinin qanunsuz olduğunu dedi

## Əkrəm Həsənov: "Borclular ən pis halda..."

**"Ölkədə bağlanılan bütün kredit müqavilələri qanunsuzdur". Hüquqşünas Əkrəm Həsənov borclular üçün banklara qarşı növbəti ciddi arqument barədə danışarkən belə deyib. Onun sözlərinə görə, banklar kredit müqavilələrində faizlərin ayda bir dəfə ödənilməsini təsbit edir. Halbuki Mülki Məcəllənin 741-ci maddəsinə əsasən, faizlər ildə bir dəfə ödənilməlidir. "Bu müddəa Almaniya Mülki Qanunnaməsinin 488-ci maddəsi əsasında tərtib edilib. Fərq yalnız ondan ibarətdir ki, almanlarda bu norma dispozitivdir, bizdə isə imperativ. Yəni onlarda müqavilə ilə başqa qaydanın müəyyən edilməsi imkanı verilir, bizdə isə verilmir. Buna baxmayaraq, banklarımız müqavilədə başqa qayda, faizlərin aylıq ödənilməsini müəyyən edir və bununla da qanunu pozurlar. Bu isə o deməkdir ki, borclular ən pis halda aylıq əsasda ödədikləri faizlərin əsas borcun ödənilməsi hesab edilməsini tələb edə bilər. Bu isə əsas borcun, yəni kredit yükünün azalmasına gətirəcək" deyə, o qeyd edib.**

Ekspertin sözlərinə görə, ən yaxşı halda isə ümumiyyətlə kredit müqaviləsinin etibarsızlığı tələbini irəli sürmək olar: "Belə ki, Mülki Məcəllənin 337.1-ci maddəsinə əsasən, Mülki Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Deməli, o cümlədən məcəllənin 741-ci maddəsində müəyyənləşdirilmiş imperativ hüquq normasını pozmaqla bağlanmış kredit müqaviləsi də etibarsızdır. Deməli, Mülki Məcəllənin 337.5-ci maddəsinə uyğun olaraq borclu banka kredit məbləğini, bank isə borclunun ödədiyi faizləri və komisyon haqları qaytarmalıdır. Bu isə o deməkdir ki, borclunun kredit yükü xeyli azalmış olacaq. Əlavə olaraq, Mülki Məcəllənin 460.3-cü maddəsinə əsasən, krediti təmin edən öhdəliklər də- girov, ipoteka, zaminlik və sair etibarsız olacaq. Banklar təminatsız qalacaq".

**Ə.Həsənov qeyd edib ki, bu imkandan yalnız xarici valyutada kredit almış şəxslər deyil, həmçinin manatla kredit almış şəxslər də istifadə edə bilər:** "Xarici valyutada kredit alanlar Konstitusiya Məhkəməsinin son qərarının 6-cı bəndinə uyğun olaraq banklardan əhəmiyyəti güzəşt tələb etməklə yanaşı məhkəmə qaydasında kreditin etibarsızlığını tələb etsinlər. Kreditin etibarsızlığının digər əsasları da var. Həmin əsas əmlakın alınmasını maliyyələşdirən kreditin xarici valyutada olması halına aiddir. Deməli, bütün borclular, kredit valyutasından asılı olmayaraq faizlərin illik deyil, aylıq əsasla tutulmasını müqavilənin etibarsızlığına əsas kimi irəli sürsün. Xarici valyutada krediti olan şəxs əlavə olaraq Konstitusiya Məhkəməsinin qərarına əsasən, əhəmiyyətli güzəştlər tələb etsin. Kreditlə əmlak alanlar isə əlavə olaraq kreditin xarici valyutada verilməsini müqavilənin etibarsızlığına əsas kimi irəli sürsün".

**Ə.Həsənov eyni zamanda kredit müqavilələrində geniş yayılmış növbəti qanunsuzluqdan danışıb və kreditin vaxtından əvvəl qaytarılması tələbinin əsasları barədə fikrini açıqlayıb:** "Kredit müqavilələrində bankın kreditin qaytarılmasını vaxtından əvvəl tələb etmək hüququna malik olduğu hallar təsbit edilir. Məsələn, kreditin qrafik üzrə ödənişinin gecikdirilməsi və sair. Lakin Mülki Məcəllənin "Borcun dərhal qaytarılmasını tələb etmək hüququ" adlanan 743-cü maddəsində deyilir: "Əgər borc alanın əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşərsə, bu isə borcun qaytarılması tələbi üçün təhlükə yaradarsa, borc verən borcun dərhal qaytarılmasını tələb edə bilər". Yəni qanun kreditin vaxtından əvvəl tələb edilməsi üçün yalnız borclunun əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi halını müəyyən etmişdir. Bu, imperativ hüquq normasıdır. Deməli, kredit müqavilələrində digər halların nəzərdə tutulması qanunsuzdur.

Buna görə də borclular banklarla məhkəmə çəkişməsi zamanı indiyə qədər qeyd etdiyim arqumentlərlə yanaşı, bu arqumenti də irəli sürə bilər. Bu arqumentə əsaslanaraq da kredit müqaviləsinin etibarsızlığı məsələsini qoymaq olar. Çünki Mülki Məcəllənin 337.1-ci maddəsinə əsasən həmin Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Deməli, o cümlədən həmin Məcəllənin 743-cü maddəsində müəyyənləşdirilmiş imperativ hüquq normasını pozmaqla bağlanmış kredit müqaviləsi də etibarsızdır. Nəticədə Məcəllənin 337.5-ci maddəsinə uyğun olaraq borclu banka kredit məbləğini, bank isə borclunun ödədiyi faizləri və komisyon haqları qaytarmalıdır".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 124 (6152) 9 iyun 2015



# AKP-nin demokratiya sınağı - hökuməti itirdi, dürüstlüyü saxladı

**Xalid KAZIMLI**

**Əsas məsələ seçkilərin demokratik məcrada keçirilməsi, gerilərə addım atılmaması, ölkənin saxtakarlıq və zorakılıqla müşayiət olunan avtoritarizm girdabına sürüklənməməsi idi və Türkiyə bunu bacardı.**

7 iyun seçkilərinə kölgə düşürülmədi, seçkilər dürüst keçirildi, səslər düzgün sayıldı. Hərçənd seçkiqabağı təbliğat kampaniyasında hakim partiyanın inzibati resurslardan istifadə etməsi ilə, eləcə də prezident Ərdoğanın öz bitərəfliyini qorumadan hakim partiyaya səs qazandırmaq təşəbbüsü göstərməsi ilə seçki rəqabətinin ədalətliliyi bir az pozulmuşdu.

Nəticə isə gerçəkdən yaxşı oldu: kim nə qədər səs almalıydısa, xalqın gözündə nə qədər sevimli idisə, o qədər də səs aldı. AKP isə demokratiya sınağından çıxa bildi.

Türkiyə ictimaiyyətindən fərqli olaraq, ona qardaş ölkənin - Azərbaycanın siyasi fəal kəsiminin seçkilərin nəticələri ilə bağlı göy bürünüb, qara örtməsinə ehtiyac yoxdur.

Bu ölkədə AKP-nin, CHP-nin, yaxud MHP-nin iqtidar olmasının ölkəmizlə münasibətlərə o qədər də istisi-soyuğu yoxdur.

Düzdür, AKP-nin 14 illik iqtidarı dövründə Türkiyə ilə Azərbaycan arasından zaman-zaman sərin mehlər əsib, ancaq bu, heç zaman tufan xarakterli ruzigara çevrilməyib və hər iki ölkənin hakim dairələri tərəfindən yaradılan problem ictimaiyyətin, müxalifətin təzyiqi ilə tez bir zamanda həll edilib.

CHP hakimiyyətə gəlsə də, Türkiyə-Azərbaycan münasibətləri bundan pis olmayacaqdı. MHP iqtidara gəlsə isə, bəlkə hər iki qardaş ölkənin münasibətləri daha yaxşı olacaqdı.

Başqa sözlə, Türkiyə və Azərbaycan arasındakı dostluq hakimiyyətlərin dostluğu deyil, xalqların qardaşlığı, dövlətlərin müttəfiqliyidir.

Ona görə də "bizim istədiyimiz siyasi qüvvə az səs aldı" kimi cümlələrə ehtiyac yoxdur. Hamısı bizimdir.

"Azərbaycanlılar parlamentə ermənilərdən az seçildi" fikri isə bir qədər başqadır.

Ayrımçılıq nəyə lazımdır? Başqa vaxt "türklər, türklər" demirikmi? TBMM-ə seçilən Anadolu türkü ilə kökəncə Azərbaycandan olan türkün nə fərqi var? Əsas odur ki, namuslu, vicdanlı adamlar olsunlar və seçicilərinin etimadını doğrultsunlar.

Etnik kimliyi etibarilə erməni olan namizədlərin Türkiyə parlamentinə seçilməsini faciə və əldə qılınc qarşılamaq olmaz. Bu şəxslər və onların ata-babaları yüz illərdir ki, Türkiyə vətəndaşlarıdırlar, bir etnik qrupu təmsil edirlər və seçib-seçilmək hüquqları var. Demokratiyadan danışa-danışa şovinizm sərgiləməklə Avropa dövləti olmaq mümkün deyil.

Eyni məsələ Türkiyədə yaşayan ən çoxsaylı etnik azlığa, kürdlərə də aiddir. Bu çoxmilyonluq xalq artıq özünüdərk mərhələsinin elə bir yerindədir ki, öz təmsilçilərini özü seçmək istəyir və seçir. Ona görə də nüvəsi kürdlərdən ibarət olan HDP-nin seçkilərdə 10 faizdən artıq səs toplaması təəccüb doğurmur. Çünki kürdlər Türkiyə əhalisinin 20 faizə yaxınını təşkil edir. Sadəcə, bütün kürdlərin də məhz kürd partiyasına səs verməsi etnik şovinizmin məhsuludur. Görünür, bir müddət belə olacaq. Daha sonra isə ilə bir inkişaf dövrü yetişəcək ki, hansı partiyada türklərin, hansında kürdlərin çoxluq təşkil etməsi ikinci dərəcəli məsələ olacaq.

Belə olmasa, kürdlər və türklər, eləcə də digər etnik azlıqlar bir dövlətin daxilində qaynayıb-qarışmasa, yoğrulub vahid millət halına (ABŞ-dakı kimi) gəlməsə, Türkiyə böyük problemlər qarşısında qalacaq.

Hər halda, hər şeyin normal məcraya düşəcəyinə böyük ümidlər var, çünki Türkiyə xalqı və siyasiləri dürüst seçki keçirə, xalqın iradəsinin siyasi idarəetməyə yansımasını təşkil edə bilirlər. Nə qədər ki, iqtidar komandaları seçkilərlə, konstitusiya müddəaları əsasında formalaşır, orada mütləq problemin həlli yolları tapılacaq. "Demokratiyada çarə tükənməz" deyənlər haqlıdırlar.

Bu baxımdan 7 iyun seçkilərinin mütləq məğlubu yoxdur. Bu gün prezident Ərdoğan 400 mandat qazanmadığına görə özünü məğlub və pərt hiss edə bilər, amma bu, elə də böyük məğlubiyyət deyil, millətə faydalı məğlubiyyətdir. Yoxsa Türkiyə yavaş-yavaş tək lider tərəfindən idarə olunan ərəb ölkələrinin gününə düşəcəkdi.

Bu cür seçkilərdən sonra Türkiyədə necə bir hökumət qurulacağı maraqlı olsa da, artıq həlledici məsələ deyil. Sonda bir şey qurulacaq. İlk cəhddə alınmasa, ikinci, üçüncü cəhddə alınacaq.

# "Avropa Oyunları Avropaya inteqrasiyanın ən gözəl üsuludur"

## Aynur Camalqızı: "Bu oyunlar tarixə çevriləndə onun Azərbaycanda keçirilməsinin əhəmiyyətini daha dərindən hər kəs anlayacaq"

**"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı birinci Avropa Oyunları, bu idman tədbirinin ölkəmiz üçün əhəmiyyəti, bəzi Avropa ölkələrinin rəhbərlərinin oyunların açılışına qatılmayacaqlarını bəyan etməsi ilə bağlı fikirlərini "Yeni Müsavat"a açıqlayıb.**

**Aynur Camalqızı** bildirib ki, Avropa Oyunları ilə bağlı Azərbaycanda gedən prosesi, işləri çox yüksək qiymətləndirir, 3 il ərzində bu istiqamətdə Azərbaycanda çox böyük işlər görüldüyündən qürur duyur: "Təsəvvür edin ki, 3 il əvvəl Romada Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında keçirilən səsvermə zamanı ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul ediləndən sonra çox böyük sürətlə, çox böyük işlər görülməyə başlandı. Sevindirici haldır ki, Avropa Oyunları ilə bağlı tikilən binalar, idman qurğuları, abadlıq işləri, bütövlükdə yaradılan infrastruktur bu oyunlar bitəndən sonra Azərbaycan xalqına xidmət edəcək. Azərbaycana çox böyük imkanlar açılacaq ki, belə möhtəşəm yarışmalara ev sahibliyi eləsin, beynəlxalq tədbirlərə ev sahibliyi eləsin. Bu da ölkəmiz üçün vacib məsələdir. Azərbaycanın dünyada tanıdılması nöqteyi-nəzərindən düşünürəm ki, Avropa Oyunları çox böyük hadisədir. Dünyada təbliğata böyük pullar xərclənir. Azərbaycan bu oyunların keçirilməsinə ev sahibliyi etməklə həm də özünü Avropaya təqdim edir. Bu, Avropaya inteqrasiyanın ən gözəl üsuludur. Azərbaycan həm Avropaya inteqrasiya edir, həm Avropa insanına özünü bir dövlət olaraq daha yaxından tanıdır. Bu gün bəlkə də ilk baxışdan orta statistik azərbaycanlı üçün o qədər aydın şəkildə görünmür, amma bu oyunlar tarixə çevriləndə onun Azərbaycanda keçirilməsinin əhəmiyyətini daha dərindən hər kəs anlayacaq".


Aynur Camalqızı

**A.Camalqızı onu da dedi ki, bundan sonra keçiriləcək bütün Avropa Oyunlarında Bakının, Azərbaycanın adı ilk Avropa Oyunlarının keçirildiyi şəhər, ölkə olaraq çəkiləcək. Bunun özü böyük bir əhəmiyyət daşıyır:** "2 min il öncə ilk Olimpiya oyunları Yunanıstanda Afinada keçirilib. Üzərindən əsrlər keçib, amma yenə də Olimpiya oyunları da deyəndə Afina yada düşür. Bundan sonra Avropa Oyunları da hansı ölkədə keçirilirsə-keçirilsin hər dəfə Bakının adı yada düşəcək, Azərbaycan xatırlanacaq. Yəqin ki, Azərbaycan prezidenti İlham Əliyev ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul edilləndə bax bu məqamları təbii ki, hesablayıb. Çünki burda sadəcə iqtisadi və siyasi dividentlərdən söhbət getmir. Burda çox böyük bir mədəni diplomatiyadan söhbət gedir. Mədəni diplomatiyadan dünyanın bir çox inkişaf eləmiş ölkələri hər zaman istifadə ediblər və bu gün də istifadə edirlər. Azərbaycanda mədəni diplomatiyanı Mehriban xanım Əliyeva uğurla həyata keçirir. Heydər Əliyev Fondunun yürütdüyü bu missiya, mədəni diplomatiya Azərbaycanın beynəlxalq əlaqələrinin daha da genişləndirilməsində, Azərbaycana münasibətin yaxşıya doğru dəyişməsində çox önəmli işlər görür. Avropa Oyunları başa çatdıqdan sonra bu oyunların Azərbaycanda keçirilməsinin əhəmiyyətinə daha dərindən qiymət verə biləcəyik".

**Həmsöhbətimiz Avropa Oyunlarının başlanması ərəfəsində Azərbaycanla bağlı xoşagəlməyən olayların da baş verməsindən danışdı:** "Düşünürəm ki, bu, xristian dünyasında müsəlman ölkələrinə, türk dövlətlərinə olan ikili münasibətlərin təzahürüdür. Azərbaycana qarşı bəzi xristian ölkələrindən tənqidi, ögey münasibət də burdan qaynaqlanır. Ermənistanda insan haqlarının durumu sıfırın altındadır, ölkəni kriminal hakimiyyət idarə edir, insanlar ac-yalavac durumdadır, xarici siyasətdə Ermənistan Rusiyanın forpostudur. Amma Ermənistan xristian dövləti olduğu üçün ona havadarlıq edirlər. Bu da dünyadakı ikili standartların bir təcəssümüdür. Biz bu gün Ukraynaya verilən dəstəyi Azərbaycana Qarabağ məsələsində görmürük. Bütün bunlar təəssüf doğurur. Bununla belə, Azərbaycan özünün təbliğatı yönündə işlərini davam etdirməlidir. Xristian təəssübkeşliyini ilk Avropa Oyunlarında da Azərbaycana münasibətdə görürük. Sizi əmin edirəm ki, bu oyunlar Ermənistanda keçirilsəydi, Fransanın və Almaniyanın rəhbərləri insan haqlarına zərrə qədər məhəl qoyulmayan Ermənistana gedəcəkdilər. Çünki xristian təəssübkeşliyi var.

❑ **Etibar SEYİDAĞA**

# Boykot çağırışı Müsavatı hədəfə gətirə bilər

## Gülağa Aslanlı: "Partiya öz prinsiplərinə uyğun olaraq belə bir addım atdı"

**Müsavat Partiyası I Avropa Oyunları ilə bağlı digər siyasi partiyalardan fərqli mövqe ortaya qoydu. Ötən həftə Müsavat Partiyası bəyanat yayaraq Avropa ölkələrinin dövlət və hökumət başçılarını Azərbaycanda siyasi məhbusların olduğu səbəbindən Avropa Oyunlarına qatılmamağa çağırdı. Özünü mövcud hakimiyyətə qarşı barışmaz, radikal müxalifət edən AXCP və onun nəzarətində olan Milli Şura belə bir çağırış etmədi. Bəzi məlumatlara görə, Milli Şuranın və AXCP-nin bu addımı atmamasında Cəmil Həsənlinin rolu olub. Bəzi iddialara görə, AXCP sədri Əli Kərimli özü belə bir mövqeni ortaya qoymaqdan ehtiyatlanıb. Və Müsavatın bu məsələdə meydanda tək qalması üçün belə edib.**

Bəs Müsavat onu bu məsələdə tək qoymasını necə qiymətləndirir? Ola bilərmi AXCP hakimiyyətin bütün qəzəbinin Müsavata yönəlməsi üçün boykot çağırışı etmədi? Müsavat rəhbərliyi Avropa Oyunlarından sonra Müsavata qarşı repressiyalara başlaya biləcəyindən narahatdırmı?


Gülağa Aslanlı

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** bu suallara cavabında bildirdi ki, bu məsələdə hər bir siyasi partiya özünün təməl prinsiplərinə əsaslanır: "Müsavat Partiyasının təməl prinsiplərində ləyaqətlilik prinsipi də var. Biz hələ ötən ildən siyasi məhbuslar azad olunmayacağı təqdirdə Avropa Oyunları ilə bağlı bu cür bəyanat verəcəyimizi, bu cür mövqe ortaya qoyacağımızı söyləmişdik. Müsavat Partiyasında qərarların həyata keçirilməsində bir ardıcıllıq prinsipi də var ki, bu prinsiplərə uyğun olaraq Müsavat Partiyası belə bir addım atdı. Digər partiyaların belə bir addım atmaması onların özlərinin siyasi baxışları, dünyagörüşləri ilə bağlı olduğu üçün bircə onu deyə bilərəm ki, bu cür cəsarət sahibi, siyasi prinsipiallıq göstərən partiya Müsavat Partiyasıdır. Digər partiyaların da belə bir prinsipial mövqeyinin olmasını arzulayardıq, istəyərdik. Ancaq onların özünün bunu istəməməsi öz işləridir. Biz buna görə onları ittiham edə bilmərik. Mən onların bunu etməməsində məqsədin Müsavat Partiyasını meydanda hakimiyyətin hədəfində tək qoymaq olduğu barədə qiymətləndirmədən uzağıq".

**G.Aslanlı onu da dedi ki, Müsavat məlum çağırışı etməsinin hakimiyyətin ona qarşı repressiyaya başlayacağı ehtimalını yaradacağını da istisna etmir:** "Müsavat Partiyası yaranan gündən mübarizə meydanında haqq sözünü deməyi özü üçün əsas götürüb. Bizim dahi öndərimiz Məhəmməd Əmin Rəsulzadə və onun tərəfdarlarının ən ağır şərtlər altında türmələrdə sınmadığı belə məlumdur. Müsavat Partiyasının indiki rəhbərliyində olan adamlar da Müsavatın ənənələrinə sadiq olan insanlardır. Müsavatın üzvü olan insanlar bu ənənəni qəbul edirlər. Qorxunun əcələ faydası yoxdur. Ona görə də Müsavat Partiyası haqq bildiyini həyata keçirir. Hakimiyyət həmişə Müsavat üzvlərini onsuz da müxtəlif bəhanələrlə həbs edib, edir. Bundan sonra da həbs edə bilərlər. Gülağa Aslanlı olaraq deyirəm ki, qoy bizi haqq sözümüzə görə sonradan haqsız yerə həbs eləsinlər. Bu, bizi qorxutmur. Bizim nəslimiz, kökümüz ən ağır şərtlər altındakı həbsxanalarda sınmayan müsavatçılardan gəlir".

❑ **E.SEYİDAĞA**

**Ümid... Nədir ümid? Ümid hər şeydən öncə - inanmaqdır. Biz insanlar inandığımız qədər ümidliyik. Cəsarətli, qərarlı, sağlam inanclı bir qəlbdə həm də ümid varsa, bütün əngəllər aşılar. Əngəlləri aşan, aşmağa çalışanların ətrafındakılar üçün bu öncə möcüzə kimi görünsə də, sonradan gerçəyə dönüşər. Ümidi itirmədən inanmaq... Hələ insan inanacağı bir şeyi seçə bilmişsə, artıq onun dünyasında ümidsizlik və pis fikirlərdən söz belə gedə bilməz.**



**Tamilla QULAMİ**

# O, bizim ÜMİDimizdir!

Uzun zamandır bəlkə də gələcəyindən əllərini üzmüş cəmiyyətimiz o qədər narahat və ümidsizdir ki... Dərdlər dərmansız, zehinlər yoxsul, ilham verəcək kimsəsi yoxmuş kimi... Kiminin ruh dünyası sarsılıb, kiminin canı dişində, kimiləri laqeyd, kimiləri də ümidli...

Ümid insanın öz ruhunu kəşf etməsi, ondakı iqtidarı tanıya bilməsidir. Bəlkə də sizə qəribə gələcək, amma bu tanışlıq vasitəsiylə insan övladı qarşısına qoyduğu məqsədlərin ən alisinə çatır.

Bizim bir millət olaraq, yanımızda olmaqdan yorulmayan, bizlərə qucaq açan, sevgi öyrədən, səmimilik aşılayan, hələ-hələ ümidsizliyə əsla qapılmayan yol göstəricilərinə, qəhrəmanlara ehtiyacımız var. O qəhrəmanınızı tanısanız, axtarsanız, uzun sürən qışdan sonra ruhunuzun yamaclarına bahar gələcək, haqq-ədaləti uzaqlara aparan köçəri quşlar bu dəfə dimdiklərində gözəl gələcəyə getməmizin qapılarına itirdiyimiz açarları geri gətirəcəklər.

Deyəsən, fikirlərim çox duyğusal oldu. Əslində deyəcəklərim, yazımın əsas məğzi bundan sonradır...

Uzun əsrlər boyunca tariximiz açısından o qədər çətinliklər, ağır dönəmlər keçirdik kiE Ard-arda irsi hakimiyyət bazası olan partiyaların nəsibsizliyi, uğursuzluğu, hədər olub getməsinin şahidi olduq. İrsi hakimiyyət bazası olan... Bəli, bəli. Böyük Rəsulzadə, Elçibəy irsi hakimiyyət bazası olan siyasi partiyalar...

Bir-birimizin ayağını tapdaya-tapdaya arxadan gələn nəsillərə kin, nifrət, siyasət hirsi miras buraxıldı. Meydanlarda xalq yalnız qaldı. Bu dönəmlərdə siyasətin içində olanlar ya xaricdən ona dəstək verənlərin, ya öz ətrafının xəyanətiylə üzləşdi, ya da müdrik görkəm alaraq, "Bunu ancaq mən edə bilərəm!" iddiasıyla özündən sonra gələnləri görmədi. Şəxsiyyətləri xarakterlərini üstələdi.

Nə onlar, nə də ikincilər hədəflərinə yetişmələrinin yolunun inam, ümid, əxlaq, düşüncə, elm inqilabıyla olacağını dərk etməyib, onlara könüldən inananları güdaza verdilər. Özləri oyun oynayıb, oyunun içində olduqlarını fərq etməyən yandaşları xərcləndilər.

Deyəcəksiniz ki, sənin siyasətdə nə təcrübən var ki, durub da mühakimə edirsən?! Amma hər şeydən öncə bu ölkənin vətəndaşıyam, hər şeyi görüb təhlil edəcək qədər bilgiliyəm. Əslində bizim ən yaxşı bacardığımız qınamaqdır, əzmək, yıxılanı baltalamaq, bir-birimizə satqın, bizim kimi düşünməyənlərin yanında olmağa işbirlikçi damğası vurmaq, bizim pəncərəmizdən baxmayanları dışlamaqdır. Hədəflərimizə çata bilməyəndə öz üzərimizdə işləməkdən çox başqalarını günahkar görməyə, bəhanələr uydurmağa öyrənmişik.

Yuxarıda qeyd etdiyim inqilabları anlamadıqları üçün də arzu edilən dəyişimi, dönüşü içi boş, mənasız edib, qocaman bir tarixi qrimləyib boyadılar. Milliyyətçi düşüncəsi kimi yüksək bir məfkurə cılızlaşdırıldı, gah kimliyimizi bilmədən TURANçı olduq, *(hansı ki, ölkəmizdə insanlar var ki, deyirsən, sən türksən, deyir, mən türkiyəli falan deyiləm, azərbaycanlıyam)*, gah kommunist olduq, gah sosialist, gah solçu və s. və i.a. Nə əldə etdik? Hələ ki, paramparçayıq. Pa-ram-par-ça!

Hələ ölkədəki rus, fars, ingilis, fransız, amerikan sevdası, özümüzü bəyənməməkdən danışmıram.

Biz bizdə olmayan dəyərləri ətrafımızda olandan örnək alaraq öyrənə bilərik, amma özümüzü aşağılamamaqla. Biz qərbdən insan haqlarına verilən dəyəri, yaxşıları götürməyi öyrənməliyik.

Bəlkə də həyatda ən asan yol qaçmaqdır. Amma qaçmaq da bəzən o zaman gözəl olar ki, özünü getdiyin yerdə qoyub qaçasan...

Nə yazıq ki (!) necə illərimizi itirdik! Necə fürsətlər əldən verdik. Bəzən qəbul etməsək də hisslərimizin bizi əsir edən çəlimsiz düşüncələrdən uzaqlaşmamız, qurtulmamız lazımdır. Bu günün bizə verdiyi çətinliklərlə qatılaşmış, artıq hər şeyin əldən getdiyinə inananlardanıq çoxumuz.

Bizlərdən çoxu öz yaşamımızın yaxşılaşmasının çarəsini sosial şəbəkələrdə status, rəylər yazmaqla, ölkədə baş verən bütün proseslərə radikal yanaşmaqla, söyüş söyməklə axtarırıq.

Bəlli bir kəsim tərəfindən lider adlandıranlar var ki, insanları müəyyən bir nöqtəyə gətirib, qansız-qadasız haqq-ədalət tələbini etik davranış qaydalarına çərçivəsində aparmaqdansa, yeni nəsillər qarşısında daim əzildiyini nümayiş etdirir, insanlara əslində gələcəklərinin bulanıq olduğunu göstərib, "Bizə qoşulmasan, bizimlə olmasan falan-filan işgəncələri görəcəksən", deməklə, vətəndaşı daha da proseslərdən kənara itələyib, hürkürdürlər. Vətəndaş da "3-5 manat puldur da qazanıram, başımı aşağı salıb, ailəmi birtəhər saxlayıram, lazımdırmı mənə ağrımayan başıma dəsmal bağlayım", deyib, siyasətə kənardan baxıb, qapısından geri dönür, ölkədə baş verən proseslərə qatılmaq istəmir, sinəsini kənara çəkir.

Demokratiya tələb edirik. Heç bilirik, demokratiya nədir? Demokratiya sağlam düşüncə tərzidir, prosesdir, vərdişdir. Sən cəmiyyəti demokratiyaya hazırlamasan, ona demokratiyanın nə olduğunu anlatmadan demokratiya tələb etsən, bu yöndə olan bütün əziyyətlərin hədər gedəcək. İsinmə hərəkətləri etmədən belə idmana başlamazlar. Bu çəkdiyim ən adi bir misal olsun...

HAQQın başlara tac edildiyi, ancaq və ancaq şəxsi mənafe güdmənin ar olduğu yerdə aydınlıq içində olan bir ölkə qurulacaqdır.

**İllərdir özümüzü aydınlıq içində olan bir dünyaya yetirmək üçün bu yoldayıq. İnanıb güvəndiyimiz, qəhrəmanımızın arxasınca getməkdəyik. Həyata ruhunun gözüylə baxan, eşidən, dinləyən, əllərimizdən tutub bizi gələcəyə götürən, ölkəsinin bütün insanlarını bir çətir altında toplamaq gücündə olan, DƏYƏRin nə olduğunu bilən, nəsillər qarşısında başı uca, illərin sınağından təmiz vicdanıyla keçən, gerçək həyata səyahətini özündən başlayan, İRSİ HAKİMİYYƏT BAZASI OLMADAN onminlərlə ölkə insanını öz ətrafına yığan, sevdirən bir LİDERLƏ!**

**Sən də gerçək həyata, haqqın olan yaşam üçün səyahətə ilk özündən başla, gəl, bizimlə başla!**

**Ümidinizin arxasınca gedin!**

**TƏK ÜMİD VAR!**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



## Ümid seçkilərə hazırlığın növbəti mərhələsini müzakirə etdi

**Ümid Partiyasının mərkəzi qərargahında parlament seçkilərində namizəd olacaq partiya fəallarının növbəti toplantısı keçirilib. Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadənin sədrliyi ilə keçirilən toplantıda ölkədə, regionda və dünyada baş verən ictimai-siyasi vəziyyət, parlament seçkilərinə hazırlığın səviyyəsi və hazırlıqla bağlı növbəti mərhələdə görüləcək işlər müzakirə olunub. Partiya sədri namizəd olacaq partiya üzvlərinə hazırlıqlarla bağlı tapşırıq və tövsiyələr verib.**











# General olmaq istəyən dükançı

Zamin HACI
zaminhaci@gmail.com

"- Sizcə, bu dünya nə üçün yaradılıb axı?
- Mənə elə gəlir bu dünya ara vermədən bizi cinləndirmək üçün yaradılıb"
**(Volter, "Kandid, yaxud optimizm")**

**Bir ara jurnalistlər baş nazirin müavini Abid müəllimdən Penoplast prospektində yanan binanın təmirini kimə tapşıracaqlarını soruşub "Alabala" cavabını aldılar. Sonradan isə təmirin deputat Ağalar Vəliyevin şirkətinə verildiyi ortaya çıxdı. Mən dərhal anladım ki, burada əslində yanlış səslənmə olmuşdur, Abid əkə "Ağalar" sözünü çaşıb "Alabala" kimi deyibdir. Olan şeydir. Müstəqilliyi təzə quran dövlətik. Bəzi problemlər həmişə olur. Hətta görürsən teleaparıcılar canlı efirdə məmələrini açırlar.**

Canlı efir demişkən, bir telekanalizasiya aparıcısının necə həyasız və vicdansız olduğunu görmüşəm, istəyirəm fikrimi sizə çatdırım. Mən əslində televizora baxan deyiləm, sadəcə, keçən həftə elə oldu ki, bir idarədə qəbula gedirdim, səhər saat 11-12 arası beş-on dəqiqə otaqda gözlədiyim müddətdə bu axmaq verilişə baxmalı olurdum. Uzun sözün qısası, baxdığım birinci gün bu aparıcı dedi ki, Şəkidə bir kənd var, kəndin hamısı xəstədir. Guya 35 yaşa çatandan sonra bütün kənd şikəst olurmuş. *(Kəndin adını da çəkmişdi, amma mən bu böhtanı təzədən tirajlamaq istəmirəm)*. Bu həyasız yalana, ucuz sensasiya cəhdinə heyrətləndim, amma telekanalizasiyalarımızın it günündə olduğunu bildiyimdən heç fikir vermədim. O birisi gün eyni vaxtda isə gördüm bu əxlaqsız adam *(yalançılıq ən böyük əxlaqsızlıqdır, xüsusən bunu maddi maraq xətrinə edirsənsə)* Şəkidən etirazlar aldıqlarını deyir, guya düzəliş edir. Söylədi ki, əslində o kənddə cəmi bir nəsildə irsi xəstəlik varmış, amma niyə keçən dəfə bütün kəndi xəstə elan edib, heç özü də bilmir. Əlbəttə, buna da dözmək mümkün idi, əgər bu əxlaqsız tip yalanına görə üzr istəsəydi. Amma təsəvvür edin, üzr istəmədi! Hələ sırtıq-sırtıq irişdi də, guya hər şey elə bu cür olmalı imiş.

Sözümün canı odur ki, Azərbaycanda istənilən qanunu pozub özünü "elə bu cür olmalıdır" adası ilə apara bilərsən. Məsələn, binaların penoplastını söküb indi betopan vururlar. Kim qarantiya verir ki, bu betopanın tərkibində ağac yonqarı əvəzinə asbest - xərçəng yaratdığı üçün sivil dünyada qadağan edilən maddə istifadə edilməyib? Bunun uyğunluq sertifikatı hardan alınıb? Bəlkə bunları da "müqaviləsiz" vururlar? Heç kim bilmir. Yiyəsizlikdir. Necə ki, deputatdan biznes fəaliyyətinin səbəbini soruşan olmadı.

Yaxud bir ordenli idmançı var - Elnur Məmmədli. Yanılmıramsa, haçansa olimpiadada qızıl alıb. Sonra hökumət bunu yol polisi qoydu. Dünən isə internetdə şəkilli-məkilli xəbər var idi: Elnur Məmmədli Bakıda supermarketlər şəbəkəsi açıbmış. Özü intervü verib, deyir 6 dükanım var, hələ yenə açacağam. Arzusu isə general olmaq imiş. İndi dövlət görün nə gündədir: polis işçisi polis haqda qanundan xəbərsizdir! Xəbəri olsa həmin qanunun 32-ci maddəsini açıb görərdi yazılıb: "Polis əməkdaşı elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməz, əmək haqqından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldıqları vəsaitdən başqa məvacib ala bilməz". Bəlkə Elnur müəllimin dükan açması pedaqoji fəaliyyət sayılır? Bəlkə yaradıcılığın bir növüdür? Nə bilesən. Adam nəinki gizlədir, hətta intervü verir. Bu qədər arxayınçılıqdır. Əlbəttə, düz eləyir, kimdən əskikdir? Hansı generalın dükanı yoxdur ki?

Bizdə elə vəziyyət yaradılıb ki, yalan ayaq tutub yerimir, yalan qaça-qaça məşəl daşıyır. Bunun tipik bir örnəyi prezidentin köməkçisinin redaktorlarla görüşündə yaşanmışdı. Orda köməkçi ərz elədi ki, guya Britaniyada "Qardian" qəzetinə kral ailəsi haqda yazmaq qadağan edilib. Aydın məsələdir, kralı hələ 800 il əvvəl məlebib "Maqna Karta" imzalatdıran xalqın qəzetinə belə qadağa mümkün deyil. Amma gülməlisi odur ki, Əli müəllimin bunu basıb-bağladığı günlərdə Britaniya məhkəməsi tam tərsinə bir qərar verib və şahzadə Çarlz "Qardian" qəzetinə uduzmuşdu...

# Türkiyədəki seçkilər Ermənistanla sərhədlərin açılmasına gətirəcəkmi? - Şərh

## HDP-nin barajı aşmasının Bakı üçün mümkün siyasi sonucları; Türkiyədə hansı koalisiya qurulur-qurulsun, Azərbaycana və Qarabağ məsələsinə bundan ziyan gəlməyəcək...

**Qardaş Türkiyə demokratiya yoluna sadiqliyini bir daha nümayiş etdirdi. Ötən bazar baş tutan növbəti parlament seçkiləri Türkiyə xalqının demokratik özünütəsdiqinin yeni nümunəsinə çevrildi. Bununla da qardaş ölkənin guya avtoritarizmə üz tutduğu haqda söz-söhbətlər dəfn olundu, ölkədə azad və ədalətli seçki ənənələrinin, azad toplumun mövcudluğuna şübhələr dağıldı, Türkiyəmizin demokratik, beynəlxalq imici möhkəmləndi.**

Son seçkilərin Türkiyə və onun avanqardı olduğu türk dünyası üçün ən mühüm önəmi də məhz bundan ibarətdir: qardaş dövlət, onun cəmiyyəti digər türkdilli ölkələr və xalqlara gediləsi ən yaxşı yolun hansı olduğunu bir daha sərgilədi.

Söz yox ki, 7 iyun seçkiləri prezident Rəcəb Tayyib Ərdoğanın və partiyasının imicinə işləyəcək - bu partiya seçkiləri udmasına rəğmən, təkbaşına hökumət qurmaq, prezidentlik üsul-idarəyə keçid şansını qaçırsa da. Çünki Ərdoğanı az qala diktator kimi qələmə verməyə çalışan bəzi yerli və xarici dairələrin arqumentləri əlindən alınmış oldu. Bəlli oldu ki, Ərdoğan da demokratik fikirli siyasətçi kimi, xalqın iradəsini əsas götürür, ona sayğılıdır və bu iradədən kənar hakimiyyət planları qurmaq niyyətində deyil.

Hər halda, diktatorlar, avtoritar liderlər seçkilərdə belə etmir və öz formal partiyalarına yüksək faizli səsləri çox asanca təmin edirlər. Necə? Şimali Koreya və əksər postsovet ölkələrində kök salmış hakim rejimlərin iş üslubuna, mövcudluq şərtlərinə nəzər salmaq yetər.

***

Odur ki, həm "Ərdoğanın, AKP-nin havası artıq çalınıb" deyənlər tələsir, həm də Türkiyə üçün daha yaxşı dönəm olacaq və yaxud "Türkiyənin parçalanmasının əsası qoyuldu" söyləyənlər yanlışdadırlar. Bir şeyi dəqiqdir və son seçkilər də göstərdi ki, nə olacaqsa da yalnız böyük TÜRK xalqının iradəsi ilə, onun iradəsi çərçivəsində olacaq.



Bu xüsusda o fikri və proqnozu da bölüşmürük ki, guya 7 iyun seçkiləri ilə "Türkiyə üçün gələcəyi uçurum olan bir proses başlayıb" və guya "bunun sonunda Türkiyə və türk milləti heç bir uğur əldə etməyəcək". Ona görə bu qənaətdəyik ki, "demokratiyada çarə tükənməz", türk xalqı isə demokratiyaya sadaqətlidir.

Belə bir yanaşma da var ki, guya son seçkilərlə qazanan İmralı, məğlub olan isə Türkiyədir, çünki PKKmeyli HDP 10 faizlik həddi ilk dəfə aşıb. Nə olsun aşıb? Türkiyə İraq və ya Suriya deyil ki, bir kürd partiyasının parlamentdə konstitusiyadan kənar davranışına və ya fəaliyyətinə göz yumsun. Üstəlik, HDP-çilər də daxil, bütün millət vəkilləri fəaliyyətə başlamazdan öncə konstitusiyaya and içəcəklər. Bu andı pozan Türkiyə Böyük Millət Məclisində otura bilərmi?

Yəni separatçı qüvvələr demokratiyanın verdiyi imkan və üstünlüklərdən yalnız "qırmızı xətt" kimi yararlana bilərlər, - necə ki, yararlanırlar, - ondan o yana heç kimin şübhəsi olmasın ki, türk xalqının sərt üzü və iradəsi gəlir. Bu iradə özünü AKP, CHP və MHP-yə verilən səslərin toplam sayında əyani göstərib.

***

Doğrudur, Türkiyədə AKP-HDP koalision hökumətinin qurulması variantından da danışılır. İddialar var ki, o halda HDP özünə bəzi güzəştlər tələb edə bilər. Məsələn, İmralı *(Öcalanla)* bağlı, kürd məktəblərinin açılması ilə bağlı. Hətta Ermənistanla sərhədlərin qeyd-şərtsiz açılması şərtinin ortaya atılacağı istisna deyil.

Yeri gəlmişkən, partiya sədri Səlahəddin Demirtaş son seçkilərdən sonra bəyan edib ki, "qələbəmiz *(barajı ilk dəfə aşmağımız - red.)* Türkiyədəki ermənilər və yezidlər daxil, etnik azlıqların qələbəsidir". Hərçənd Demirtaş AKP ilə koalisiya qurmayacağını da bildirib.

Bütün hallarda HDP-nin parlamentdə hansı davranış sərgiləyəcəyi böyük ölçüdə onun siyasi aqibətini də müəyyən edəcək. Ölkə konstitusiyasına zidd fəaliyyət bu partiyanın deputatlarının mandatının itirilməsinə gətirə bilər *(Belə hallar dəfələrlə olub)*.

Başqa iddialara görə, HDP-çilər parlamentdə Ermənistanla sərhədlərin qeyd-şərtsiz açılması və saxta soyqırımın tanınması məsələlərini də qaldıra bilərlər. Lakin bu təşəbbüslərin nəticə verəcəyi ağlabatan deyil. Çünki CHP və MHP-nin AKP-yə münasibəti nə qədər soyuq olsa da və hətta MHP DHP ilə (+CHP) koalisiyalı hökumətə razılıq versə belə, "qırmızı xətti" mütləq gözləyəcək.

Bu xətt isə işğalçı Ermənistanla sərhədlərin qeyd-şərtsiz açılmasını saxta "genosid"in tanınmasını birmənalı rədd edir. Eləcə də CHP-nin məsələdə mövqeyi artıq çoxdan daşlaşmış kimidir. Ona görə əminliklə söyləmək olar ki, qardaş ölkədə hansı koalisiya qurulur-qurulsun, bundan Azərbaycana və Qarabağ məsələsinə ziyan gözlənilmir. Çünki ortada türk xalqının Azərbaycana münasibətdə dəyişməz iradəsi var.

❑ **Siyasət şöbəsi**

# Erməni kəşfiyyatçı aman dilədi

## Arsen Baqdasaryan: "Mən Azərbaycan vətəndaşıyam"

**Gəncə şəhərində erməni kəşfiyyatçının apelyasiya şikayəti üzrə məhkəmədə Baqdasaryan Arsen Eduardoviç hakimdən aman diləyib. Hakim Teyyub Muxtarovun sədrliyi ilə keçirilən prosesdə çıxış edən Baqdasaryan Azərbaycan vətəndaşı olduğunu, əməlindən peşman olduğunu deyib.**

"Mən Qarabağda doğulmuşam. Azərbaycan vətəndaşıyam. Etdiyim cinayətdən çox peşmanam. Sizdən mərhəmət gözləyirəm. Azərbaycan vətəndaşı olduğuma görə istəyirəm ki, humanistlik edib cəzamı azaldasınız", - deyə A. Baqdasaryan bildirib. (ans)

Qeyd edək ki, A.Baqdasaryan 1994-cü il aprelin 23-də Azərbaycanın Xankəndi şəhərində anadan olub. O, Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 15 il müddətinə azadlıqdan məhrum edilib.Cəzanın onun saxlanıldığı gündən, ötən il dekabrın 26-dan hesablanacağı bildirilib. Məhkəmənin hökmü ilə Arsen Baqdasaryan məhkəmə xərclərini (665 manat 45 qəpik) ödəməkdən azad olunub.



Arsen Baqdasaryan

# “Siyasi dönük” Arif Məmmədov haqda şok iddia




# Diplomatı “müxalifət lideri”nə çevirmək planı

**İslam Konfransı Təşkilatının Avropa İttifaqı yanındakı nümayəndə heyətinin sabiq rəhbəri Arif Məmmədovun facebook statusu ətrafında yaradılmış hay-küy böyüyərək az qala beynəlxalq qalmaqala çevrilməkdədir. Yanmış bina ilə bağlı 20 mayda məmurları tənqid edən statusun bir neçə gündən sonra gözlənilmədən medianın “diqqətini çəkməsi” əslində haqlı suallar doğurmuşdu.**

Arif Məmmədova münasibətdə indi iki cəbhə yaranıb. Tənqidçi media və müxalifət daha çox Arif Məmmədovu müdafiə edir. Hökumətə yaxın saytlar və iqtidar yetkililəri isə onu “xəyanətdə” günahlandırır və onu sanki cəmiyyətə yeni bir müxalifətçi obrazında təqdim etməyə çalışırlar. Onu statusunu “like” edən XİN əməkdaşları isə bir neçə günlük susqunluqdan sonra bir-birinin ardınca və sanki haradansa göstəriş alıblarmış kimi “müxalifətçi” Arif Məmmədovu lənətləməyə başlayıblar...

**Xarici İşlər Nazirliyinin əməkdaşı Cavid Musayevin iyunun 8-də yaydığı bəyanata diqqət edək:** “Mən İslam Konfransı Təşkilatının Avropa İttifaqı yanındakı missiyasının keçmiş rəhbəri Arif Məmmədovun facebook sosial şəbəkəsindəki müxalifətçi çıxışını dəstəkləməmişəm”. **Bundan bir gün öncə isə xarici siyasət idarəsinin mətbuat katibi Hikmət Hacıyev də “like”sini bu sözlərlə “təmizə” çıxarmışdı:** “Arif Məmmədovun ölkəmiz haqqında yazdığı fikirlərini qəti şəkildə pisləyir və qınayıram. Öz xalqına qarşı təhqir qəbuledilməzdir. Arif Məmmədov Avropadakı havadarları ilə əlbir olaraq Avropa Oyunları ilə əlaqədar ölkəmizə qarşı aparılan əks-təbliğat kampaniyasının bariz nümunəsidir”. Hər iki diplomatın bəyanatında son vurğu da diqqət çəkir. “Prezidentə, dövlətçiliyə və xalqımıza sevgi və sədaqət”.

Məmmədova yönəlik bəyanatların üslubu *(Siyavuş Novruzovun diplomata ənənəvi erməni damğasını vurduğunu xatırlamaq kifayətdir)* o qədər sərtdir ki, sanki söhbət Azərbaycanı illərdir Avropada təmsil edən bir şəxsdən *(lap keçmiş diplomatdan)* deyil, hakimiyyətin ən qatı əleyhdarından gedir...Bu qalmaqalın niyə məhz indi - Azərbaycanın Avropa və ABŞ-la münasibətlərinin heç də yaxşı olmadığı, üstəlik, Avropa Oyunları ərəfəsinə təsadüf etməsi bir sıra iddialar doğurub. Bu iddiaları iqtidar tərəfini ümumiləşdirsək yaranmış mənzərə belə olacaq: “Azərbaycanı istəməyən qüvvələr *(onların sırasına ölkədəki qüvvələr də daxil edilir)* Avropa Oyunları ərəfəsi ”öz havadarları” vasitəsilə hərəkətə keçiblər”. Arif Məmmədov və onun “like dəstəsinə” hətta ad da tapılıb: “Üsyançılar...”

Bu termin iki ay əvvəl Azərbaycan mediasında çox istifadə edilirdi. Rusiya prezidentinin “itməsi” zamanı ən çox irəli sürülən versiya yadınızdadırmı? Dünyanın ən ciddi nəşrləri “Putini onun siyasətinə etiraz edən ətrafı-üsyançılar devirib” yazırdı. Kimliyindən asılı olmayaraq yaxın ətrafın dönüklüyü pislənməli hadisədir, amma bu kimi texnologiyalar xüsusi hesablanmış məqsədlər üçün istifadə edildikdə hədsiz cəlbedici və inandırıcıdır...

***

**Arif Məmmədov müəmması haqda ən sensasion iddianı tanınmış jurnalist-politoloq, SSRİ-nin və Qərbin siyasi texnologiyalarına yaxından bələd olan Mirzə Xəzər irəli sürüb. Sitat:** “Arif Məmmədovu hakimiyyət daxilində üsyanın cəsur cəngavəri kimi sizə təqdim edənlərə inanmayın. Arif Məmmədovu Xarici İşlər Nazirliyində gizli ”anti-Əliyev qrupunun” rəhbəri kimi sizə sırıyanlara da inanmayın. Hakimiyyət daxilində heç bir üsyan baş vermir. Heç bir gizli təşkilat yoxdur. Hakimiyyətin texnoloqları tərəfindən səliqə ilə hazırlanan “qalmaqal” və “dissident” ssenarisi həyata keçirilir. Bu ssenarinin baş qəhrəmanı rolunu Arif Məmmədov məharətli aktyor kimi bacarıqla oynayır”.

> **Mirzə Xəzər:** “Bu ssenarinin baş qəhrəmanı rolunu Arif Məmmədov məharətli aktyor kimi bacarıqla oynayır”; Azərbaycan cəmiyyəti bu texnologiyaya çox da uzaq olmayan tarixdə şahidlik edib: “üsyançı” Rüstəm İbrahimbəyov timsalında...

M.Xəzərin iddiası sensasion olmaqla bərabər, bu qalmaqala tam yeni bir baxışdır. Doğurdan da yanmış binaya görə Bakıdakı məmurları hədəf alan A.Məmmədov indi ölkədəki vəziyyəti sərt tənqid edərək “diplomatları alçaldıcı bəyanatlar yazmasını SSRİ-də 30-cu illərin sonlarındakı repressiyalarla” müqayisə edir.

A.Məmmədov dünənədək təmiz adını qorumaq istəyirdisə, indi bəyanatlarında bir müxalifət lideri kimi “Azərbaycandakı ədalətsizliklə mübarizə aparacağını” deyir. Onun ən son bəyanatına diqqət edək: “Böyük xalqıma qarşı cəhalətpərəstlik və ədalətsizliklə mübarizə əzmim sonsuzdur”. Əcəba, diplomat Arif Məmmədov nə tez müxalifət liderinə çevrildi? Onun adının Azərbaycan müxalifətinin dostu sabiq səfir Steynar Gillə hallanması təsadüfdürmü?

***

Azərbaycan cəmiyyəti bu texnologiyaya çox da uzaq olmayan tarixdə -2013-cü il prezident seçkiləri ərəfəsi şahidlik edib. “Üsyançı” Rüstəm İbrahimbəyov timsalında... Uzun illər hakimiyyətin yanında olan İbrahimbəyov 2012-ci ildə müxalifət qəzetlərində verdiyi açıqlamalarla tez bir zamanda qəhrəmana çevrildi. İbrahimbəyovun tənqid hədəfləri əvvəl ona Kino Evi üçün torpaq sahəsini verməyən ARDNŞ prezidenti, Prezident Administrasiyasının rəhbərliyi olurdusa, az bir zaman keçdikdən sonra o, dövlətin daha üst düzeyini hədəfə almağa başladı. Sonra hədəf konkretləşərək məhz dövlət başçısı oldu...

Rüstəm İbrahimbəyovun Moskvaya sıx tellərlə bağlı olduğu, hətta Azərbaycandakı seçkidə iştirakına əngəl ola biləcək Rusiya vətəndaşlığı da məlum idi. Amma o hakimiyyətin içərisindən çıxan “üsyankar” kimi çox cəlbedici fiqur idi. Onun dediklərini illərdir burdakı müxalifət daha sərt dildə deməsidi və yenə də deyirdi. Amma məhz İbrahimbəyovun “dönüklüyü” onu cəlbedici etmişdi. İqtidar bu “dönüklüyə” nə qədər qəzəblənirdisə, müxalif düşərgə, əksinə, o qədər rəğbət bəsləyirdi. Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olan Rüstəm İbrahimbəyovu tezliklə ətrafı-dünənki rejissor və ssenarist dostları tərk etməyə başladılar. Həm də bu sonluqla bitən bəyanatlarla: “Dövlətə sadiqik, prezidentə sadiqik...” Bu proses müxalifətin cəmləşdiyi Milli Şuranın yaranması ilə nəticələndi ki, bu qurumun da, müxalifətin də prezident seçkisində aqibəti məlumdur...

***

**Avropa Oyunlarından sonra ölkənin siyasi nəbzi parlament seçkilərinə köklənəcək. Arif Məmmədov adını həm “dönüklər”, həm “müxalifət” sırasına yazdırıb. Sabah Avropadan Azərbaycandakı hansısa müxalifət partiyasına üzvlüklə bağlı müraciət etsə, ona rədd cavabımı veriləcək? Müxalifətin seçkiyə elə onun - Avropanın tanıdığı bir şəxsin rəhbərliyi ilə hazırlanması necə, mümkünmü?**

❑ **“Yeni Müsavat”**

# Marsa uçmaq şansımız böyük olsaydı...



**Hüseynbala SƏLİMOV**

**Bu dörd gün də sovuşsaydı rahat nəfəs alardıq... Yəqin səbəbini xüsusi incəliklə izah etməyə ehtiyac yoxdur - ölkədə sanki bir şübhəlilik atmosferi və qısqanclıq ovqatı yaşanır, bircə o, qalıb ki, lap sovetlərin vaxtında olduğu kimi hər yerdə böyük bir plakat assınlar və üstündə də yazsınlar ki, sən Avropa oyunlarını dəstəkləyirsənmi?..**

Öz tərəfimizdən deyirik ki, bəli, dəstəkləyirik, özü də hamıdan da çox. Sadəcə, bizi avropafobiya qorxudur. Bunun özü də çox maraqlıdır. İlk Avropa oyunlarını keçirməyə hazırlaşan ölkədə böyük avropafobiya yaşanır, hamı Avropaya qarşı opponentlik edir...

Bir neçə dəfə demişik bu, bizə başucalığı gətirmir. Fikir verin, görün, hansı ölkələr Avropaya, ümumiyyətlə, Qərbə qarşı opponentlik edir? Onlar elə də çox deyil, bir neçə ölkədir - İran, Şimali Koreya və s...

Xüsusən də jurnalistika sahəsində geriyə doğru böyük bir addım atılır. Mən bunu da elə sovetlər vaxtındakı jurnalistika ilə müqayisə edərdim. O vaxt bir sovet jurnalisti vardı - amerikanist idi, adı da V.Zorin idi...

Bu adam Amerika haqqında silsilə verilişlər, filmlər hazırlayırdı - az qala, ABŞ-da bir yerə zibil tullanarkən dərhal gedib oranı çəkirdi ki, bəs ABŞ batır, tənəzzül edir...

Amma axırı çox maraqlı oldu - ABŞ tənəzzül etmədi, batmadı, əvəzində Sovet İttifaqı çökəndən sonra həmin o V.Zorin cənabları özünün jurnalistlik fəaliyyətinə görə bütün sovet xalqından üzr istədi...

Əgər Avropada bu ərəfədə Azərbaycanla bağlı neqativ fikirlər səslənməsəydi mən buna təəccüb edərdim - ona görə ki, az qala aləmi biri-birinə qatmışıq, heç kimi eşitmir, heç kimi də saymırıq və istəyirik ki, buna görə bizə hələ “çox sağ ol!” desinlər...

Məsəl var, deyirlər ki, od yanmasa, tüstü çıxmaz... Heç olmasa, bircə dəfə tənqidə qarşı diqqətli olmaq gərəkdir. İnanın, tənqidə qarşı diqqətli olsaq və bu tənqidlərdə səslənən qüsurları aradan qaldırmağa çalışsaq, görərik ki, biz Avropanın ən çox sevdiyi ölkəyik...

Əslində səslənən iradlar ölkədən daha çox onu idarə edən siyasi sistemin özəlliklərindən doğan hadisədir - bizdə hələ də özlərinə qarşı olan münasibəti hamıya qarşı münasibət kimi təqdim edənlər çoxdur...

Bircə detalı unutmaq lazım deyil ki, başqa planetə, tutaq ki, Marsa uçub getmək şansımız hamıdan azdır. Biz Yer adlı planetdə yaşamağa məhkumuq.

Bu planetdə isə birgə yaşamaq üçün qaydalar var. Nə olar? Gəlin onlara qarşı bir az diqqətli olaq...

Rusiya böyük ölkədir. Bəlkə də onun Avropasız yaşamaq imkanları həqiqətən də az deyil, hərçənd ki, biz bu imkanları da bir o qədər də böyük hesab etmirik. Amma biz kiçik dövlətik. Böyüməyimizin də bir yolu var: dünyaya açıq olmaq, dünya xalqları ilə əməkdaşlıq etmək və aldatmağa çalışmamaq... Bunlar olsa, onda bizə qarşı münasibət də dəyişəcək... Demirəm ki, ziddiyyətli durumda təkcə bizik. Yox, bu cür kiçik dövlətlər var ki, onlar da hələ təminatlı siyasi zolağa çıxa bilmirlər...

Amma baxın, görün Avropada nə qədər kiçik dövlət var! Onlar hamısı qitənin siyasi atmosferinə çox gözəl adaptasiya olunublar. Gözəl də yaşayırlar...

İndi bir az əvvəldə dediyim kimi, qəribə tendensiya yaranıb - gedib Avropadakı asiyalı miqrantların problemlərini çəkirlər ki, bu qitə haqqında neqativ fikir formalaşdırsınlar...

Bəli, miqrantların Avropada problemləri var. Bu da təbiidir. Əgər bu problemlər olmasa, Asiyada müstəbid diktatorlardan savayı heç kim qalmaz və hamı qaçıb Avropaya gedər...

Məgər bunu başa düşmək bu qədərmi çətindir? Avropada on illər ərzində insanlar zəhmət çəkib normal dövlətlər yaradıblar. İndi onlar nə etsin? Hər işə hazır olan, qul psixologiyalı asiyalıları öz ölkələrində yuxarı başa dəvət etsinlərmi?..

Təbii ki, bu, olmayacaq. Avropa həmişə miqrantların sayını tənzimləməyə və məhdudlaşdırmağa çalışacaq...

O vaxta qədər ki, Asiyada da normal dövlətlər yaransın. Buna görə kimsə Avropanı sevməyəcəksə, qoy, indidən sevməsinlər! Bunun Avropaya elə bir istisi-soyuğu yoxdur...

O ki qaldı bizə, hər şeyi dramatikləşdirmək lazım deyil. Hətta Avropada da ayrı-ayrı insanların fikri başqa ola bilər. Bunu da normal qəbul etmək lazımdır. Axı bizlər özümüzü və ölkəmizi tolerantlıq nümunəsi hesab edirik!..



# HDP ermənilərin partiyasıdır

Azər RƏŞİDOĞLU

**Türkiyədə keçirilən parlament seçkiləri kürd separatçılarının 80 millət vəkili mandatı qazanması ilə diqqəti çəkdi. Ənənəvi elektoratı və sosial bazası olan MHP PKK-ya rəğbətini gizlətməyən HDP ilə eyni faiz səs topladı. Utancverici haldır. HDP-nin parlamentə girməsi və AKP-nin təkbaşına iqtidar qurmaqdan məhrum olması Qərbin "Yeni Şərq layihəsi"nin işə düşməsinin xəbərçisi də hesab edilə bilər. Seçkilər ənənəvi siyasətin və paradiqmaların sonunu da yaxınlaşdırdı.**

Görünən budur ki, Qərb Ərdoğanın qarşısına qoyduğu planların həyata keçirilməsinə mane olmaq istəyir və "Ərdoğansız Türkiyə" modeli ilə yanaşı bölgədə kürd dövlətini yaratmağa başlayır. Yeni parlamentdə ermənilərin də təmsil olunması türk cəmiyyətində yeni proseslərin başlanğıcı anlamına gələ bilər. Artıq uzun müddətdir ki, Qərb Türkiyədə milli azlıqların sıxışdırılmasına diqqət çəkmək məqsədi ilə geniş təbliğat kampaniyasına başlamışdı. İndi belə bir rupor artıq parlament partiyası olan HDP-yə təqdim oluna bilər. Bir faktı da vurğulamaq lazım gəlir ki, HDP-nin yalnız PKK ilə bağlanması da yanlış olardı. Türkiyə araşdırmaçılarının gəldiyi qənaətə görə, ermənilər anti-Türkiyə çıxışlarını sığortalamq və terrorçu kimi tanınmamaq üçün Türkiyədə yeni təşkilatının - HDP-nin qurulması planında fəal iştirak ediblər. Ermənilərin HDP ilə bağlı ilişkilərində daha maraqlı bir məqam isə ondan ibarətdir ki, Türkiyəyə qarşı ərazi iddiaları irəli sürən ermənilər HDP-nin əli ilə hərəkətə keçmək şansı qazandılar. Son illər ərzində minlərlə erməni Türkiyəyə axın eləyib və kürdlər yaşayan ərazilərdə məskunlaşıb. Gələcəkdə Kürdüstan dövləti yaranarsa, bu, mahiyyət etibarilə əhalisinin tərkibinə görə Ermənistan olacaq.

Ümumiyyətlə, Yaxın Şərqdə yaranan situasiya Kürdüstan dövlətinin formalaşması üçün imkanlar açır. Qərbin planına görə Türkiyədə parçalanma prosesi başlaya və bu coğrafiyada yeni dövlətlər yarana bilər.

Kürdüstan dövləti yarandıqdan sonra onun bölgədə ABŞ-ın müttəfiqinə - forpostuna çevriləcəyinə əmin olan Vaşinqton Türkiyə ilə bağlı yeni planlar üzərində düşünür. Unutmaq olmaz ki, Türkiyədə kürdlər kompakt şəkildə yaşayırlar. Onların gələcək addımları Ankaranın nəzarətindən çıxa bilər. Türkiyədə hakimiyyət böhranı və iqtisadi krizis yaratmaq istəyənlərin də arzusu məhz qardaş ölkənin parçalanmasını ehtiva edir.

Qərb islamçı Ərdoğandan qurtulmaq istəyir. Bu gün Avropada islamafobiya, türkfobiya mövcuddur. Ərdoğan isə belə tendensiyalara qarşı həssaslıq nümayiş etdirir.

Burada bir məqam da mövcuddur, yaxın keçmişdə Türkiyənin hərbi sahədə elan etdiyi tenderdə Çinin qalib gəlməsi, ABŞ başda olmaqla, NATO müttəfiqlərinin etirazı ilə müşahidə olundu. Sonradan Ankara rəsmiləri bildirdi ki, tenderdə Çinin qalib gəlməsi onlara üstünlük verəcəkləri anlamına gəlməməlidir, hətta "biz NATO və ABŞ-la bazarlıq yapırıq ki, qiymətləri endirəsiniz" deyə əlavə etdilər. O cümlədən, İranla məsələlərdə Ankara özünü çox qeyri-sabit aparır. Bu isə Birləşmiş Ştatların qəzəbinə səbəb olur.

Beləliklə, ABŞ-ın Türkiyə ilə yox, Ərdoğanla problemləri var. Daha doğrusu, Qərbə marionet Türkiyə lazımdır. Xarizmalı Ərdoğanla bunu etmək imkansızdır. Vaşinqton artıq Ərdoğansız Türkiyə və AKP layihəsinin üzərində düşünməyə başlayıb. Lakin AKP sabit elektorata malikdir və bu partiyanı siyasi müstəvidən silmək elə də asan deyil. Odur ki, Qərb ölkədə etnik və dini qarşıdurmanı gücləndirmək planını işə salmaqdadır. Ən azı 80 kürd separatçısının parlamentdə təmsil olunması da çox mətləbdən xəbər verir...

**Mayın 25-də AXCP sıralarından xaric edilən Nərimanov təşkilatının şöbə müdiri Ağaşirin Tanrıverdioğlu rəhbərliyin ünvanına növbəti dəfə ağır ittihamlar səsləndirdi. "Yeni Müsavat"a açıqlamasında sabiq şöbə müdiri iyunun 4-də AXCP-dən qovulan 3 gənc barəsində şok açıqlamalar verdi.**

# "Əli Kərimli bir qrup "zombi"nin kralıdır"

## AXCP-nin sabiq şöbə müdirindən partiya rəhbərliyinin ünvanına ağır ittihamlar; Ağaşirin Tanrıverdioğlu: "Əli Kərimli tutulan iş adamlarından qat-qat imkanlıdır"



**A.Tanrıverdioğlu ilk olaraq, gənclərin qovulması səbəblərindən danışdı:** "Partiyada yenidən qopmalar olacaq. Bu qopmaların başında birbaşa Əli Kərimli durur. O, qurultayda istəyinə qarşı çıxacaq üzvlərin qovulması göstərişini verib. Mənə deyirlər ki, sən və gənclərin çıxarılmasından Əli bəyin xəbəri yoxdur. Onlara deyirəm ki, Əli Kərimlinin icazəsi olmadan partiyaya nə üzv qəbul edilir, nə də çıxarılır. Uzun illərdir, o, partiyanı öz mənafeyi naminə hər cür "sınaq"dan çıxarıb. O, yaxşı bilir ki, sədr olduğu 15 ildə partiyaya heç bir uğur gətirməyib. Onun uğuru AXCP daxilində qruplaşmaların yaranmasıdır. Rayonlara digər yerlərdən yaxın adamlarını sədr gətirir. Nərimanovda gedən proseslərə rəhbərliyi birbaşa Əli Kərimli edir. Mən çıxarılanda, şəxsən Gözəl Bayramlını onun özü göndərmişdi. Hamı yaxşı bildi ki, iclasa gələnlər partiya üzü görməyənlər idi. Çıxarılandan sonra demişdim ki, növbədə Dəyanət Babayev, Cavid Musazadə və Ehtiram Mehdiyev var. Dediklərim öz yerini tutdu. Dəyanəti çıxaran icraçı Məmməd İbrahim olub. Səbəb də Dəyanətin profilinin sındırılmasında cəbhəçilərin əlinin olmasıdır. Kim azad söz yazırsa, parolu oğurlanır. Məmməd İbrahimin parol sındırmaqda olan səriştəsinə bələdəm. Əli bəyin bu işlər üzrə "müşavir"i odur. Əli Kərimli AXCP-nin yox, bir qrup "zombi"nin kralıdır. Özü istədiyi qaydada partiyanı idarə edir. "Zombi"lər də ona saxta alqışlar edirlər. Çıxarılanları kimdənsə pul almaqda ittiham edirlər. Cavid Musazadə çox gözəl bilirdi ki, onu çıxaracaqlar. Dünən partiyaya gələnlər Əli Kərimliyə "zombi"lik edirlər. Əli bəyin daxili aləminə bələdəm. Onun yanında kim varsa, gərək bir əlində aftafa, bir əlində də məhrəba olsun. Mənə çox ləkə vurdular".

**AXCP-nin sabiq şöbə müdiri rəhbərliyin ünvanına şok ittihamlar ünvanladı:** "Uzun illərdir bunlarla yol gəldim. Fuad Qəhrəmanlı heç yerdə işləmir. Oliqarx olmasa da, bu səviyyədə imkanları var. Dəyanət Babayev isə müalicə olunmaq üçün pul tapmır. Amma Həsən Kərimov ildə 3-4 dəfə xaricə müalicə gedir. Bir qəpik də alası yeri yoxdur. Gözəl Bayramlı hətta təzyiqini ölçdürmək üçün Gürcüstana gedir. Bizlər isə dişlərimizi çəkdirə bilmirik. Məmməd İbrahim 500 manatlıq evdə üç oğlu ilə kirayə qalır. Heç yerdə işləmir. Oğlunun birini də Amerikaya göndərib. Nərimanov təşkilatının sədri Hacı Abbaslı 500 manatlıq kirayədə qalır, heç yerdə işləmədiyi halda. Bu şəxslərə sual verirəm. Bu pullar sizdə hardandır? Amma bizlər fəhləlik edib, pullar qazanırıq. Bu qədər pulların qarşısında dağ dözməz, amma sizlər necə dözürsünüz? Deməli, siz nə üzvlük haqqı, nə də "Azadlıq" qəzetinin gəliri ilə yaşayırsınız. Sizlər hakimiyyət dairələrindən bəhrələnirsiniz. Sanki Əli Kərimli onları faizə oturdub. Haradan tapırsınız tapın, mənə də verin, özünüzə də qalsın. Bu qaydada yaşayırlar. Bir oliqarx ildə bir dəfə xaricə istirahətə gedir, Fuad Qəhrəmanlı da. Fərqi nədir? Həsən Kərimov üç dəfə, Gözəl Bayramlı bir dəfə gedir. Kasıb adamlar 300 manat kirayə haqqı verə bilmirlər, Məmməd İbrahim 500 manat verir. Bu pullar demokratiya adı altında, Azərbaycan demokratiyasının ən böyük diktatoru Əli Kərimlinin vasitəsilə tənzimlənir. Kim onun əleyhinə çıxırsa, çıxarılır. Məndən sonra çıxarılan üç gənc azad sözün qurbanı oldular. Əli bəy meydanda deyir ki, biz azadlıq uğrunda mübarizə aparırıq. O, azadlıq uğrunda mübarizənin necə olmasından kurs keçməlidir. Onda azadlıq hissi yoxdur".

**A.Tanrıverdioğlu Fərhad Əliyevin Milli Şuraya yaxın olmasından da danışdı:** "Fərhad Əliyev artıq Almaniyada vətəndaşlıq alıb. Aktiv siyasətə qayıdır. Onun buradakı düşərgə yeri Milli Şura olacaq. Cəmil Həsənli vaxtilə onun hüquqlarını qoruyub. Bunun iyini alan Əli Kərimli Cəmil bəyi uzaqlaşdırmaq istəyir. Çünki gələn qrantları təkbaşına almaq istəyir. Cəmil bəyə səslənirəm ki, ayıq ol, sənin postuna göz tikiblər. Partiyaya gələn ianələri öz şəxsi hesabına xərcləyib. Hazırda tutulan iş adamlarından Əli Kərimli qat-qat imkanlıdır. Hamını birliyə çağırıram. Diktator Əli Kərimlini bir olub xaric etmək lazımdır. AXCP-ni çiçəkləndirib, adımızı tarixə yazmalıyıq. Azad fikirli insanların artıq siyahıları hazırlanıb. Bir-bir partiyadan çıxaracaqlar. Məmməd İbrahim deyir ki, Sumqayıtda Cabbar Savalanlı və Elçin Həsənov çıxarılmalıdır. Əli bəy "zombi"lərinə bu qədər meydan verib. Parol sındırmaq yolları ilə üzvləri çıxarırlar. Haqq nazilər, amma üzülməz. Əli Kərimli bir zaman ayılacaq ki, yanında Fuad kimi 5-6 "zombi"si qalıb. AXCP-dəki həbslər də qruplaşmaların işidir. Bir misal deyim. Hazırda həbsdə olan Asif Yusifli konfransa gedəndə Masallıda qarşısını kəsdilər, bərk döydülər və imkan vermədilər. Amma bu gün Fuad, Əbülfəz Qurbanlı və Rafiq Daşdəmirli orada sərbəst konfrans keçirib qayıdırlar. Hətta istirahət belə edirlər. AXCP-də Əbülfəz bir qrup gənci "zombi"ləşdirir. Əksəriyyəti fərarilərdir. Əbülfəz deyir ki, hərbiyə boyum çatmır. Dəyanət 11 dəfə həbs olunub, 2 il yarım şərti cəza alıb. Əgər həbsdə olsaydı, Əli Kərimlinin qəhrəmanı olacaqdı. Amma bu gün düşmənidir. Xarici təşkilatların tədbirlərində iştirak etməyə Dəyanətə imkan vermirlər. Ancaq fərarilər iştirak edə bilərlər. Qardaşımı mənə görə polisdən çıxardılar. Fuadın qardaşı isə bank sektorlarında işləyir. Cəbhəçi olduğum üçün fəhləlik işi tapa bilmirəm. Məmməd İbrahim şəhərin mərkəzində mağaza işlədir. Bunlar adlarını müxalifət qoyub, iqtidarla işbirliyinə getməkdə səriştəlidilər. "Azadlıq" qəzetində 8 nəfər işləyir. 5 min tirajla çıxır. Gələn pullar hara gedir? Gündə bir rayonu gəzirlər. Əli Kərimli ətrafındakı insanları zərrə qədər düşünmür. İcazəsiz mitinqlərdə qohumları belə çıxmır. Bir qohumu var idi, onu da Fransaya göndərdi. Qohumları belə, onun hakimiyyətə gəlməsinə inanmırlar. Doğulduğu kənddən bir dəstəyi belə yoxdur. Qardaşı bilmir ki, meydana yol haradan gedir. Qohumların arxanca gəlmirsə, demək, nəsildə hörmətin yoxdur. Oğlu Londonda oxuyur. Valideynlər övladlarını burada oxuda bilmirlər. Amma Əlinin oğlu Londonda villada yaşayır. Bu pulların hamısı AXCP-nin kasıb üzvlərinin hesabınadır. Demokratik hakimiyyət qurulsa, Əli Kərimliyə yalnız maklerlik yaraşır. Sənəti budur. Azərbaycana vətən kimi baxmır. 15 ilin 10 ilini hakimiyyətlə əlaqədə olub".

**Adıçəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

❑ Cavanşir ABBASLI

**Türkiyədə keçirilən 7 iyun seçkisi AKP-nin təkhakimiyyətliliyinə son qoyub. AKP səslərin cəmi 40,70 faizini toplaya bilib. Ötən seçki ilə müqayisədə geriləyən ikinci partiya ana müxalifət CHP-dir. AKP-nin keçmiş elektoratı səslərini MHP və HDP-yə verib. Bununla da MHP ötən seçki ilə müqayisədə səslərini 3,5 faiz artırıb, HDP isə 13 faiz toplayaraq parlamentdə təmsilçilik həddini keçə bilib. Artıq indidən qardaş ölkənin siyasi həyatının yaxın gələcək üçün yetərincə hərəkətli olacağını deməyə əsas var. Seçkidən çıxan nəticələr və Türkiyənin yaxın gələcəyi ilə bağlı "Yeni Müsavat"ın suallarını Elxan Şahinoğlu cavablandırır.**



# "AKP-MHP koalisiyası mümkündür"

## Elxan Şahinoğlu: "Güman ki, hərbçilər AKP-HDP birliyinə, radikal kürdlərin istəklərinə seyrçi qalmayacaq"

***- Elxan bəy, Türkiyədə 7 iyun parlament seçkisinin nəticələrini necə dəyərləndirirsiniz?***

- 3 ssenari mümkündür. Birinci ssenari Türkiyədə koalisyon hökumət formalaşması, ikinci ssenari azlıq hökuməti qurulması, yəni hansısa partiya hökumətdə təmsil olunmur, ancaq ölkə hökumətsiz qalmasın deyə kənardan səs verir, üçüncü ssenari isə növbədənkənar seçkilərin keçirməsidir. Hər bir ssenarinin çətinlikləri var. Növbədənkənar seçki problemi həll etməyəcək, nəticələrin indikindən ciddi fərqlənəcəyini düşünmək yersizdir. Ona görə də heç bir partiya yeni seçkidə maraqlı görünmür.

***- Sizcə, koalisyon hökumət hansı partiyalar arasında qurula bilər?***

- Burda da bir neçə variant var. Birinci variant odur ki, AKP qalib partiya kimi müxalifətin hər 3 partiyasından birinə koalisiya qurmağı təklif edir. AKP-CHP koalisiyası problematikdir. Qalır iki variant: ya AKP MHP-yə, ya da Xalqların Demokratiya Partiyasına (HDP) koalisiya qurmağı təklif edir.

***- Axı MHP və HDP liderləri AKP ilə ortaq koalisiyada yer almayacaqlarını vurğulayıblar...***

- Onların mövqeyi dəyişə də bilər. MHP və HDP AKP-yə "yox" deməklə keçmiş iqtidarın işini çətinləşdirir və gələcək şərtlərinin sayını çoxaldırlar. Mən AKP-MHP koalisyonuna üstünlük verirəm. Doğrudur, Ərdoğan-Davudoğlu ikilisi və Baxçalı çox kəskin qarşılıqlı ittihamlar səsləndiriblər. Ancaq bu, seçki kampaniyası idi, indi isə gündəmdə ölkənin taleyidir, məsuliyyətli olmaq gərəkir. MHP dövlətçilik və millətçilik adına məsuliyyətli partiyadır, parlamentdə təmsil olunan HDP-nin hakim koalisyonda yer almasını istəməz. Çünki əks halda, kürd radikalizmi Türkiyə tarixində ilk dəfə idarəetmədə yer ala bilər. Bu isə o deməkdir ki, HDP hökumət ortağından PKK lideri Abdulla Öcalanın sərbəst buraxılmasını tələb edəcək, nəticədə Türkiyə qarışacaq.

***- Türkiyənin iç siyasətinə bütün dönəmlərdə ordunun da güclü təsiri olub. Silahlı Qüvvələrin davranışları nə deyir?***

> **"Bir çoxları HDP-yə ona görə səs verib ki, 10 faizlik səddi keçsin və bununla da AKP təkbaşına hökumət formalaşdıra bilməsin"**

- Hərbçilərin AKP-HDP birliyinə, radikal kürdlərin istəklərinə seyrçi qalmayacaqlarını güman etmək olar. Bu qorxulu ssenarinin qarşısının alınmasının iki yolu var: ya AKP-MHP koalisyonu qurulmalı, ya da MHP məsuliyyəti AKP ilə bölüşmək istəməsə də səsləri ilə kənardan AKP-nin hökumət formalaşdırmasına yaşıl işıq yandırmalıdır. İkinci variant MHP-yə AKP-nin siyasətini nəzarətdə saxlamaq imkanı verəcək. MHP-nin koalisiyada yer alması Azərbaycanın da maraqlarına uyğundur.

***- 3 müxalifət partiyasının hökumət qurması perspektivini necə dəyərləndirirsiniz?***

- 3 müxalifət partiyası ilkin danışıqlarda AKP-yə "yox" deyəcəklər. Bu həmin partiyaların 13 illik təkbaşına AKP iqtidarına ilk güclü silləsi olacaq. Buna rəğmən, CHP-MHP-HDP koalisiyasını mümkün saymıram. Radikal kürdlərlə milliyyətçi türklərin eyni komandada yer alması az ehtimal olunandır. CHP belə bir koalisiyaya çox ümid edir, hətta Kamal Kılıçdaroğlu belə bir hökumətin baş naziri olmağa həvəslidir. Ancaq bu cür ziddiyyətli birlik heç bir neçə ay da ömür sürməz, Türkiyəni daha ağır xaosa sürükləyər.

***- AKP-nin təkbaşına hökumət formalaşdıra bilməməsi prezident Rəcəb Təyyub Ərdoğan üçün hansı çətinliklər yaradır?***

- AKP lideri Əhməd Davudoğlu keçən parlament seçkiləri ilə müqayisədə partiyasının səsini 9 faiz azaltdı. Bu, ciddi uğursuzluqdur. Halbuki Ərdoğan AKP lideri və baş nazir ikən hər seçkidən qalib ayrıldı. Davudoğlu seçki kampaniyasında seçiciləri arxasınca apara bilmədi. Bu da təbiidir. Akademik çevrələrdən siyasətə gələn Davudoğlu Ərdoğan qədər xarizmatik deyil, natiqlik qabiliyyətində də liderindən geri qalır. Həm də axı Davudoğlu xarici işlər naziri kimi hansı uğuruna görə AKP liderliyinə və baş nazir postuna gətirilmişdi? Davudoğlu nə haqqında çox danışdığı "qonşularla sıfır problem" siyasətini reallaşdıra bildi, əksinə, qonşularla problemlərin sayı artdı, nə də Türkiyəyə əlavə dost qazandırdı. Ərdoğan meydanlara düşməsəydi, Davudoğlu AKP üçün indikindən də az səs toplayacaqdı. Ancaq Ərdoğanın meydanlara düşməsinə rəğmən, AKP-nin parlamentdə səslərini azaltması onun siyasi məsuliyyətini artırdı. Çünki birincisi, illərdir "koalisyonlar ölkəni uçuruma apardı" deyən prezident indi seçki nəticələrinə görə öz sözündən geri çəkilərək koalisiya hökumətinin formalaşdırılmasına yaşıl işıq yandırmaq məcburiyyətindədir, ikincisi "Türkiyə parlament respublikasından prezident respublikasına çevrilməlidir" şüarını ən azı gələn seçkilərə qədər unutmalıdır. Beləliklə, Ərdoğan ikiqat zərbə aldı.

***- Ərdoğan qarşısına qoyduğu digər hədəflərdən də əl çəkməli olacaqmı?***

- Prezident gerçəkdən də qarşısına böyük hədəflər qoymuşdu: prezident səlahiyyətlərinin artırılması, yeni İstanbul kanalının reallaşması, "paralel dövlətin" bitirilməsi və s. Görünən odur ki, koalisyon hökumət Ərdoğanın hədəf və istəklərini yerinə yetirməyə borclu deyil, tam əksinə, onun siyasətdəki rolunu azaltmağa çalışacaq.

***- Seçkinin nəticələri Ərdoğan-Gülən savaşı üçün nələr vəd edir?***

> **"MHP-nin koalisiyada yer alması Azərbaycanın da maraqlarına uyğundur"**

- Ərdoğan Fətullah Gülənlə mübarizə apararkən, nurçuları dövlət vəzifələrindən uzaqlaşdırarkən, müxalifət partiyaları bunun əleyhinə çıxırdılar. Ona görə yeni qurulan koalisyon hökumət "Ərdoğan istəyir" deyə Fətullah Gülənlə mübarizə aparmayacaq. Tam əksinə, necə ki, Ərdoğan prokurorların "hərbçilər çevriliş planlayırlar" ittihamlarına dəstək verərək hərbçilərin kütləvi həbslərinə razılıq verdi, ancaq sonra Gülənin toruna düşdüyünü etiraf edərək hərbçiləri azad etmək məcburiyyətində qaldısa, eləcə də indi həbs edilən gülənçilərin yaxın müddətdə azad olunacaqları istisna deyil. Ərdoğanı başqa çətinliklər də gözləyir. O, AKP hökumətini tez-tez prezident sarayına çağırıb müzakirələr aparırdı. Aydın görünürdü ki, hökuməti baş nazir yox, prezident idarə edir. Koalisyon hökumət isə Ərdoğanın rəhbərliyi altında müzakirələr aparmaq istəməyəcək. Bu amil də Ərdoğanın mənliyinə toxunacaq. Ən pis ehtimal isə yaxın perspektivdə AKP içində Ərdoğana qarşı çıxanların sayının artmasıdır. Məğlubiyyəti bölüşmək istəyənlərin sayı az olur. Vaxtilə hakim Ana Vətən və Doğru Yol partiyaları bu şəkildə yox oldular.

***- O zaman Ərdoğanın Ana Yasa (konstitusiya) dəyişikliyi arzusu da tarixə qovuşur, deyilmi?***

- AKP 13 ildə yeni konstitusiya qəbul edə bilmədisə, koalisyon hökumətin bunu edəcəyi qətiyyən inandırıcı deyil.

***- Qarşıdakı seçkidə 10 faizlik səddin götürülməsi də müzakirə mövzusudur. Bu məsələnin perspektivinə necə baxırsız?***

- Türkiyədə 1980-ci ildə hərbi çevrilişi həyata keçirən generalların partiyaların parlamentə düşməsi üçün 10 faizlik səddi seçki qanununa gətirmələri təsadüfi deyildi. Generallar radikal kürdlərin formalaşdıracaqları istənilən partiyanın bu səddi aşmayacaqlarını güman edirdilər. Bu sxem 35 il işlədi. Xeyli partiya 10 faizlik səddi aşa bilmədi və yox oldu *(ANAP, DYP və digərləri)*. Bu sədd illər uzunu Ərdoğanın da işinə yaradı, o hərbi çevrilişi həyata keçirən generalları bəyənməsə də, 13 ildə generalların 10 faizlik sədd maddəsindən gen-bol istifadə etdi. Ancaq HDP 12 faizlik səslə göstərdi ki, artıq 10 fazilik sədd onlar üçün maneə deyil.

***- Seçkinin əsas qalibi HDP-dir. Bu fikri bölüşürsüz? Ümumiyyətlə, bu qələbə necə qazanıldı?***

- HDP-nin lideri Səlahəddin Dəmirtaşı bəyənmək və ya bəyənməməyək, başqa məsələdir, ancaq etiraf edilməlidir ki, o, çox uğurlu seçki kampaniyası apara bildi, sonucda da qalib oldu. 2011-ci il parlament seçkilərində kürdlərin partiyası toplam 6 faiz səs toplamışdı və parlamentə müstəqil deputatlar kimi qatılıb qrup formalaşdırmışdılar. Bu dəfə isə səsləri ni ikiqat artıraraq həm partiya kimi parlamentə düşdülər, həm də millət vəkillərinin sayı 44 nəfər artdı. Dəmirtaş prezident seçkisinə ona görə qatılmışdı ki, gələcək parlament seçkisində partiyasının 10 faizlik həddi keçib-keçməyəcəyini yoxlasın. Dəmirtaş prezident seçkisində 9.76 faiz səs toplamışdı. Bu nəticə Dəmirtaşı seçkiyə partiya kimi qatılmağa həvəsləndirdi, risk idi, çünki 10 faizin altında qalsaydı parlamentdə 1 millət vəkili belə olmayacaqdı. Riskə getdi və 80 millət vəkili yeri qazandı. "Dünyada ən çox kürdün yaşadığı şəhər İstanbuldur" - əvvəl bu ifadə ritorik səslənirdi, bu gün isə rəqəmlərdə öz əksini tapdı. İstanbulda kürdlərin partiyasından 11, milliyyətçi türklərin partiyasından isə 10 nəfər millət vəkili seçildi. MHP və HDP-nin səsləri arasındakı fərqin 4 faiz olması düşündürücüdür. HDP-yə kürdlərlə yanaşı, digər azsaylı xalqların nümayəndələri və türklər də səs verib. Bu səslər HDP-nin dəstəklənməsi mənasına gəlmir. Bir çoxları HDP-yə ona görə səs verib ki, 10 faizlik səddi keçsin və bununla da AKP təkbaşına hökumət formalaşdıra bilməsin.

***- Elxan bəy, HDP-nin TBMM-də olması Azərbaycan üçün nə anlama gəlir? Bundan başqa, parlamentdə 3 erməni deputat da var...***

- İstənilən halda HDP Türkiyənin Ermənistanla sərhədi açmağı və diplomatik münasibətlər qurmasını tələb edəcək. Seçilən ermənilər Türkiyənin "erməni soyqırımını" tanıması vacibliyini dəfələrlə vurğulayanlardır. Aydındır ki, onlar bu məsələni parlamentdə gündəmə gətirəcəklər və HDP onlara tam dəstək verəcək.

***- Bu, Türkiyə-Azərbaycan strateji müttəfiqliyinə xələl gətirə bilərmi?***

- Gərginlik yarana bilər. HDP və erməni millət vəkilləri bunun üçün əllərindən gələni edəcəklər. Buna baxmayaraq, Ankaranın məsələyə xüsusi həssaslıqla yanaşacağını ehtimal edirəm. İki ölkəni böyük enerji layihələri birləşdirir, bu ilin sonunda Bakı-Tiflis-Qars dəmir yolu işə düşəcək. Bu, Azərbaycandan çox Türkiyəyə lazımdır ki, bölgədə çəkisini artıra bilsin. Türkiyə-Azərbaycan hərbi ittifaqının da qüdrətini qoruyacağını düşünürəm. Türkiyənin ordu generaliteti hakimiyyətdə kimlərin təmsil olunmasından və nə istəmələrindən asılı olmayaraq həm Azərbaycanla hərbi ittifaqı genişləndirəcəklər, həm də birgə hərbi təlimlərin sayını artıracaqlar. Türkiyənin yeni hökuməti bu amillə hesablaşmaq məcburiyyətindədir.



> **"Ən pis ehtimal isə yaxın perspektivdə AKP içində Ərdoğana qarşı çıxanların sayının artmasıdır. Məğlubiyyəti bölüşmək istəyənlərin sayı az olur. Vaxtilə hakim Ana Vətən və Doğru Yol partiyaları bu şəkildə yox oldular"**

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 124 (6152) 9 iyun 2015

# İqtidarda dəyişikliklər olacaqmı?

**Avropa Oyunlarından sonra ciddi hakimiyyətdaxili dəyişikliklər gözlənilir. Son zamanlar prezident İlham Əliyev də hakimiyyət komandasındakı problemlərə toxunub, ayrı-ayrı məmurların özbaşınalığından, dövlət əmlakının mənimsənilməsindən danışıb, sərt cəza tədbirlərinin görüləcəyini bildirib. Bütün bunlar ekspertlər tərəfindən baş verə biləcək dəyişikliyin anonsu kimi qiymətləndirilir.**

Məlumatlara görə, dövlət başçısı iqtisadi komandasını tam yenidən formalaşdırmaq niyyətindədir və bunun üçün ən radikal addımlara, hətta könüllü getmək istəməyən iri korrupsiyaçıları həbs etdirməyə belə qərarlıdır. Belə məlumatlar var ki, Avropa Oyunları bitəndən sonra bir neçə nazirlik və dövlət komitəsinin ləğvi, bəzilərinin isə səlahiyyətlərinin məhdudlaşdırılması üzrə təkliflər paketi hazırlanır.

İddialar var ki, dəyişiklik yeni parlamentdən də yan keçməyəcək, cəmiyyətdə ictimai nəzarətin təmin olunması üçün Milli Məclisdə müxalifət nümayəndələrinə yer veriləcək.

**Avropa Oyunlarından sonrakı mərhələ üçün verilən bu proqnozları dəyərləndirən politoloq Qabil Hüseynli vurğuladı ki, hakimiyyət komandasında kadr islahatları qaçılmazdır:** "Kadr islahatlarına böyük ehtiyac yaranıb. Belə görünür ki, Xarici İşlər Nazirliyi sistemində, Dövlət Bayraq Meydanı sistemində, bir çox sahələrdə prezidentə sadiq olmayan, onun siyasətini dəstəkləməyən kadrlar yerləşdirilib. Bu kadrların içərisində eləələri var ki, 20 ildən çoxdur ki, vəzifədədir və komanda haqqında xoş təəssürat yaratmır. Bu baxımdan kadr islahatlarının həyata keçirilməsi obyektiv bir zərurətə çevrilib. Uzun müddətdir ki, bu istiqamətdə söhbətlər gedir. Gah deyirdilər prezident seçkisindən sonra kadr islahatları həyata keçiriləcək, bir neçə icra başçısı dəyişdirildi və bununla da proseslər donduruldu. Ötən parlament seçkilərindən sonra da bu haqda proqnozlar verilirdi, ancaq ciddi bir dəyişiklik baş vermədi. İndi də elə bir şərait yaranıb ki, mütləq kadr islahatları həyata keçirilməlidir. Prezident özü dəyişikliklərin labüdlüyünü hamıdan yaxşı başa düşür və bu xətti həyata keçirməyə çalışacaq".

**Parlament seçkilərində müxalifətin təmsili məsələsinə gəlincə, politoloq qeyd etdi ki, bu barədə birmənalı fikir söyləmək çətindir:** "Düzdür, bu dəqiqə müxalifətin müəyyən qrupları dövlətlə əməkdaşlığın tərəfdarı kimi çıxış edir və hökumətin siyasətinə loyal münasibət bəsləyir. Belələrinin



**Ərəstun Oruclu:** "Hakimiyyət böhran dönəmində olduğu bir vaxtda, oyun qaydalarını bir qədər də sərtləşdirir"



**Qabil Hüseynli:** "Prezidentin son çıxışları göstərir ki, kadr dəyişikliyinin labüdlüyünü o, hamıdan yaxşı başa düşür"

parlamentə düşmək şansı kifayət qədər yüksək görünür. Ancaq bütövlükdə ictimai nəzarət orqanı kimi parlamentin rolunun artırılması və bunun müxalifətdən cəlb edilən kadrlar hesabına edilməsi fikrini mən şərh etməkdə çətinlik çəkirəm".

**Qabil Hüseynli baş verə biləcək struktur islahatları ilə bağlı durumu da şərh etdi:** "Gömrük Komitəsinin ləğv edilməsi haqqında söylənilən fikirlər həqiqətə uyğun deyil. Gömrük Komitəsi dövlət büdcəsinin formalaşmasında böyük rol oynayır və indiki məqamda bu komitənin ləğv edilməsi qeyri-mümkündür. Bəzi komitələr iqtisadi rentabellik baxımından, təkrarçılıq baxımından birləşdirilə bilər. Lakin Kənd Təsərrüfatı Nazirliyinin ləğvi və İqtisadiyyat və Sənaye Nazirliyinin, eləcə də ekologiya və Təbii Sərvətlər Nazirliyinin tərkibinə verilməsi ideyası da mənə qəribə görünür. Çünki ölkədə "Kənd təsərrüfatı ili" elan edilib, kənd təsərrüfatı sahəsində ciddi aqrar islahatlar keçirilməlidir. Kənd Təsərrüfatı Nazirliyi də bu prosesə başçılıq etməlidir. Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat və Sənaye Nazirliyinin tərkibində kiçik bir quruma çevrilsə, bu prosesləri apara bilməz. Ona görə də mən Kənd Təsərrüfatı Nazirliyini də bu sıraya aid etmirəm. Amma komitələr var ki, onların fəaliyyəti tamamilə mənasızdır. Onların ləğv edilib funksiyalarının vahid bir qurum altında birləşdirilməsinə böyük ehtiyac var. Bir-birini təkrarlayan dövlət qurumlarının birləşdirilməsi və dövlət idarəçiliyinin daha çevik, daha operativ edilməsi üçün bunlar edilə bilər, yəqin ki, ediləcəkdir. Ancaq daha geniş islahatların aparılması birdən-birə baş verməyəcək, tədricən olacaq".

**Politoloq Ərəstun Oruclu isə hakimiyyət daxilində heç bir ciddi islahatın aparılmayacağını və bu proqnozların ictimai rəyi sakitləşdirməyə yönəlmiş bir addım olduğunu vurğuladı:** "Mən qətiyyən belə düşünmürəm. Bu cür təbliğat zaman-zaman dövriyyəyə buraxılır, media vasitələrində yer alır. İctimai rəyi formalaşdırmağa çalışırlar ki, bu mərhələ də keçsin sonra islahatlar olacaq, yeni komanda formalaşdırılacaq, parlamentdə müxalifətə daha çox yer veriləcək. Düşünürəm ki, bunlar hamısı ötəri təbliğat xarakteri daşıyır. İctimai rəyə yeridilir ki, bütün neqativ hallar aradan qaldırılacaq. Müxalif düşərgəyə də media vasitəsilə belə mesajlar verilir ki, sizin də parlamentdə payınız olacaq. Mən bunu ciddi qəbul etmirəm. Çünki dəfələrlə belə hallar olub. Bu yalnız ictimai rəyi yanıltmaq, hakimiyyətə böhrandan çıxmağa bir fasilə vermək üçün ortaya atılan söhbətlərdir".

**Milli Məclisdə müxalifət nümayəndələrinin artacağı fikrini şərh edən ekspert bunun da real səslənmədiyini qeyd etdi:** "Yaxşıya doğru heç nə dəyişməyəcək. Hakimiyyət böhran dönəmində olduğu bir vaxtda, oyun qaydalarını bir qədər də sərtləşdirir. Siyasətin qaydası budur..."

❑ Nərgiz LİFTİYEVA

# Qalmaqallı səfirin təmsil etdiyi İslam Əməkdaşlıq Təşkilatı haqqında nə bilirik...

## 57 müsəlman ölkəsinin birləşdiyi İƏT BMT-dən sonra ən böyük beynəlxalq təşkilat hesab olunur

**İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Avropa Birliyindəki missiyasına rəhbərlik edən Arif Məmmədovun Bakıda baş verən yanğınla bağlı facebook statusu səfirin özü ilə yanaşı, XİN üçün böyük bir problemə çevrilib. Mətbuatda bir neçə XİN əməkdaşının məhz A.Məmmədovun statusunu "bəyəndiyi" üçün işdən qovulduğu bildirilir.**

Arif Məmmədov isə hazırda Belçikada fəaliyyətini davam etdirir. Hətta özünün yazdığına görə, Belçika hökuməti ona mühafizə ayırıb. Ancaq maraqlıdır ki, A.Məmmədovun statusunu "bəyənənlərin" cəzalandırılması haqda xəbərlər yayılsa da, səfirin özünə qarşı hələlik hər hansı addım atılmayıb. Çünki məsələ burasındadır ki, uzun illər XİN-də çalışsa da və fövqəladə və səlahiyyətli səfir rütbəsinə malik olsa da, hazırda faktiki olaraq XİN ştatında deyil. Beynəlxalq təşkilatların strukturuna uyğun olaraq məhz Azərbaycan hökuməti tərəfindən İƏT-in AB-dəki səfiri vəzifəsinə göndərilib. Onu da əlavə edək ki, İƏT diplomatik korpusunda bir neçə azərbaycanlı diplomat fəaliyyət göstərir.

Qeyd edək ki, İslam Əməkdaşlıq Təşkilatı (2011-ci il iyunun 28-dək İslam Konfransı Təşkilatı) 1969-cu il sentyabrın 22-dən 25-dək Mərakeşin paytaxtı Rabatda keçirilən müsəlman ölkələri dövlət və hökumət başçılarının konfransında təsis olunub. Təsis konfransında 25 ölkə və Fələstin Azadlıq Təşkilatı (FAT) iştirak edib. Ancaq sonradan qurum genişlənib və hazırda 57 üzv ölkəsi var. BMT-dən sonra ən çox dövlətin birləşdiyi böyük bir təşkilatdır. İslam Konfransı Təşkilatı BMT ilə sıx əməkdaşlıq edir və təşkilat 1975-ci ildə BMT yanında müşahidəçi statusu alıb.

Adından da göründüyü kimi, İƏT müsəlman ölkələrin birliyidir. Müsəlman dövlətləri bu təşkilatda dövlət və hökumət başçıları səviyyəsində təmsil olunurlar. İƏT əsas işçi orqanı olan Baş katiblik 1971-ci ildən fəaliyyət göstərir. İƏT Baş katibliyin iqamətgahı Qüds İsrail işğalından azad ediləndək müvəqqəti olaraq Ciddədə (Səudiyyə Ərəbistanı) yerləşir. İƏT-in (keçmiş İKT) nizamnaməsinə əsasən təşkilatın əsas funksiyaları aşağıdakılardır:

1) İslam ölkələri arasında birliyin gücləndirilməsi, çoxşaxəli əlaqələrin inkişafı, bütün islam xalqlarının azadlıq və milli hüquqlarının qorunmasını dəstəkləmək;

2) İslamda müqəddəs sayılan məkanların qorunmasının, eləcə də Fələstin xalqının öz hüquqları və işğal olunmuş torpaqlarının azad olunması uğrunda apardığı mübarizənin əlaqələndirilməsi;

3) müstəmləkəçiliyin bütün növlərinin və milli ayrı-seçkiliyin aradan qaldırılması, İKT üzvləri arasında və digər dövlətlərlə əməkdaşlıq üçün şərait yaradılması, beynəlxalq təhlükəsizliyin və sülhün qorunması istiqamətində iş aparmaq.

Nizamnaməyə əsasən üzv-dövlətlər bərabərhüquqlu olaraq başqa üzv-dövlətin müstəqilliyinə və ərazi toxunulmazlığına hörmət etməli, digər üzv-dövlətin daxili işlərinə qarışmamalı, üzv-dövlətlər arasında yaranan hər hansı bir mübahisənin sülh yolu, danışıqlarla nizama salınması, üzv-dövlətlərdən birinin ərazisinə, siyasi müstəqilliyinə və ya onların birliyinə qarşı yönələn hər hansı hərəkətdən çəkinməlidirlər.

İƏT-in 1972-ci ildə qəbul olunmuş əsasnaməsinə əsasən, onun strukturuna 3 mərkəzi orqan daxildir: dövlət və hökumət başçılarının konfransı, xarici işlər nazirlərinin konfransı, katiblik.

İƏT-in əsas orqanı dövlət və hökumət başçılarının üç ildən bir keçirilən konfransı hesab olunur. Bundan başqa, təşkilatın siyasi orqanı xarici işlər nazirlərinin konfransı hesab olunur. Əsas toplantılar arasındakı dövrdə xarici işlər nazirlərinin toplantıları keçirilir və bu zaman qərarların qəbulu, onların icrasına, həyata keçməsinə nəzarət, maliyyə komissiyasının hesabatını müzakirə etmək, baş katib və onun müavinlərinin təyin edilməsi həyata keçirilir.

İƏT bir sıra iri layihələrin, o cümlədən İslam İnkişaf Bankının yaradılmasını həyata keçirib. Bundan başqa, İƏT ümumi müsəlman bazarı ideyası və modelinin, "İslam iqtisadi üsulu" layihəsini irəli sürüb. İslam İnkişaf Bankı İƏT-in əsas maliyyə strukturu olaraq əsas vəzifəsi üzv-dövlətlər arasında sosial-iqtisadi əməkdaşlığı möhkəmləndirmək, üzv-dövlətlərin istehsal layihələrinin maliyyələşdirilməsi, xarici ticarətin inkişafına kömək göstərməkdir.

İƏT-in daha bir qurumu Beynəlxalq İslam Məhkəməsi Şəriət qaydaları və İKT nizamnaməsi əsasında fəaliyyət göstərir. Məhkəməyə 7 hakim daxildir. Onlar xarici işlər nazirlərinin konfransında üzv-dövlətlərin təklif etdikləri və tələblərə uyğun namizədlərdən 4 il müddətinə seçilirlər.

İƏT-ə üzv dövlətlər üçün bir sıra meyarlar var. Bunlardan ən mühüm 3 göstərici var. Ölkə əhalisinin əksəriyyəti müsəlman olmalıdır, konstitusiya dövləti islam dövləti kimi qiymətləndirilməlidir *(bu bənd bir çox ölkələrə tətbiq olunmur)*, dövlət başçısı müsəlman olmalıdır.

Bu meyarlar 1982-ci ildə son dəfə təkmilləşdirilmişdir. Üzv-dövlətlərin 2/3 - sinin razılığı olduğu andan həmin dövlətin təşkilatın üzvü olması barədə qərar qüvvəyə minir. Təşkilat həmin dövlət üçün illik xərci nəzərdən keçirir. Keçmiş sovet respublikalarından ilk olaraq Azərbaycan 1991-ci ildə İƏT-in üzvü olub. Hazırda İƏT-in baş katibi Səudiyyə Ərəbistanından olan İyad Mədənidir.

İƏT dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat verib, Ermənistanın təcavüzünü pisləyən qətnamə qəbul edib. Hazırda təşkilat beynəlxalq toplantılarda Azərbaycana böyük dəstək verir.

Səfir Arif Məmmədovun "üsyançı" çıxışından sonra cəzalandırılması üçün yəqin ki, rəsmi Bakı İƏT katibliyi qarşısında məsələ qaldırıb diplomatın geri çağırılmasını tələb edəcək. Ancaq aydın məsələdir ki, bu uzun bir proses olduğu üçün müəyyən zaman tələb edəcək.

❑ KƏNAN

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 124 (6152) 9 iyun 2015

**Xarici İşlər Nazirliyi (XİN) ATƏT-in Bakıdakı əlaqələndirici ofisinin bağlanması barədə nota verəndən sonra Azərbaycan hökuməti ilə bu beynəlxalq qurum arasında münasibətlərin perspektivinin necə olacağı gündəmin əsas suallarından biridir. Hələlik ofisdən ATƏT-in bu notaya baxdığını deməklə kifayətləniblər və rəsmi Bakı da əlavə hər hansı açıqlama vermir.**





# Qarabağ məsələsi BMT-yə qayıda bilərmi?

## "ATƏT-lə münasibətlər pozularsa, konfliktin tənzimlənməsi missiyasını hansı təşkilat üzərinə götürə bilər" sualına siyasi ekspertlərin maraqlı yanaşması var

Belə bir situasiyanın Qarabağ münaqişəsinin tənzimlənməsinə hansı təsir göstərəcəyi də diskussiya mövzusudur. Doğrudur, 20 ildən artıq müddətdə ATƏT-in Minsk Qrupu işğal altındakı ərazilərimizin azad edilməsi istiqamətində prinsipial mövqe sərgiləməyib. Həmsədrlərin fəaliyyəti də artıq o dərəcədə ikrah doğurur ki, son illərdə Azərbaycandakı ictimai-siyasi qurumlar səviyyəsində Minsk Qrupundan birdəfəlik imtina etmək çağırışları səslənir. Lakin Bakı hələ ki bu mövqedən çıxış etməyib və daha çox həmsədrlərin sayının Türkiyə və Almaniyanın hesabına 5-ə çatdırılması təklifinin reallaşdırılmasına çalışır. Görünən budur ki, ermənilər və onların dəstəkçiləri Azərbaycanın strateji müttəfiqi Türkiyənin, həmçinin Avropanın aparıcı dövləti Almaniyanın bu prosesə cəlb olunmasına imkan verməmək xətti götürüb. Bəzi müşahidəçilərə görə, sonuncu konfrontasiya şəraiti dolayısı ilə erməniləri hardasa məmnun edə biləcək situasiya yarada bilər. Belə olan təqdirdə ATƏT Qarabağın nizamlanmasından imtina edərsə, yaxud Bakı ilə yollar ayrılarsa, hansı təşkilat missiyanı üzərinə götürə bilər, məsələ yenidən BMT müstəvisinə qaytarıla bilərmi, suallarına cavab tapmaq istədik.

**Politoloq Qabil Hüseynliyə görə, Azərbaycan ATƏT-dən çıxsa, o zaman ATƏT-lə hər cür əlaqəni kəsə bilərik:** "İndiki halda biz yalnız ATƏT-in Bakı Ofisinin fəaliyyətinin dayandırılmasını istəmişik. Təbii ki, bu, xoş situasiya deyil. Amma heç də o demək deyil ki, hər şeyin sonudur. Hər halda, Bakı ATƏT-lə münasibətlərin yeni bir formasını axtarıb tapmağa çalışacaq. Çünki Minsk Qrupu, həmçinin atəşkəs rejiminə nəzarət üzrə ATƏT-in şəxsi nümayəndəsinin missiyası qalır, onlar bu yaxınlarda monitorinq də keçirdilər. Üstəlik, Azərbaycan Minsk Qrupunun formatının dəyişdirilməsi, yəni genişləndirilib 5-ə çatdırılmasını təklif edib. Həmin təklifdə də Türkiyə və Almaniyanın adlarını çəkib. Göründüyü kimi, ATƏT-lə əlaqələrin bu sahəsi tamamilə qalır və daha da inkişaf etdirilmək niyyəti var".

**Q.Hüseynli Azərbaycanın ATƏT-lə bir sıra müqavilələrinin olduğunu xatırlatdı:** "Bu müqavilələrdən ən mühümü Avropada adi silahların və silahlı qüvvələrin saxlanmasına dair cinah sazişidir. Yəni bu, postsovet məkanındakı ölkələr üçün silah kvotasını müəyyənləşdirən mühüm bir sazişdir. Azərbaycan bu sazişin müddəalarına əməl edir və eyni zamanda ATƏT-dən tələb edir ki, Ermənistanın dəfələrlə bu sazişin müddəalarını pozması faktlarına diqqət yetirsin. Amma təəssüf ki, Ermənistanın Rusiyadan aldığı 1 milyard dollarlıq silah və hərbi texnika, həmçinin Ermənistandakı Rusiya hərbi bazalarına daşınan yeni silahlar və hərbi texnikalar məsələsinə reaksiya verilməyib. Bütün bunlar silah kvotasının pozulması deməkdir".

**ATƏT-lə Bakı arasında yaranmış gərginliyin işğalçı ölkənin faydasına olması barədə fikirləri şərh edən ekspert də hesab edir ki, ermənilər Azərbaycanla ATƏT arasında münasibətlərin daha da gərginləşməsini çox istərdilər:** "Amma Azərbaycan münasibətlərin bu vəziyyətdə inkişaf etməsinə imkan verməyəcək. Fikrimcə, mütləq bu təşkilatla münasibətlərin qaydaya salınması üçün Azərbaycanın maraqlarına uyğun çözüm yolu tapılacaq".

**Q.Hüseynli zənn edir ki, ATƏT Bakının sərt reaksiyasının ardınca ən azı Qarabağ məsələsinin tənzimlənməsinə münasibətdə hərəkətə keçəcək:** "ATƏT 23 il ərzində Qarabağ məsələsində, sadəcə, baş girləyib, münaqişənin həlli üçün konkret bir şey təklif etməyib - baxmayaraq ki, bu mandatı ATƏT-in Minsk Qrupuna BMT verib. BMT-nin Təhlükəsizlik Şurasının da bu münaqişə ilə bağlı 4 mühüm qətnaməsi var. Ən azından həmin qətnamələrin yerinə yetirilməsi istiqamətində Minsk Qrupu diqqətçəkən hər hansı iş görməyib. Yəni burada Azərbaycanın ATƏT-i qınaması üçün yetərli faktlar tapmaq mümkündür. ATƏT-in Müşahidə Missiyası Ukraynada bütün təmas xətti boyunca müşahidə funksiyası yerinə yetirir. Bu, 300 nəfərdən çox adam, onları qoruyan yüngül silahla təchiz edilmiş döyüşçülərdən ibarət əlavə qrup deməkdir. Azərbaycanda bu gün təmas boyunca ermənilər böyük yanğınlar törədir və o yanğınlar işğal edilmiş ərazilərdəki kənd təsərrüfatı sahələrinə, eləcə də fauna və floraya ciddi zərər verir, amma Azərbaycan şikayət etsə də, ermənilərin bu barbar hərəkəti bir dəfə də olsun qınaq obyekti olmayıb. Hətta onu təbiət hadisəsi kimi dəyərləndiriblər".

**Politoloq onu da vurğuladı ki, üstəlik, işğal altındakı ərazilərdə qanunsuz məskunlaşma son dövrlərdə daha da sürətlənib:** "Ermənilər hətta Şuşada universitet açırlar. Göyçə mahalından işğal altındakı Ağdərə rayonuna ikinci bir yol çəkilib. Ağdərə rayonundakı mis-molibden yataqlarının, eləcə də daşkömür yataqlarının irimiqyaslı istismarı prosesi həyata keçirilir. Bütün bunlar Azərbaycana vurulan 350 milyard dollardan artıq ziyanın ayrı-ayrı hissələridir. Amma ATƏT və Minsk Qrupu bunların heç birinə reaksiya vermir. Ən azı Bakının etirazından sonra ATƏT Qarabağ məsələsinə diqqətini artırmalı və işğala son verilməsi, məsələ ilə bağlı konkret addımların atılması istiqamətində hərəkətə keçməlidir".

**Politoloq Arzu Nağıyev ATƏT-in hazırda özündə dünyanın müxtəlif regionlarını, o cümlədən Şimali Amerika və Mərkəzi Asiya da olmaqla 57 dövləti birləşdirdiyini xatırlatdı:** "Bu dövlətlərin hər birinin öz bərabər statusları var və hər bir qərar konsensus əsasında qəbul edilir. Həmin qərarlar da hüquqi tənzimləmədən çox, siyasi xarakter daşıyır. Missiyanın əsas vəzifəsi regionda baş verən konfliktlərin aradan qaldırılmasına yardım etmək, böhranların idarə olunması və tənzimlənməsindən ibarət olmalıdır. Bizim timsalımızda da əsas missiya Dağlıq Qarabağ münaqişəsinin həllində yardımçı olmaqdır. Məhz buna görə də ATƏT-in Minsk Qrupu yaradılıb və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi və daimi danışıqların aparılması üçün şəraitin yaradılması ona həvalə edilib. Təəssüf ki, bu da bir nəticə vermir".

**A.Nağıyev bildirdi ki, son vaxtlar Bakıda keçiriləcək Avropa Oyunları ilə bağlı ATƏT-n Bakı Ofisinə istinadən verilən boykot çağırışları bu missiyanın əsas iş istiqamətinin Dağlıq Qarabağ münaqişəsinin həllindən çox, siyasi məsələlərlə müdaxilə etdiyini göstərir:** "Yəni Avropa İttifaqı dövlətlərinə Avropa Oyunları kimi idman hadisələrində iştirak edib-etməməklə bağlı məsləhətlər vermək bu missiyanın eyni zamanda Bakı ofisinin mandatına daxil deyil. Bir müddət əvvəl Riqa sammitində başqa yönümdə bəyanat verənlər indi sözlərindən imtina edirlər. Ofisin bağlanması heç də ATƏT-in Minsk Qrupunun missiyasına xitam vermək deyil, sadəcə olaraq, ATƏT və Azərbaycan hökuməti arasında layihələrin qarşılıqlı işlənməsi ilə bağlı memorandumun qüvvədən düşməsi deməkdir. Yəni birbaşa vəzifəsi Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlməli olan missiya nümayəndələri, demokratiya adı altında siyasi məsələlərin həllinə lüzumsuz və qərəzli, onlara aid olmayan tərzdə müdaxilə etməməlidirlər".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hesab edir ki, ATƏT-in nümayəndəliyi ABŞ-Azərbaycan münasibətlərinin qurbanı olub:** "ABŞ ATƏT-in Bakı nümayəndəliyinin rəhbərini hakimiyyətlə yaxınlıqda ittiham edərək, onu geri çağırmağa müvəffəq oldu, rəsmi Bakı da buna cavab olaraq nümayəndəliyin qapadılması prosesini sürətləndirdi. Əslində ATƏT-in Azərbaycandakı nümayəndəliyinin qapanacağı keçən ildən bəlli idi. Xarici işlər naziri Elmar Məmmədyarov bununla bağlı ATƏT-in mərkəzi qərargahına məktub göndərmişdi ki, həmin məktub mediada yayımlanmışdı. Onsuz da Azərbaycan hakimiyyəti xarici qrantların ölkəyə girişinə qadağa qoyub. ATƏT nümayəndəliyinin əsas fəaliyyət növlərindən biri isə yerli QHT-lərə qrant vermək idi. Bu yoxdursa, fəaliyyətə də ehtiyac qalmır. Buna baxmayaraq, fikrimcə, ATƏT-in Bakı nümayəndəliyi fəaliyyətini davam etdirməli idi. Nümayəndəlik Azərbaycanla ATƏT arasında birbaşa rabitə vasitəsi idi və biz bu əlaqədən imtina etməməli idik".

**Buna rəğmən, E.Şahinoğlu ATƏT nümayəndəliyinin qapadılmasının Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə təsir edəcəyi düşüncəsində də deyil:** "ATƏT-in Bakıdakı nümayəndəliyi illərdir fəaliyyət göstərib. Məgər bu amil həmsədrlərin münaqişənin həllinə müsbət təsirində özünü göstəribmi? Ümumiyyətlə, münaqişənin həlli ATƏT-dən asılı deyil, həmsədr dövlətlər - ABŞ, Fransa və Rusiya ortaya mövqe qoymalıdırlar. Bu isə yoxdur".

# Müdafiə nazirindən nikbin açıqlamalar



**"Tam əminliklə deyə bilərəm ki, Azərbaycan xalqı rahat bir şəkildə Avropa Oyunlarında iştirak, eləcə də izləyə bilər". Bunu ANS-ə müsahibəsində Azərbaycanın müdafiə naziri Zakir Həsənov deyib.**

Nazir bildirib ki, Silahlı Qüvvələrin Ali Baş Komandanın tapşırığı ilə bütün güc sturukturları plana uyğun şəkildə öz fəaliyyətlərini həyata keçirir: "Təbii ki, Müdafiə Nazirliyi də ona aid olan məsələlərin həllini planlı şəkildə icra edir. Bu gün tam əminliklə deyə bilərəm ki, bizim üzərimizə düşən vəzifələr yüksək səviyyədə həll olunur və bundan sonra da həll olunacaq". Z.Həsənov cəbhədəki vəziyyətdən də bəhs edib: "Bu gün möhtərəm prezidentin dediyi sözləri bir daha xatırlatmaq istəyirəm: məhz 2014-cü ilin yayında etibarən cəbhə boyu silahlı qüvvələr bütün təşəbbüsü ələ keçirərək, düşmən üzərində tam üstünlüyə sahib olub". Nazir bildirib ki, bütün hərbi hissələr və birləşmələr gecə-gündüz təlim mərkəzlərində təlimlərini davam etdirir: "Burada əsas məqsəd Azərbaycan Ordusunu müharibəyə hazırlaşdırmaqdır ki, ordu silahlı qüvvələrin qarşısında duran vəzifələrini yüksək səviyyədə yerinə yetirməyə hazır olsun. Deyə bilərəm ki, günü-gündən silahlı qüvvələrin döyüş hazırlığı təkmilləşir və yüksək səviyyədə təşkil olunur. Bununla yanaşı, onu da qeyd etmək istəyirəm ki, döyüş hazırlığının həddi yoxdur. Gecə-gündüz təlimlər davam etdirilir. Bu təlimləri həyata keçirmək üçün bu imkanı bizə Azərbaycan iqtisadiyyatı verir. Təlimlərdə çox sayda sursat və texnikadan istifadə olunur. Təbii ki, bütün bunların hamısı vəsait tələb edir. Xüsusən Azərbaycanın inkişafı bizə imkan verir ki, gecə-gündüz döyüş hazırlığı ilə məşğul olaq və döyüş hazırlığını yüksək səviyyədə təşkil edək".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 124 (6152) 9 iyun 2015

# Şagirdlərin 67 faizi ana dilindən "2" və "3" alıb

## 24393 11-ci sinif şagirdindən cəmi 37 nəfəri maksimum nəticə göstərərək 90 bal toplayıb

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) iyunun 6-da Sumqayıt, Abşeron, Mingəçevir, Gəncə, Daşkəsən, Şəmkir, Göygöl, Samux, Gədəbəy, Qazax, Ağstafa, Tovuz, Naftalan, Goranboy, Şəki, Zaqatala, Balakən, Qəbələ, Qax və Oğuz şəhərlərində yerləşən orta ümumtəhsil müəssisələrinin buraxılış siniflərində təhsil alan (IX və XI siniflərdə) şagirdlər üçün mərkəzləşdirilmiş qaydada keçirilmiş buraxılış imtahanlarının nəticələrinin statistik göstəricilərini açıqlayıb.**

TQDK-nın mətbuat xidmətindən verilən xəbərə görə, 9-cu sinif şagirdləri üçün buraxılış imtahanları test üsulu ilə ana dili və riyaziyyat fənləri üzrə keçirilib.

Şagirdlərə hər bir fənn üzrə 30, ümumilikdə 60 test tapşırığı təqdim olunub. Bundan əlavə, şagirdlər təqdim edilmiş mövzu üzrə yazı işi (inşa) yerinə yetiriblər. İmtahanın ümumi müddəti iki saat müəyyən edilib, test tapşırıqlarının yerinə yetirilməsinə 1,5 saat, yazı işinin yerinə yetirilməsinə 30 dəqiqə vaxt ayrılıb.

İmtahanda iştirakı nəzərdə tutulan 29382 şagirddən 410 nəfəri imtahana gəlməyib, 2 nəfər qaydaları pozduğu üçün nəticələri ləğv olunub. TQDK-nın internet saytında 28970 şagirdin imtahan nəticələri yerləşdirilib.

İştirakçılardan 50 nəfəri maksimum nəticə göstərərək 60 bal toplayıb.

11-ci sinif şagirdləri üçün buraxılış imtahanları test üsulu ilə ana dili, riyaziyyat və xarici dil fənləri üzrə keçirilib. Şagirdlərə hər bir fənn üzrə 30, ümumilikdə 90 test tapşırığı təqdim edilmişdir. Bundan əlavə, şagirdlərə təqdim edilmiş mövzu üzrə yazı işi yerinə yetirmək təklif olunub. İmtahanın ümumi müddəti iki saat




müəyyən edilib, test tapşırıqlarının yerinə yetirilməsinə 2 saat 15 dəqiqə, yazı işinin yerinə yetirilməsinə 30 dəqiqə vaxt ayrılıb.

İmtahanda iştirakı nəzərdə tutulan 24774 şagirddən 364 nəfəri imtahana gəlməyib, 17 nəfər qaydaları pozduğu üçün nəticələri ləğv olunub. TQDK-nın internet saytında 24393 şagirdin imtahan nəticələri yerləşdirilib.

İştirakçılardan 37 nəfəri maksimum nəticə göstərərək 90 bal toplayıb.

Buraxılış imtahanında iştirak etmiş 9-cu sinif şagirdlərinin 6229 nəfəri (21,65 faizi) ana dili fənni üzrə, 7746 nəfəri (26,74 faizi) riyaziyyat fənni üzrə "2" qiyməti alıb. Şagirdlərin 12 933 nəfəri (44,96 faizi) ana dili, 11 475 nəfəri isə riyaziyyat (39,61 faizi) riyaziyyat fənnindən "3" qiyməti alıblar. Məzunların 57 82 nəfəri (20,10 faizi) ana dilindən, 6052-si (2089 faizi) riyaziyyat fənnindən "4", 3821 nəfər (1328 faizi) ana dilindən, 3697 nəfər (12,76 faizi) isə riyaziyyat fənnindən "5" qiyməti alıb.

Qeyd edək ki, tədrisi ingilis, gürcü dillərində olan orta məktəblərdə ana dili fənni üzrə yekun qiymətləndirmə orta ümumtəhsil müəssisəsi tərəfindən aparılır.

Buraxılış imtahanında iştirak edən 11-ci sinif şagirdlərinin 5075 nəfəri (20,92 faizi) ana dili fənni üzrə, 5373 nəfəri (22,03 faizi) riyaziyyat, 4695 nəfəri (19,45 faizi) xarici dil, 56 nəfəri (22,49 faizi) isə kimya fənni üzrə "2" qiyməti alıb.

İmtahanda iştirak edənlərin 8878 nəfəri (36,60 faizi) ana dili fənni üzrə, 8569 nəfəri (35,13 faizi) riyaziyyat, 10 480 nəfəri (43,41 faizi) xarici dil, 148 nəfəri (59,44 faizi) isə kimya fənni üzrə "3" qiyməti alıb.

Məzunların 5942 nəfəri (24,50 faizi) ana dili fənni üzrə, 6868 nəfəri (28,16 faizi) riyaziyyat, 5236 nəfəri (21,69 faizi) xarici dil, 31 nəfəri (12,45 faizi) kimya fənni üzrə "4" qiyməti alıb.

İmtahan verən XI sinif şagirdlərinin 4361 nəfəri (17,98 faizi) ana dili fənni üzrə, 3583 nəfəri (14,69 faizi) riyaziyyat, 3733 nəfəri (15,46 faizi) xarici dil fənni, 14 nəfəri (5,62 faizi) isə kimya fənni üzrə "5" qiyməti alıb.

XI sinif şagirdləri üçün buraxılış imtahanları test üsulu ilə ana dili, riyaziyyat və xarici dil fənləri üzrə keçirilib. Şagirdlərə hər bir fənn üzrə 30, ümumilikdə 90 test tapşırığı təqdim edilmişdir. Bundan əlavə, şagirdlərə təqdim edilən mövzu üzrə yazı işi yerinə yetirmək təklif olunub.

Ana dili və riyaziyyat fənlərinin hər biri üzrə ayrılıqda test tapşırıqlarına verdiyi düzgün cavablarının sayı 8-dən, xarici dil *(xarici dil tədris olunmayan məktəblərin şagirdləri üçün kimya)* fənnindən isə 5-dən az olmayan şagirdlər müvəffəq qiymət alırlar.

Qeyd edək ki, imtahanlar Sumqayıt, Abşeron, Mingəçevir, Gəncə, Daşkəsən, Şəmkir, Göygöl, Samux, Gədəbəy, Qazax, Ağstafa, Tovuz, Naftalan, Goranboy, Şəki, Zaqatala, Balakən, Qəbələ, Qax və Oğuzda yerləşən orta ümumtəhsil müəssisələrinin buraxılış siniflərində mərkəzləşdirilmiş qaydada aparılıb.

Həmin gün Azərbaycan və rus bölmələri üzrə təhsil alan şagirdlərlə yanaşı, Bakı şəhərinin Səbayel və Nərimanov rayonlarında yerləşən və təhsili ingilis dilində olan orta məktəblərin, həmçinin Zaqatala, Qax və Balakən rayonlarında yerləşən və tədrisi gürcü dilində olan orta məktəblərin buraxılış siniflərində təhsil alan şagirdlər də buraxılış imtahanı veriblər.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**


Onun müalicəsi üçün 30000 $ lazımdır.
Allah rizası üçün hər kəs imkan daxilində öz yardımını əsirgəməsin!



**Balaca Əlirzanı xilas edək!**

Zülfüqarlı Əlirza Valeh oğlu

Bu il 7 yaşı tamam olan Əlirza balamızda **kəskin limfoblatik leykoz (qan xərçəngi)** aşkarlanıb. Vəziyyəti kritik olduğundan dərhal Minsk şəhərində yerləşən Belarus Leykoz Mərkəzinə (Государственное учреждение «Республиканский научно-практический центр детской онкологии, гематологии и иммунологии») çatdırılıb. Burada uşağı müayinə edən həkimlər onun sağalmaq şansının olduğunu, amma müalicənin uzunmüddətli və bahalı olduğunu bildirib.

Hazırda Minsk xəstəxanasında olan balaca Əlirzanın müalicə olunaraq sağlamlığına qovuşması üçün **30.000 dollar** lazımdır. Atası ikinci qrup əlil olan Əlirza xeyirxah insanların yardımları ilə bu müalicəyə başlaya bilər. Bu məbləğ toplanmasa, Əlirzanın həyatı sual altında ola bilər.

Əlirzanın valideyinləri hər bir kəsə müraciət edərək gözlərinin işığı yeganə oğul övladlarının həyatda qalması üçün əllərindən gələni əsirgəməmələrini rica edir! Onun müalicəsinə maliyyə dəstəyinin göstərilməsi üçün "Azərbaycan Beynəlxalq Bankı" və "Kapital Bank"da hesablar açılıb.

TEL: 055 785-60-05; 070 619-55-99

**The İnternational Bank of Azerbaijan**

CODE: 805056
SWİFT CODE: IBAZAZ2X
ADDRESS: TOLSTOY STR., 191 BAKU, AZERBAIJAN
TELEPHONE: (+99412) 498-19-82, 498-19-82
FAX: (+99412) 493-17-55
E-MAIL: SAB@IBARAZ.COM
PRIVATE ACCOUNT: AZ94IBAZ33882018402433912209
CLIENT: ZULFUGAROV VALEH MUTALLIM
CURRENCY: USD

FİLİAL KOD: 805056
MÜXBİR HESAB: AZ03NABZ01350000000002944
SWİFT CODE: IBAZAZ2X
VÖEN: 9900001881
ÜNVAN: TOLSTOY küç. 191, BAKI, AZƏRBAYCAN. AZ
TELEFON: (+99412) 498-19-82, 498-19-82
FAKS: (+99412) 493-17-55
HESAB NÖMRƏSİ: AZ02IBAZ33881019442433912209
MÜŞTƏRİ: ZULFUGAROV VALEH MUTALLIM
VALYUTA: AZN

**Kapital Bank**

| | |
|---|---|
| Valyuta: | AZN |
| Benefisiarın Bankı: | Kapital Bank ASC-nin Bakı şəhər filialı |
| Filialın kodu: | 200026 |
| VÖEN: | 9900003611 |
| SWIFT kod: | AIIBAZ2X |
| Müxbir hesab: | AZ37NABZ01350100000000001944 |
| Benefisiarın adı: | Zülfüqarlı Əlirza Valeh |
| Benefisiarın hesabı: | AZ64AIIB38010019441031241102 |

| | |
|---|---|
| Valyuta: | USD |
| Benefisiarın Bankı: | Kapital Bank ASC-nin Bakı şəhər filialı |
| Filialın kodu: | 200026 |
| VÖEN: | 9900003611 |
| SWIFT kod: | AIIBAZ2X |
| Benefisiarın adı: | Zülfüqarlı Əlirza Valeh |
| Benefisiarın hesabı: | AZ64AIIB38110018401031241102 |
| **Müxbir hesab:** | **Citibannk N.A. /New York, USA** SWIFT code: CITIUS33 Corr.account: 36089289 |

## Balaca Əlirzaya kömək lazımdır

**Bu il 7 yaşı tamam olan Əlirza Zülfüqarlıda kəskin yimfoblatik leykoz (qan xərçəngi) aşkarlanıb. Vəziyyəti kritik olduğundan onu dərhal Minsk şəhərində yerləşən Belarus Leykoz Mərkəzinə yerləşdiriblər. Burada usagı müayinə edən həkimlər onun sağalma şansının olduğunu, amma müalicənin uzunmüddətli və bahalı olduğunu bildiriblər. Hazırda Minsk xəstəxanasında olan Əlirzanın müalicəsi üçün 30 000 dollar vəsait lazımdır. Əlirzanın valideyinləri xeyirxah insanlara müraciət edərək 7 yaşlı övladlarının həyatda qalması üçün yardım etməyi xahiş edirlər.**

## Bakıda daha bir avtobus qəzası



**Bakıda daha bir avtobus qəzası baş verib. Musavat.com-un Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, nazirliyin "112" qaynar xəttinə Bakı şəhəri, Qaradağ rayonunda "Mercedes" markalı yük avtomobili ilə "Daewoo" markalı sərnişin avtobusunun toqquşması barədə məlumat daxil olub. Nəticədə avtomobillər deformasiyaya uğrayıb, "Mercedes" markalı avtomobildə sıxılmış vəziyyətdə qalan sürücü xilasedicilər tərəfindən çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.**

YENİ MÜSAVAT
N 124 (6152) 9 iyun 2015

# "Hökumət dollara olan tələbi azaltmağa çalışmalıdır"

## Vüqar Bayramov manat və dollar barədə ən çox verilən sualları cavablandırdı

**Tanınmış iqtisadçı Vüqar Bayramov dollar və avronun məzənnəsinin artıb-azalmasına, eyni zamanda yatırım barədə ən çox maraq doğuran məsələlərə aydınlıq gətirib. Öz şəxsi facebook profilində geniş məlumat verən iqtisadçı hansı valyuta ilə yığım etməklə bağlı məsləhətlər də verib. V.Vayramovun statusunu təqdim edirik:**

"Manatın ötən həftənin əvvəllərində dollara nisbətən zəifləməsi və avro ilə müqayisədə güclənməsi həftənin sonuna doğru milli valyutamizin ABŞ puluna nisbətən möhkəmlənməsi ilə yadda qaldı. Baxmayaraq ki, Amerika pulu bu həftəyə Bakıda cüzi möhkəmlənmə ilə başladı, amma manatın dövrü nisbi güclənməsi fonunda vəsaitlərini dollarla saxlayan vətəndaşlar arasında yenidən hansı valyuta ilə yığım etmək ilə bağlı suallar yaratdı. Bu gün ən çox verilən sualları qısa olaraq qruplaşdırsaq təbii ki, ən çox soruşulan məsələ milli valyutanın taleyi ilə bağlıdır.

***1. Manatın məzənnəsi yaxın aylarda necə dəyişəcək?***

- Milli valyutamızın yaxın aylarda məzənnəsi daha çox dünya valyuta bazarında baş verənlərdən asılı olacaq. Manatın son günlərdəki rəsmi məzənnəsi göstərir ki, Mərkəzi Bank valyuta səbətində avronun payını artırıb. Praktik olaraq, dollar avroya nisbətən möhkəmlənən zaman manata nisbətən də güclənir. Və ya əksinə: dollarla müqayisədə dəyər itirən avro manat qarşısında da zəifləyir. Deməli, bu artıq Mərkəzi Bankın çevik valyuta siyasətinə keçərək valyuta səbətində milli valyutamızın gələcək məzənnəsinə təsir edəcək dəyişiklik etdiyindən xəbər verir. Əslində, bu artıq manatın avronun məzənnəsində tədricən asıllığın yaranması anlamına da gəlir. Bu isə o deməkdir ki, manatın növbəti mərhələdə məzənnəsi həmçinin Avropa pulunun durumundan asılı olacaq. Əgər avrozonada milli valyuta möhkəmlənəcəksə, o zaman manat da dollara nisbətən dəyər qazanacaq. Avronun dollara nisbətən zəifləməsi isə manatın da yumşalmasına səbəb olacaq. Bu isə o deməkdir ki, Mərkəzi Bank hələlik mövcud məzənnə dəhlizindən kənara çıxmamağa çalışacaq.

***2. Milli valyutanın məzənnəsində 1 dollar yaxın zamanlarda 1 manatdan aşağı düşə bilərmi?***

- Manatın məzənnəsini Mərkəzi Bank inzibati yolla müəyyənləşdirdiyi üçün milli valyutanın kursunu valyuta bazarında baş verənlərə əsasən proqnozlaşdırmaq mümkün deyil. Bununla yanaşı, son trendləri nəzərə aldıqda, yaxın zamanlarda manatın dolları "qəpiklərlə satın alması" mümkünsüz görsənir. Eyni zamanda manatın kəskin möhkəmlənməsi nəinki valyuta va dünya neft bazarındakı mövcud vəziyyət, hətta iqtisadi hədəflər baxımdan da məqbul hesab edilmir. Çünki möhkəm milli valyuta hər zaman qeyri-enerji ixracatını tormozlayır. Bu baxımdan, Mərkəzi Bankın hətta xarici faktorlar arzuolunan olduğu halda belə kəskin məzənnə möhkəmlənməsinə gedəcəyi gözlənilmir.

**Vüqar Bayramov növbəti devalvasiya ehtimalina və manatın kəskin ucuzlaşacağı iddialarına da cavab verib:**

***3. Ölkəmizdə yeni develvasiya ola bilərmi?***

- Əvvəla, bu ilin fevral ayından sonra yaxın zamanlarda yeni devalvasiya olacağı və manatın kəskin ucuzlaşacağı ilə bağlı bir sıra xəbər portallarının manşet xəbərləri valyuta bazarına spukelyativ neqativ təsir göstərməklə yanaşı, vətəndaşlar arasında valyuta yığımları baxımdan süni ajotaj yaradırdı. Bəzi portalların mart ayından may ayınadək 1 dollar almaq 5 manat və bəzən hətta 20 manat ödəniləcəyi ilə bağlı əsaslandırılmayan məlumatları ictimai məsuliyyət baxımdan çox arzuolunmazdır. Mövcud şərtlər daxilində Mərkəzi Bank çalışacaq ki, yaxın aylarda manatı kəskin yumşaltmasın. Milli valyutanın son zamanlar dəyişən məzənnəsi göstərir ki, Mərkəzi Bank hələlik özü üçün müəyyənləşdirdiyi dəhliz çərçivəsində dəyişəcək. Bununla da manatın məzənnəsinin necə dəyişəcəyi barədə konkret fikir formalaşmasına əsas yaratmayacaq. Əslində, hazırda manatın məzənnəsinin möhkəmlənməsinə iqtisadi baxımdan əsas olmamaqla yanaşı, onun kursunun kəskin ucuzlaşmasına sosial aspektdən lüzum da yoxdur. Belə görsənir ki, neftin dünya bazar qiymətinə və eləcə də ticarət üzrə əsas tərəfdaş ölkələrdəki milli valyutalardakı məzənnə dəyişikliyinə uyğun olaraq manatın kursu müəyyənləşəcək. Hələliksə baş bankda xirda korrektələrlə mövcud məzənnəni qoruyub saxlamağa çalışacaqları gözlənilir. Dünya neft bazarındakı mövcud tendensiyanı nəzərə alsaq, Mərkəzi Bank hələ bir müddət mövcud məzənnə sərhədləri daxilində məzənnəni müəyyənləşdirməyə çalışacaq.


Vüqar Bayramov

***4. Manatın dollara məzənnəsi hansı halda bərabərləşə bilər?***

- Strateji baxımdan manatın məzənnəsi ölkəyə daxil olan valyuta kütləsindən asılıdır. Neftin dünya bazar qiymətinin hər barel üçün 80 dolları örtəcəyi və həmin intervalda stabilləşəcəyi halda manat rahat nəfəs ala biləcək. Bu halda artıq manatın dollara məzənnəsinin bərabərləşməsi mümkün olacaq. Praktik olaraq milli valyutamızla dolların kursunun bərabərləşməsi həm valyuta stabilliyi baxımdan, həm də qeyri-neft sektorunun ixrac potensialını qorumaq baxımdan mümkündür.

***5. Valyuta bazarında baş verə biləcək dəyişikliklərdən necə sığortalanmaq olar?***

- Ötən ilin sonlarında tövsiyə etdiyimiz kimi, vəsaitlər nağd şəkildə saxlanan zaman səbətdən istifadə edilməsi məqsədəuyğundur. Xüsusən də dünya valyuta bazarındakı mövcud vəziyyəti, milli valyutamızın mövcud dəhliz daxilində dəyişiklikləri nəzərə alaraq nağd şəkildə saxlanan vəsaitlərin bir valyuta ilə deyil, bir neçə valyuta ilə saxlanması arzuolunandır. Bu, avro, manat və dollar ola bilər. Biz valyuta səbəti olaraq, vəsaitlərin 60 faizinin dollar, 20 faizinin manat, 20 faizinin isə avro kimi saxlanılmasının tərəfdarıyıq ki, bu da valyuta bazarındakı intensiv dəyişikliklərdən həmin vəsaitlərin sığorta olunmasına və onların dəyərinin itməsinin qarşının alınmasına şərait yaradacaq.

***6. Pulu olan vətəndaşlarımız vəsaitini hansı istiqamətlərə yatırım etsələr əlverişli olar?***

- Bakıda daşınmaz əmlaka yatırım etmək istəyənlər paytaxtdan kənarda yerləşən, qiyməti nisbətən ucuz olan torpaq sahələrini ala bilərlər. Xüsusən də şəhərin mərkəzində sökülən məhəllələrdəki mənzil sahiblərinə verilən kompensasiyaları nəzərə alsaq, paytaxtdan kənardakı ərazilərdə torpaq sahələrinin qiymətinin daha da bahalaşacağı gözlənilir. Hətta neftin qiyməti ucuzlaşsa belə, bu torpaq sahələrinə tələbat yüksək olacaq. Daşınmaz əmlaka yatırım etmək istəyənlər daha çox Mərkəzi və Şərqi Avropa ölkələrinə vəsait ayırması arzuolunandır. Xüsusən də Çexiya, Polşa, Macarıstan və Bolqarıstanda hazırda daşınmaz əmlakın qiyməti ucuzlaşır. Bu ölkələrdə daşınmaz əmlaka sərmayə qoyuluşu bir müddət sonra yüksək gəlir gətirəcək. Bakıda daşınmaz əmlakın qiyməti isə 2015-ci ilin növbəti aylarında daha da azalacaq. Vəsaitlərini qızıla yönəltmək istəyənlərə gəlincə maliyyə vəsaitlərinin zinət əşyası kimi satılan qızıla çevrilərək saxlanılması arzuolunan deyil. Çünki bu zaman qızılın alış və satış qiyməti arasında fərq olduğu üçün bu, birmənalı şəkildə imkan vermir ki, qızılda vəsait saxlamaqla gəlir əldə etmək mümkün olsun. Əgər 1000 manatlıq qızıl-zinət əşyası alınıbsa, onu satarkən ən yaxşı halda, 700 manata geri alınır. Bu baxımdan, zinət xarakterli qızıla yatırım etmək doğru deyil. Ancaq bununla yanaşı, külçə halında satılan qızılın alınması arzuolunandır.

***7. Xarici valyutalara tələbin azaldılması üçün nələrin edilməsinə ehtiyac var?***

- Bu ayın əvvəlinə Mərkəzi Bankın valyuta ehtiyatlarının artması manatın məzənnəsinə həm psixloji, həm də iqtisadi baxımdan müsbət təsir göstərə bilər. Baş bankda borclanmalar hesabına valyuta ehtiyatlarının həcmindəki azalmaların qarşısının alınmasına çalışılacağı gözlənilir. Başqa tərəfdən, Mərkəzi Bank və eləcə də hökumət dolayı vasitələr ilə dollara olan tələbi azaltmağa çalışmalıdır. Qiymətli kağızlar bazarının inkişaf etdirməklə əhalinin qeyri-valyuta yığım imkanlarını artırmaq və bütövlükdə dollara tələbin azalmasına nail olmaq mümkündür".

❑ GÜLNAR

# DÇ-2018 Rusiyadan alınsa, Azərbaycana verilə bilərmi?

## FİFA-dakı narazılıq səngimir; Rusiya və Qətər yarışmanı keçirmək hüququndan məhrum edilə bilər

**Beynəlxalq Futbol Assosiasiyasında (FİFA) yaranan narazılıq səngimək bilmir. Mayın 27-dən başlayan proses artan xətlə gedir. İlk olaraq, bir sıra yüksək rütbəli şəxslərin həbsi, ardınca Rusiyanın dəstəyi ilə FİFA prezidenti seçilən Yozef Blatterin istefaya getməsi qalmaqalın artmasına səbəb oldu.**

Bəzi futbol mütəxəssisləri hesab edirlər ki, baş verənlərin kökündə DÇ-2018-in Rusiyaya verilməsi durur. Artıq qonşu dövlətimizin nüfuzlu yarışmaya ev sahibliyi edəcəyi şübhə altına düşüb. Rusiyanın güdazına DÇ-2022-nin keçiriləcəyi Qətər də gedə bilər.

Belə ki, FİFA rəsmisi Domenico Skala deyir ki, korrupsiya iddiaları təsdiqini taparsa, Rusiya və Qətər dünya çempionatına ev sahibliyi etmək hüququnu itirə bilərlər. İlk dəfədir ki, qurumun yüksək rütbəli rəsmisi belə bir ehtimalı dilə gətirir: "Sübut olunsa ki, Qətər və Rusiya dünya çempionatına ev sahibliyini rüşvətlə əldə ediblər, onda bu hüquq ləğv oluna bilər" deyə, Skala iyunun 7-də İsveçrənin "Sonntagszeitung" qəzetinə bildirib.

Belə bir ehtimallar var ki, Rusiyadan bu hüquq geri alınsa, digər qonşu dövlətlərə verilə bilər. Belə olan halda Azərbaycanın şansının nə qədər yüksək olacağı maraq doğurur. 2020-ci ildə keçiriləcək Avropa çempionatının iki oyununun ölkəmizə salınması bəzi ümid işartıları yaradır.

**Komanda.az saytının redaktoru Natiq Muxtarlı hesab edir ki, ölkəmiz belə yarışmanı keçirməyə hazır deyil:** "Belə bir halın yaranacağına inanmıram. Bunun üçün əsas da görmürəm. Diqqət yetirsək, görərik ki, 1998-ci ildə Fransada, 2006-cı ildə Almaniyada keçirilən dünya çempionatında da bu cür korrupsiya halları olmuşdu. Bütün hallarda Rusiyanın bu hüquqlardan məhrum ediləcəyinə inanmıram. Əgər Rusiyadan alınsa belə, ölkəmizdə keçirilməsi mümkün deyil. Çünki dünya çempionatı bir şəhərdə keçiriləcək turnir deyil. Ən azı 7-8 şəhər lazımdır. Orada dünya standartlarına cavab verəcək stadionlar olmalıdır. Azərbaycanın hazırkı infrastrukturu buna imkan vermir. İkinci ən böyük şəhərimiz olan Gəncədə stadion belə yoxdur. Kəpəz komandası Bakıda oyunlarını keçirir. Azərbaycan bunu 20 ilə belə edə bilməz. Rusiyadan bu səlahiyyət alınsa belə, güclü infrastrukturu olan ölkələrə veriləcək. Çünki bu ölkələrə stadion tikməyə ehtiyac yoxdur. Yaxşı da gəlirləri olur. İndiki halda Azərbaycana bu hüququn verilməsi və ölkəmizin keçirməyə gücünün çatacağı real deyil".

**İdman jurnalisti 2020-də ölkəmizdə keçiriləcək Avropa Çempionatının iki oyununa da toxundu:** "Bu yarışma bir neçə şəhərdə keçirilir. Bakıda iki oyunu keçirmək olar. Amma dünya çempionatı tamam fərqlidir".

**Natiq Muxtarlı onu da qeyd etdi ki, Rusiyanın əlindən DÇ-2018-in alınması üçün dünya gücləri birləşib:** "Məsələnin mahiyyəti bundan ibarətdir. FİFA-da Rusiyanın nüfuzu da az deyil. ABŞ və İngiltərənin apardıqları kampaniyada elə kiçik ölkələr var ki, iştirak etmirlər. Ona görə də bu mübarizədə hansı ölkənin qalib gələcəyini indidən söyləmək mümkün deyil".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT

Son səhifə

N 124 (6152) 9 iyun 2015



# Gözəl qocalmağın 9 yolu

**Çoxları gözəl qocalmağı mif hesab edir. Amma bu gün yaşı 60, hətta 70-i keçən elə insanlar var ki, özlərindən yaşca daha kiçiklərdən cazibədar görünürlər. Bəs bunu onlar nəyə borcludurlar?**

**1. İdman -** 30 yaşdan sonra əzələ kütləsi azalmağa başlayır. Buna görə də müntəzəm olaraq idman və iradə lazımdır.

**2. Stress -** çoxsaylı araşdırmalar göstərir ki, stress qocalma prosesini sürətləndirir. Hüceyrələri məhv edir.

**3. Təəssüf -** əgər siz daim keçmişlə yaşayırsınızsa, gələcəyə hərəkət etmək çox çətin olacaq.

**4. Maraq -** hər gün nə isə yeni bir şey öyrənməyə çalışanların həyata sevgisi də çox olur.

**5. Makiyaj -** çoxları düşünür ki, yaş artdıqca makiyaj da artmalıdır. Lakin ehtiyatlı olun, artıq krem ənlik sizi olduğunuzdan da yaşlı göstərə bilər.

**6. Pozitiv -** xəstəlik, yaşla bağlı uzun-uzadı şikayətlər etmək olar. Daha yaxşı olar ki, immun sistemini möhkəmləndirəsiniz və pozitiv olasınız.

**7. Sağlam yuxu -** alimlər də keyfiyyətli yuxunu gəncliyin əsas səbəblərindən biri hesab edirlər. Gün ərzində ən azı 7 saat yatmaq məsləhətdir.

**8. Düzgün qida -** qidalanma dərinin görünüşünə ən çox təsir edən amillərdən biridir.

**9. Obraz -** illər keçdikcə xarici görünüşümüz dəyişir. Bəziləri bunun qarşısını almaq üçün əlindən gələni edir, bəziləri isə hər yaşın öz gözəlliyi var deyib, təbiiliyi qoruyur.

# Həbsdən film kimi qaçış

**Amerikanın təhlükəsiz həbsxanalarından biri kimi tanınan Nyu-Yorkdakı Klinton həbsxanasından film kimi qaçış baş verib. 1865-ci ildən istifadəyə verilən həbsxanadan bir nəfər belə qaça bilmədiyi halda, bu günlərdə Riçard Matt və David Sveat adlı iki məhkum qaça bilib.**



Belə ki, cümə günü, gecə saat 22:30-dakı yoxlamada həbsxanada olan məhkumlar səhər saat 05:30-da fərari kimi qeydə alınıblar. Kiçik inşaat alətləri ilə divarı dələn fərarilər həbsxananın kanalizasiya borusu vasitəsilə çıxaraq qaçıblar. Həbsxananın bir hissəsində təmir işləri davam etdiyi üçün məhkumların inşaat alətlərini oğurladıqları güman edilir. Məhkumlar kanalizasiya trubasına "sizə xoş günlər diləyirik" yazılmış bir kağız da qoyublar.

Hadisədən sonra türmə ətrafında axtarışlar aparılıb. İtlər və 200 nəfərlik polisdən ibarət qrup Matt və Sveatı axtarıblar. Nyu-York polisi məhkumlar təhlükəli olduqları üçün əhalini diqqətli olmağa çağırıb. R.Matt 1997-ci ildə bir nəferi qaçırıb öldürdüyü üçün 25 il, Sveat isə 2002-ci ildə bir polisi öldürdüyü üçün ömürlük həbs cəzası almışdı. Məhkumların qaçış hekayəti "Oscar" mükafatı almış "Əsarətin bədəli" adlı filmə bənzədilib.

# Şəkər tozunun səbəb olduğu təhlükələr



**Məlumdur ki, meyvələrin və o cümlədən gün ərzində yediyimiz bir çox digər təbii məhsulun tərkibində şəkər var. Ona görə də bir çox dietoloqlar əlavə şəkər qəbul etməyi məsləhət görmürlər. Halbuki əksər insanlar çaya bir neçə qaşıq şəkər tozu əlavə edir, içərisində bol miqdarda şəkər olan şirniyyatlar yeyir, marketlərdə satılan tərkibi şəkərlə zəngin meyvə suları və qazlı içkilər içirlər.**

Ancaq şəkər tozunun insan sağlamlığına vurduğu zərərlərdən xəbərdar olsanız, bu ağ zəhərdən uzaq durarsınız. Publika.az həddən artıq şəkər qəbul edən insanların hansı təhlükələrlə üzləşə biləcəklərini araşdırıb:

**1. Ömrü qısaldır -** araşdırmalar zamanı şəkərli qidalar yedizdirilən siçanların normaldan daha az yaşadıqları məlum olub.

**2. Sonsuzluq yaradır -** ABŞ-da aparılan tədqiqatlar göstərib ki, şəkər tozu verilən siçanlar nəsil artıra bilmirlər.

**3. Aclıq yaradır -** qaraciyər ancaq meyvə kimi qidaların tərkibindəki təbii şəkəri tanıyır. Süni şəkər, yəni şəkər tozu insulin istehsalına kömək edə bilmədiyi üçün beyinə toxluq siqnalının getməsinə mane olur. Beləliklə, insan özünü mütəmadi olaraq ac hiss edir.

**4. Daxili orqanlarda və bel** bölgəsində piylənməyə səbəb olur - qaraciyər süni şəkəri parçalayıb enerjiyə çevirə bilmir. Ona gərə də bu şəkər bədəndə yağ formasında toplanır.

**5. Köklüyə səbəb olur -** beyinə toxluq siqnalı getmədiyi üçün insan mütəmadi olaraq yemək istəyir. Bu da həddən artıq kalori almağa və köklüyə gətirib çıxarır.

**6. Ürək və damar problemləri -** iflic, insult kimi təhlükəli vəziyyətlərə, həmçinin ürək-damar xəstəliklərinə səbəb olur.

**7. Sirroz - qaraciyər yağlanmasına** və serroza səbəb olur.

**8. Şəkər xəstəliyi -** "Global Public Health" nüfuzlu sağlamlıq jurnalında yayımlanan araşdırmaya görə, həddən çox şəkərli qidalar şəkər xəstəliyinə gətirib çıxara bilər.

**9. Xolesterin -** şəkər xolesterinin səviyyəsinin yüksəlməsinin əsas səbəbkarlarından biridir.

**10. Mədəaltı vəzin xərçəngi -** daxili orqanların yağlanmasına səbəb olduğu üçün mədəaltı vəzin xərçənginə gətirib çıxara bilər.



# Hitlerin qadağan edilmiş fotoları

**Almaniya Nasist Partiyasının lideri Adolf Hitlerin qadağan edilmiş fotoları yayımlanıb. II Dünya müharibəsinin səbəbkarı hakimiyyətə gəldikdən sonra 1924-cü ildə xüsusi fotoqrafçısına çəkdirdiyi şəkillərin yayımını dayandırıb.**

Meydanlarda milyonlarla adama xitab edən Hitler imicinin pozulacağından ehtiyat edirmiş. Məhz bu səbəbdən o, şortla olan şəkillərinin yayımını qadağan edibmiş. Hitler çəkilişdən sonra fotoların yalnız xüsusi arxivdə saxlanılmasını istəyib. O, "ciddiliyimiz pozular" deyərək şəkillərin heç kim tərəfindən görülməməsini istəyibmiş.





**QOÇ -** Ulduzların düzümü himayəsində olduğunuz bu gündə riskdən uzaq olmağı tövsiyə edir. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.


**BUĞA -** İnsanların bir-birinə soyuqlaşdığı indiki ərəfədə dini-mistik dəyərlərə qiymət verməlisiniz. Bu baxımdan Tanrıya zidd olan addımlar atmamalısınız. Səhhətinizi qoruyun.


**ƏKİZLƏR -** Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Başqalarının qəlbinə dəyən hərəkətlərə yol verməyin.


**XƏRÇƏNG -** Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.


**ŞİR -** Bu xoş gündə ən müxtəlif situasiyalarla rastlaşa bilərsiniz. Daha həssas olduğunuz üçün emosiyalarınızı cilovlayın. Mübahisə etməyin. Başınızı yalnız adi işlərlə qatın.


**QIZ -** Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.


**TƏRƏZİ -** Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.


**ƏQRƏB -** O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.


**OXATAN -** Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanın. Bu gün müqəddəs ziyarətgahlara getmək sizə rahatlıq gətirəcək.


**OĞLAQ -** Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Ölçülü-biçili danışın.


**SUTÖKƏN -** İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Bəxtinizdə pul da var.


**BALIQLAR -** Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Şahzadə bacısını tanıtdı



**İngiltərə monarxiyasının vəliəhdlərindən Şahzadə Uilyam və Keyt Midiltonun 2 yaşlı oğlu Şahzadə Corc qıza müddət əvvəl dünyaya gələn bacısı Şarlotta Elizabet Diananı ictimaiyyətə tanıdıb. Krallıq ailəsi tərəfindən mediada təqdim edilən 4 şəkildə görünür ki, şahzadə Corc balaca bacısını qulağında saxlayır, öpür və gülür. May ayında Marys xəstəxanasında dünyaya gələn Uilyam və Diana cütlüyünün ilk övladı olan Şahzadə Corc da 2013-cü ildə bacısı ilə eyni xəstəxanada dünyaya gəlmişdi.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300